Bu bir xalq qəzetidi
ƏDALƏT

## Hikmət Hacıyev UNESCO-nu tənqid etdi



**"Diasporumuz Azərbaycanda mina problemini bəşəriyyətin problemi kimi qaldırılmalıdır".**

Adalet.az xəbər verir ki, bunu bu gün Şuşada Dünya Azərbaycanlılarının V Qurultayı çərçivəsində "Post-müharibə dövründə Azərbaycan diasporunun qarşısında duran vəzifələr, fəaliyyət planı/yol xəritəsi" mövzusunda panel iclasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib. Hikmət Hacıyev qeyd edib ki, beynəlxalq təşkilatların Azərbaycana minalardan təmizləmə sahəsində dəstəyi qənaətbəxş deyil.

"Bizə qarşı o iddialar da irəli sürülür ki, guya biz ermənilərin mədəni abidələrini dağıdırıq. "Oğru elə bağırdı, doğrunun bağrı yarıldı" məsəli yada düşür. Təəssüf ki, UNESCO ilə Azərbaycan arasında danışıqlar bu gün də davam edir. Biz hələ işğal dövründə UNESCO-nu dəvət edirdik ki, işğal olunmuş ərazilərdə mədəniyyət abidələrimizin durumu araşdırılsın. Deyirdilər ki, biz siyasi məsələlərə qarışmırıq. İndi isə deyirlər ki, məsələn, yol boyunca birinci, ikinci abidələrə baxacağıq, digərlərinə baxmayacağıq. Necə olur ki, A və B məntəqələrinə baxırsan, digərlərinə baxmırsan?"

## Ərdoğan Putin və Zelenski ilə danışıqlar aparacaq



**Rusiya prezidenti cənab Putin və Ukrayna prezidenti cənab Zelenski ilə yenidən görüşməyi planlaşdırırıq.**

Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, bu görüşlə İstanbulda prosesin liderlər səviyyəsində davam etdirilməsi planlaşdırılır.

"Ümid edirəm ki, dəvətimizi qəbul etsələr, yüksək səviyyəli görüşü İstanbulda keçirəcəyik", - deyə o əlavə edib.

## "1915-ci il hadisələri kirli siyasət mövzusuna çevrilib"



**1915-ci ildə baş verən hadisələr tarix predmeti olmalı olduğu halda, kirli siyasət mövzusuna çevrilib.**

Adalet.az-ın məlumatına görə, bunu Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fəxrəddin Altun deyib.

O qeyd edib ki, türklərlə ermənilər yüz illər boyu birlikdə yaşamaq mədəniyyəti formalaşdırıblar.

"Biz yüz illər boyu sevinci də, kədəri də paylaşmışıq. Aramızda düşmənçilik toxumları səpməyə çalışanlara qarşı birlikdə mübarizə aparmalıyıq. 1915-ci ildə baş verən hadisələr tarix mövzusu olmalı olduğu halda, kirli siyasət mövzusuna çevrilib", - deyə F.Altun əlavə edib.

## YA HESABI BİLMİRLƏR, YA DA ŞALLAQ GÖRMƏYİBLƏR



**Mətbuatda oxuyuram ki, Rusiya-Ukrayna müharibəsinin hər günü Rusiyaya 20 milyard dollara başa gəlir. Rusiyanın da illik büdcəsi təxminən 350-400 milyard dollardı, Rəsul Quliyevin sözü olmasın, qudursun olsun 500 milyard dollar. Hərbiyə ayırdığı büdcə də 70 milyard dollardı. İndi belə çıxır ki, Rusiya bu günədək 1 trilyon 100 milyard dollar pul itirib.**

Görən, kimdən borc alıb?

- Sən öl, dünən uşaqlarla İnturistdə nə təhər yeyib-içdiksə, yeddi yüz manat da şot verdik. Bağışla, o Avrorandan birini də mənə ver çəkim.

## BU ALLAHVERDİ BAĞIROVDU



**Əntiqə Rəşidin yazısı da bugünki nömrəmizdə.**

## GÖRƏSƏN, BİZDƏ DƏ BELƏ MÜƏLLİM VARMI?



**İtaliyada Antonio Cava adlı təqaüdə çıxmış bir müəllim kəndbəkənd gəzərək uşaqlara kitab paylayır.**

## AZARKEŞLƏRİ NECƏ ŞİRNİKLƏNDİRMƏLİ?



***Vəd olunub verilməyən "İphone"nun başına mindən çox adam yığışır, amma "Qarabağ"la "Neftçi" istisna olmaqla, futbol oyunlarına 200-300 adam gəlmir.***

Bizim millət bəxtə, qumara, lotereyaya çox inanır. Pozub Alı bəyinkini qazanmasalar da, son manatını "Pozqazan" lotereyasına verib axşam uşaqlarının yanına əliboş gedənlər, hətta ev-eşiyini satıb "Topaz"a qoyanlar, indi də təzə biri çıxıb "Misli" və sair və ilaxır...

Bəlkə bu qumar oyunlarını stadionlara daşıyaq? Doğru sözümdü. Sovet vaxtı olurdu belə şeylər. Aldığın bilet hətta maşın udurdu. Stadionun içində üç dənə fırfıra qoyurdular, birində sektor olurdu, birində sıra nömrəsi, birində də oturduğun yerin nömrəsi. Sonra da fırfıranı fırlayıb xoşbəxt bilet sahibini tapırdılar. Adamlar da bəzən 20-30 bilet alıb bəxtini sınayırdı. Yəni bəxtini qozda sına, sonra da stadionda.

Bunu indi də eləmək olar. Biletin qiymətini 1 manat artır və həmin 1 manatın da 80 faizini uduşa buraxırsan.

"Park Bulvar"da Hüseyn Həsənovun vermədiyi "İphone"nun başına min adam yığışıbsa, stadionda 3-4 "İphone"nun başına 10-15 min adam yığışar. Hələ getdikcə daha yüksək məbləğli hədiyyələr, hətta "Niva" da qoymaq olar. Və bütün avtoşlar yığışarlar o "Niva"nın başına. Azarkeşlərin çoxluğunu görən futbolçular da daha ürəkli oynayarlar. Yoxsa boş tribunaların qabağında nə qədər o tərəf-bu tərəfə qaçmaq olar?

Üzümü AFFA-ya tutmuram, AFFA-nın başı çox bərk qarışıqdı, üzümü PFL-in prezidenti Ramin Musayevə tuturam.

**Ramin müəllim, bu barədə fikirləşməyə dəyər. Bu futbolumuzun inkişafına da bir təkan olar. Özü də bilirəm ki, siz yaradıcı insansınız, bunu təşkil etməyə qabiliyyətiniz çatar.**

Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 20 (5957) 23 aprel 2022-ci il | Qiyməti 30 qəpik

## ŞİRƏ BİR SÖZ DEYƏNİN ANASINI...



**Paşinyan getdi Moskvaya, əlahəzrət Putinlə görüşdü. Düzdür, özünü dərsini bilməyən tələbə kimi aparsa da 30-a yaxın sənəd imzaladılar, bəyanatlar verdilər. Putin icazə verdi ki, qohum-əqrəbası ilə də görüşsün, getdi baş nazir Mişustinlə görüşdü və sair və ilaxır. Hələ getdi Nijni Novqorodda ona təcili yardım maşını da göstərdilər ki, özünü yaxşı aparmasan bu maşın həkimlərimizlə sənin qulluğundadı.**

Bir sözlə, Paşinyan dedi ki,Ukraynada möhkəm ol, qorxma, sənin arxandayam.

Yadıma Dənizkənarındakı bir dava düşdü. Cavanlarıydı, bir nəfəri çırpırdılar. O da çığırırdı:

- Məmməd, qoyma, məni öldürdülər.

Amma Məmməd ona kömək eləyəsi halda deyildi. Onu da dəli inək balasını çığnayan kimi çığnayırdılar, heç səsi çıxmırdı köməyə adam da çağırsın.

İndi Ermənistanın ordusu 44 günlük müharibədə darmadağın olub, silah-sursatının yarısını itirib, 5 minə yaxın da əsgər. Onda hal qalıb ki, Rusiyaya kömək eləsin?

Yeri gəlmişkən, yadıma köhnə bir anekdot da düşdü.

Meşədə aclıq olur. İclas keçirirlər ki, ən zəif heyvan hansıdısa başlayaq ondan yeməyə.

Bu vaxt dovşan qollarını çırmayıb atılır ortalığa və bağırır:

- Şirə bir söz deyənin anasını ağladaram...

# ŞUŞADA ZƏFƏR QURULTAYI



## Zelenski: "Zərərləri ödəmək üçün ayda 7 milyard dollar lazımdır"

**Dünya Bankı və Ukrayna hökuməti Ukraynaya dəstək məsələsini müzakirə etmək üçün bəzi ölkələrin təmsil olunduğu nazirlər səviyyəsində dəyirmi masa görüşü keçirib.**

Adalet.az xəbər verir ki, Ukrayna prezidenti Volodimir Zelenski videokonfrans vasitəsilə qatıldığı görüşdə Rusiyanın Ukraynaya hücumunun vurduğu ziyandan danışıb. O, Rusiyanın hücumu nəticəsində vurduğu iqtisadi itkiləri kompensasiya etmək üçün Ukraynanın ayda 7 milyard dollara ehtiyacı olduğunu bildirib. Ölkənin hər yerində məktəblər, universitetlər, xəstəxanalar, müəssisələrin və infrastrukturun məhv edildiyini bildirən Zelenski Rusiyanın Qara dəniz limanlarını blokadaya almasının Ukraynanın ixracına və dünyanın ərzaq təhlükəsizliyinə təsir etdiyini də qeyd edib. Zelenski bütün ölkələri Moskva ilə münasibətləri kəsməyə çağırıb. Dünya Bankının prezidenti David Malpass toplantıdakı çıxışında Rusiyanın hücumu nəticəsində Ukraynada binalara və infrastruktura dəyən fiziki ziyanın təxminən 60 milyard dollara çatdığını və müharibə davam etdikcə daha da artacağını vurğulayıb.

*Mehman CAVADOĞLU*

## RUSİYANIN QARABAĞ ƏNDİŞƏSİ

Bax: səh.4



*Vaqif Cəbrayılzadə*
*(Vaqif Bayatlı ODƏR)*

## ÇAT VERƏN DOSTLARA

**Evimizin divarındakı çatlar,**
**Çat verən dostları**
**Sıranıza düzə-düzə**
**Nə qədər günahları vardı**
**Bağışladım sizə!**

Aqil ABBAS
aqilabbas@rambler.ru



## ADAM BALASI KİMİ YAŞAYIRDINIZ DANA

*Vilayətiniz vardı, öz əliniz, öz başınız idi, gözünüz üstə də qaşınız var deyən yox idi. Nə istəyirdiniz onu da edirdiniz: yeyirdiniz də, dağıdırdınız da.*

*Başqa rayonlarda 2 min, 3 min, 10 min mənimsəməyə görə nə qədər vəzifəli adamlar tutulurdu. Amma sizlər onlardan da çox yeyirdiniz, mən hələ oxumamışam ki, Qarabağda bir erməni yeyinti üstündə tutulsun.*

*Öz dilinizdə məktəbiniz, institutunuz, qəzetiniz, radionuz... Bütün lövhələrinizdə ermənicə yazırdınız, amma çox maraqlıdır ki, bircə vilayət məhkəməsinin lövhəsi azərbaycanca yazılırdı: Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Məhkəməsi. Çünki tutulan vardısa da azərbaycanlı tutulurdu, yəni azərbaycanlıların işi ora çox düşürdü.*

Bax: səh.2

## BU KİNO Kİ VAR HAMISI GOP İMİŞ



**Sovetin və Rusiyanın müharibə haqqında çəkdiyi filmlərdə çox görmüşük: nemeslər əsir aldıqları rus zabitlərini, əsgərlərini, eləcə də partizanları eşşək sudan gəlincə döyürlər, ən ağır işgəncələr verirlər, axırda ya güllələyirlər, ya asırlar, amma bir kəlmə istədikləri sözü ala bilmirlər. Hətta bir generalı dondurmuşdular, yenə danışmamışdı. Adı yadımda çıxıb.**

Qısası, bütün işgəncələrə baxmayaraq, nə Vətəni, nə də heç kimi satmırdılar.

İndi televiziyada baxıram, rusların əsir götürdüyü ukraynalılar, eləcə də ukraynalıların əsir götürdüyü ruslar bülbül kimi ötürlər.

## HAMINI ASIB-KƏSMƏYİN, BİR GÜN GƏLƏR...



**Bakı Nəqliyyat Agentliyi haqqında adi bir tənqidi fikir "Qrad" raketləri ilə qarşılanırdı. Hətta deputatları da hədələyirdilər.**

Nooldu, rəis? Daha doğrusu, nooldu Vüsal Kərimli? Hamını asıb-kəsirdiniz, deyəsən növbə sizə də çatdı.

Görəsən, Bakı Nəqliyyat Agentliyindən Kürdəxanı təcridxanasına neçə kilometr olar?

## FRANSIZLAR BAJILARINA HÖRMƏT ELƏMİRLƏR



**Öz bajılarına hörmət eləmirlər, özləri bilər, bajıları bilər. Amma bajı dedikləri Ermənistana bu qədər sayğısızlıq onsuz da dəvələri ölmüş ermənilərə çox pis təsir edəcək.**

Nədir məsələ?

24 aprel ermənilərin uydurma genosid günüdür. Həmin gün ermənilər və onların qohum-əqrəbaları...

... hələ bir dəfə qohum-əqrəbaları olmayan, papağı yeməli kişi Əsgər Akayev da gəlib uydurma "genosid" abidəsinə əklil qoymuşdu. Sonra da qaçdı getdi Moskvaya, bilmirəm ölüb, yoxsa qalıb...

... dünyanın hər yerindən tökülüb gəlirlər İrəvana, ağlaşmanın biri bir qəpik.

İndi Fransada belə bir gündə prezident seçkilərinin 2-ci turu keçirilir. Yəni ermənilərin ağlaşma günü Fransa xalqı kef edəcək. Le Pen basıb gəlmişdi Xankəndinə ki guya erməniləri çox sevir. Amma uydurma genosid gününü filan yerinə almadı. Makron da onun kimi.

**İndi ermənilər də acıqla həmin gün seçkiyə getməyəcəklər, ikisinin də, xüsusilə də Le Pen arvadın mayası batacaq.**

İradə TUNCAY
iradetuncay@rambler.ru

## Yalan nazirliyi



**Bütün çətin dövrlərdə Oruellin "1984" romanı aktuallaşır. Çətin olmayan dövr yoxdu desək də, arada kəskinləşmə periodları da yaşanır əlbəttə. İkili standartlar, düşüncə polisi, dərd gətirən "Sevgi nazirliyi", alternativ fikirləri dağıdan, savaş körükləyən "Sülh nazirliyi", kütləni kütləşdirən robot yazarlar... Ən maraqlısı isə "Həqiqət nazirliyi"dir. Tanış gəlir bunlar - deyilmi?**

**Gözümüzü açmağa çalışır müəllif - totalitar rejimlərin necə funksiya göstərdiyini göstərməklə... həyəcanlandırır, narahat edir, həqiqəti göstərir və düşünməyə məcbur edir... Ədəbiyyat budur... Az qala yüz ildir yazılıb, amma eyni həqiqətləri çox ölkələrdə çox adamlar yaşayır...**

Bax: səh.3

## GÜNÜN LƏTİFƏSİ



Siyavuş Novruzov həkimə:

**- Dokdor, mən gecələr səhərə qədər yata bilmirəm, mənə bir çarə.**

Həkim:

**- Siz yatmağa başlayanda qədim üsullardan, məsələn qoyunları saymaq variantından istifadə edirsiniz?**

Siyavuş müəllim:

**- Hə doktor istifadə edirəm. Əvvəlcə qoyunları sayıram, sonra bazara çıxarıb onları satıram, sonra da səhərəcən yata bilmirəm, fikirləşirəm ki, görəsən ucuz samamışam.**

# İlham Əliyev: “Biz öz torpağımızdayıq və heç kim heç vaxt bizi tərpədə bilməz”



**”Şuşada keçirilən Qurultayın çox böyük tarixi mənası var. Bu gün Azərbaycan yeni dövrə qədəm qoyub. Biz otuz il işğal edilmiş ölkə kimi yaşamışıq. Bu, bizim üçün çox ağır idi - mənim üçün Prezident kimi, hər bir vətəndaş üçün, sizin üçün - xaricdə yaşayan azərbaycanlılar üçün”.**

Adalet.az xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının V Qurultayında çıxışı zamanı bildirib.

Ancaq bu gün vəziyyətin tam fərqli olduğunu vurğulayan dövlətimizin başçısı deyib: ”Bu gün alnımız açıqdır, bu gün üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq. Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq. Bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz”.

## “Bu, Ermənistan üçün bəlkə də son şansdır”

**”Hazırda Azərbaycan və Ermənistan xarici işlər nazirləri, nazirlikləri işçi qrupları formalaşdırır və hesab edirəm ki, yaxın gələcəkdə konkret danışıqlara başlamaq lazımdır və danışıqları çox uzatmaq lazım deyil”.**

Bu barədə Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının V Qurultayında çıxışı zamanı bildirib. Onun sözlərinə görə, məhz beş prinsip əsasında sülh müqaviləsi imzalanacaq: ”Ona görə müqavilənin mətni tezliklə hazırlana bilər, imzalana bilər və beləliklə, Ermənistanla Azərbaycan arasında əlaqələr, o cümlədən diplomatik əlaqələr yaradıla bilər. Bu təklifi irəli sürməklə bir daha biz xoş niyyətimizi göstəririk və yenə də deyirəm, uzaqgörənlik göstəririk. Ermənistanda hərdənbir baş qaldıran revanşist qüvvələr bilməlidirlər ki, bu, Ermənistan üçün yeganə çıxış yoludur və bəlkə də son şansdır. Əgər bundan imtina etsələr, onda biz də Ermənistanın ərazi bütövlüyünü tanımayacağıq, bunu rəsmən bəyan edəcəyik. İkinci Qarabağ müharibəsinin nəticələrini nəzərə alaraq Ermənistan tərəfi yaxşı başa düşməlidir ki, bu addım nəyə gətirib çıxaracaq”.

## Prezident: “Bizim başqalarının torpağında gözümüz yoxdur”

**”Biz cəmi 44 gün ərzində düşməni torpağımızdan qovduq. Ermənistan bizim qabağımızda diz çökdü, başını əydi, kapitulyasiya aktına imza atmağa məcbur oldu, imdad dilədi və bu gün də həmin vəziyyətdədir. Bu gün də yer qalmayıb ki, qapısını döyməsin ki, amandır Azərbaycan bizi hədələyir, Azərbaycan bizi burada boğmaq istəyir”.**

Adalet.az xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının V Qurultayında çıxışı zamanı bildirib.

Dövlətimizin başçısı deyib: ”Biz öz vəzifəmizi icra etmişik. Bizim başqa dövlətlərin torpağında gözümüz yoxdur, heç vaxt olmayıb. Ancaq biz öz torpağımızı heç kimə verəsi deyilik və İkinci Qarabağ müharibəsi bunu bir daha sübut etdi”.

Prezident vurğulayıb ki, münaqişəyə son qoyan qəhrəman Azərbaycan əsgəri oldu. ”Müharibənin son hadisələri məhz burada - Şuşada baş vermişdir. Sıldırım qayalara dırmaşaraq bizim qəhrəman əsgərlərimiz, zabitlərimiz demək olar ki, əlbəyaxa döyüşlərdə burada topla, tankla, artilleriya ilə silahlanmış Ermənistan ordusuna qalib gəldilər”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

## “Ermənistan ordusundan iki-üç dəfə az itki verməklə tarixi missiyamızı yerinə yetirdik”

**”Bizim 44 gün ərzində əldə etdiyimiz Qələbə bir çoxları üçün gözlənilməz idi. Hərbi ekspertlər, siyasətçilər, bu məsələ ilə məşğul olan müxtəlif təşkilatların nümayəndələri bizə həmişə deyirdilər ki, bu müharibəni Azərbaycan uda bilməz. Çünki Ermənistan bu 30 il ərzində işğal edilmiş torpaqlarda istehkamlar, müdafiə xətləri qurmuşdu. Eyni zamanda, Qarabağın təbii relyefi elədir ki, torpaqları azad etmək çətin olacaq, çoxlu itkilər olacaq”.**

Adalet.az xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının V Qurultayında çıxışı zamanı bildirib.

Bu fərziyyələrin nəticə etibarilə özünü doğrultmadığını qeyd edən dövlətimizin başçısı deyib: ”Onlar bir məsələni diqqətdən kənarda qoymuşdular, Azərbaycan xalqının əzmini, Azərbaycan əsgərinin gücünü, Vətən sevgisini. Bəli, bəzi yerlərdə beş, bəzi yerlərdə altı müdafiə xətti qurulmuşdu, istehkamlar qurulmuşdu. Bölgənin coğrafiyası bizim üçün çox əlverişsiz idi. Bütün bunlara baxmayaraq, az itki verməklə, Ermənistan ordusundan iki-üç dəfə az itki verməklə biz tarixi missiyamızı yerinə yetirdik və son nöqtəni burada - tarixi şəhərimizdə qoyduq”.

## “Bu gün Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər”

**”Biz faşizmi məhv etdik, Cənubi Qafqazı faşizmdən xilas etdik. Ancaq hələ də faşizmin təzahürləri baş qaldırır, hələ də Ermənistanda bəzi dairələr, xarici ölkələrdə yaşayan ermənilər bizi hədələməyə çalışırlar. Amma İkinci Qarabağ müharibəsinin tarixçəsi onların yadından çıxmamalıdır”.**

Adalet.az xəbər verir ki, bu fikirləri Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının V Qurultayında çıxışı zamanı söyləyib. ”Biz gücümüzü artırmışıq. İl yarım ərzində ordu quruculuğu sahəsində çox böyük işlər görüldü. İndi bu işlərin bir hissəsi ictimaiyyətə təqdim edildi, bir hissəsi, əlbəttə ki, təqdim edilə bilməz. Ancaq hər kəs bilməlidir, bu gün Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər. Həm döyüş qabiliyyəti, həm milli ruh, həm mənəvi ruh, silah-sursat, texnika, yeni döyüşkən hərbi birləşmələrin yaradılması - bütün bunları biz məhz ona görə edirik ki, erməni faşizminin hələ də təzahürləri var və əgər erməni faşizmi bir daha baş qaldırarsa, biz onu hər an əzməyə hazır olmalıyıq və hazırıq. Ermənistan bunu yaxşı bilir, yaxşı başa düşür və heç vaxt bunu unutmamalıdır”, - deyə dövlətimizin başçısı bildirib.

# *Heydər Əliyev:* "Dil hər bir millətin mənliyinin əsasıdır"

**70-ci illərin ortalarından başlayaraq SSRİ-ni təşkil edən respublikaların ictimai-siyasi həyatında dil məsələsi yenidən gündəmə gətirildi. SSRİ Konstitusiyasının qəbulundan sonra milli dillərin sıxışdırılması prosesi daha da gücləndirildi. Belə bir şəraitdə ana dili məsələsinin təbliği ilə məşğul olmaq cəsarət tələb edirdi. Hətta milli respublikaların rəhbərləri də ana dili məsələsini gündəmə gətirməkdə aciz idilər. Bütün bunlara baxmayaraq, o vaxt Azərbaycan Respublikasının rəhbəri olan Ulu Öndər Heydər Əliyev dil məsələsində öz mövqeyini çox cəsarətlə, qətiyyətlə bildirmişdir.**

1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Ulu Öndər Heydər Əliyevin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: ”Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir”. Heydər Əliyevin bu təşəbbüsü 1978-ci il 21 aprel tarixində qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında öz əksini tapmışdır.Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Ümummilli Lider Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biridir. Ulu Öndər bununla gələcək müstəqil dövlətçiliyin milli rəmzlərindən birini məharətlə qorumuşdur. Hər bir xalqın milli mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Dil hər bir xalqın varlığının ən əsas təminatçısıdır. Azərbaycan xalqının da ana dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Ana dili dövlət rəmzlərimiz olan bayraq, gerb, himnkimi müqəddəsdir. Ulu Öndər Heydər Əliyevin ana dilinin dövlət dili olması uğrundadönməz, ardıcıl mübarizə aparan Ümummilli Lider ziyalıları, xalqı ana dilinin dövlət dili kimi yaşamaq hüququ uğrunda mübarizəyə cəlb edərək bütün qüvvələri səfərbər etmişdir. Böyük tarixi şəxsiyyət SSRİ Konstitusiyası haqqında danışarkən öz



nitqində xüsusi olaraq vurğulamışdır ki, Konstitusiya vətəndaşlara təhsil hüququ vermişdir. Bu hüquq ana dilində oxumaq imkanı ilə təmin olunur. Bu, əslində ana dilinin dövlət dili statusunu qorumaq məqsədi güdürdü.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan dilinin inkişafı və zənginləşməsi istiqamətində müxtəlif vasitələrdən istifadə edirdi. Azərbaycanda dilçi alimlərə yüksək diqqət və qayğı göstərilməsi, milli dildə nəşr edilən kitabların tirajlarının artırılması və digər tədbirlər ana dilinin daha da inkişaf etdirilməsi məqsədi daşıyırdı.

Azərbaycan dilinin işlənməsi və inkişaf etdirilməsi məsələsinə xüsusi önəm yetirən Ümummilli Lider Azərbaycan dilinin adını özümüzə qaytarmışdır.1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən dövlət dilinin necə adlandırılması ilə bağlı müxtəlif təkliflər irəli sürülmüşdür. Bu təkliflərin çox böyük əksəriyyətində ana dilimizin Azərbaycan dili adlandırılması dəstəklənirdi. Geniş müzakirələrdən sonra 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapmışdır. Bundan sonra ana dilimizin inkişafı və qorunması işi daha da gücləndirilmişdir.

Ulu Öndər Heydər Əliyev ana dilimizin tarixi keçmişi ilə yanaşı, mövcud durumunu və problemlərini daim diqqət mərkəzində saxlayıb və bu yöndə bir sıra mühüm tədbirlərin həyata keçirilməsinə dair imza atıb.Ulu Öndər Heydər Əliyev dövlət dilinin yeni inkişaf dönəmində yaranmış vəziyyəti nəzərə alaraq 2001-ci il iyunun 18-də ”Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Fərman imzalamışdır. İlk növbədə müstəqil Azərbaycan dövlətinin dil siyasətinin müəyyənləşməsi, formalaşması və möhkəmləndirilməsi baxımından müstəsna əhəmiyyət daşıyan bu tarixi Fərman dövlət dili ilə bağlı hərtərəfli və geniş məlumatları özündə ehtiva edir.Sözügedən Fərmanla Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyası yaradılmışdır. Ulu Öndərin ”Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən hər il avqustun 1-i ölkəmizdə Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilir.

”Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan RespublikasınınQanunu2002-ci il 30 sentyabr tarixində qəbul edilmişdir.Qanuna əsasən Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır. Həmin Qanun Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır.

Ulu Öndər Heydər Əliyev Azərbaycan dili haqqında:

”Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm”.

”Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Bizim ən böyük sərvətimiz ondan ibarətdir ki, dilimiz yaşayıb və zənginləşibdir. Azərbaycan ədəbi dilinin saflığına daim qayğı göstərilməlidir. Çünki dil xalqın sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir”.

**”Dil hər bir millətin mənliyinin əsasıdır. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir”.**

**Hazırladı:**
**Mehriban Cəfərova**

# *NATO - Rusiya müharibəsi başlaya bilərmi?*

**Adalet.az NATO-Rusiya arasında baş tuta biləcək müharibə ilə bağlı STM-in mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəylinin fikirlərini öyrənib.**



”Rusiya ilə NATO arasında müharibə ilə bağlı kifayət qədər proqnozlar verilməkdədir və bu proqnozlar əslində Rusiya-Ukrayna müharibəsinin başlamasına söykənir. Bilirsiniz, burada önəmli məsələ bundan ibarətdir ki, müharibə başladıqdan sonra və nəhayət dünən Rusiya müharibənin ikinci, yəni həlledici fazasının başladığını elan etməsindən iki gün əvvəl ABŞ-dan konkret olaraq tələb etdi ki, Ukraynanın hərbi sursatlarla təminatını dayandırsın, əks halda daha sərt tədbirlər görəcəyinin də mesajını verdi.

Burada nüvə silahından danışırlar. Düşünürəm ki, Rusiyanın hal-hazırda istifadə etdiyi silahlar nüvə silahından da ağır və dəhşətli silahlardır. Çünki hipersonik silahlar özü nüvə silahları ilə müqayisədə daha dağıdıcı silahlardır. Bu baxımdan müharibənin miqyası, daha ölümcül səviyyədə olması ortaya çıxır. Görünən odur ki, indiki məqamda növbəti mərhələyə daha rahat və sürətli keçid etmək üçün Rusiya ABŞ qarşısında məhz bu məsələni qaldırdı.

O qeyd edib ki, əslində NATO-Rusiya müharibəsi qeyri-rəsmi formada Ukrayna ilə müharibə başlandığı gündən davam edir.

”Rusiya-Ukrayna müharibəsinin qeyri-rəsmi adı NATO-Rusiya müharibəsidir. Buna ”proxy” müharibə deyirlər, yəni ”ikinci əl müharibə”. Bütün sursatlar və hərbi yardımlar NATO vasitəsilə göndərilir. Bu müharibənin rəsmi formaya keçməsi üçün Rusiya NATO-nun bazalarını vurması lazımdır və Rusiya belə bir ehtimalın olduğunu vurğulayır. Amma bunu Rusiyanın adına yayan tərəf Britaniya və ABŞ kəşfiyyatıdır. Məsələn, Britaniya hökümətinin təhlükəsizlik eksperti Piter Riket açıqlamada qeyd edir ki, Putin NATO-nun bazalarını bombalaya bilər.

Yəni Qərbdən daşınan silah yükləri, yük təyyarələri vurulacaq və Rusiya bunu planlaşdırır. Nəticədə ”NATO ilə müharibə başlayacaqmı?” sualı ortaya çıxır. ABŞ limitləri nə qədər zorlaya bilər? Belə hesab edək ki, Bayden bütövlükdə Rusiyanın hərbi qüdrətinin məhv edilməsində maraqlıdır. Əgər həqiqətən də Rusiya ilk addım atan tərəf olarsa, bu, Baydenin həmin ümidlərinin reallaşması ola bilər və dünya nüvə müharibəsinə doğru gedə bilər. Amma biz nüvə başlıqlarını 10 min civarında hesab etsək, Rusiyanın 4-6 min üstün olduğunu nəzərə alsaq, bu mənada nüvə müharibəsi başlaya bilər və qalib gələn tərəf olmasa da, üstünlük Rusiyada ola bilər. Bununla yanaşı, beynəlxalq səviyyədə nüvə silahlarından istifadə qaydaları da var. Bu müharibədə Çin harada mövqe tutacaq? Həlledici məqam bundan ibarətdir. Ona görə də NATO-Rusiya müharibəsində Çinin mövqeyini bilmək lazımdır. ABŞ isə Çinə bu günlərdə xəbərdarlıq etdi ki, silah satışını dayandırmasa müharibədən sonra Çinlə bağlı ciddi addımlar atılacaq. Yəni NATO-Rusiya müharibəsinin rəsmi surətdə başlamasını indiki tarixə görə istisna etmək mümkündür. Çünki hal-hazırda qeyri-rəsmi şəkildə bu savaş davam edir.

Əgər Rusiya NATO-nun üzvü olan hansısa ölkəyə təhlükəsizliyini qorumaq məqsədilə əməliyyat keçirsə, NATO-nun hansısa bazasını vursa, bu müharibə artıq rəsmi şəkildə başlamış sayılacaq. Hələ ki verilən mesajlar, açıqlamalar sırf olaraq diplomatik mesajlardır, bir növ də hərbəzorbadır”.

**Eminquey**

## *"Tərtər işi" ilə bağlı ümumilikdə 397 zərərçəkmiş şəxs müəyyən edilib*



***"Tərtər işi" ilə bağlı ümumilikdə 397 zərərçəkmiş şəxs müəyyən edilib. Bu barədə Adalet.az-a Baş prokurorluğunn mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, ötən müddət ərzində işgəncəyə və digər qanunsuz əməllərə məruz qalmış 280 yeni şəxs müəyyən edilərək zərərçəkmiş şəxs qismində tanınmaqla işin halları üzrə tam, hərtərəfli dindirilmiş, onların məhkəmə-tibbi ekspertizadan keçirilmələri təmin edilmişdir. Beləliklə, işgəncə faktları üzrə əvvəlki istintaq zamanı zərərçəkmiş kimi tanınmış şəxslərlə birlikdə cinayət işləri üzrə hal-hazıradək ümumilikdə 397 zərərçəkmiş şəxs müəyyən edilib.***

***İş üzrə zərərçəkmiş şəxslərin, habelə qanunsuz əməllərə yol vermiş hərbi qulluqçuların müəyyən edilərək dindirilməsi istiqamətində tədbirlər davam etdirilir.***

# İran və Çin Rusiya ilə strateji əməkdaşlığı gücləndirəcəklərini açıqladı: 10 milyard dollar...?

**Xəbər verdiyimiz kimi Rusiyaya qarşı tətbiq edilən və hər gün artan sanksiyalar maliyyə, enerji, nəqliyyat, media, texnologiya, avtomobil, idman və ticarət sahələrini əhatə edir.**

Rusiya əvvəllər sanksiya tətbiq edilən ölkələr içərisində qısa müddətdə İran, Suriya və Şimali Koreyanı ciddi fərqlə qabaqlayaraq, "lider" olub.

Adalet.az xəbər verir ki, hazırki durumda Rusiyaya dəstək olan ölkələr də var ki, onlar beynəlxalq təşkilatların təzyiq və təsirini nəzərə almır.

Beləki, Çin xarici işlər nazirinin müavini Li Yuçenq nə olur-olsun Rusiya ilə strateji əməkdaşlığı gücləndirəcəklərini açıqlayıb.

AB-nin baş diplomatı Jozep Borrell nə qədər güvənlə desədə ki, Çin AB-yə Rusiyaya hərbi dəstək verməyəcəyini və sanksiyalardan yayınmağa kömək etməyəcəyini vəd edib. Amma Yuçenqin açıqlaması bu güvəni yaraladığı düşünülür. Çinli diplomat Rusiyanın Pekindəki səfiri Andrey Denisovla iki ölkə arasındakı əlaqələr, regional və qlobal hadisələrlə bağlı görüş keçirib:"Beynəlxalq siyasətin istiqamətinin necə dəyişəcəyindən asılı olmayaraq, Çin qarşılıqlı maraqlar əsasında və insanların gələcəyi üçünRusiya ilə strateji koordinyasiyanı gücləndirməyə, iki ölkənin birgə maraqlarını birgə qorumağa davam edəcək"- deyə Li Yuçenq bildirib.

Maraqlıdır ki, İran da Rusiyanın



yanında olmağı seçib. Yeri gəlmişkən, Britaniyanın "Qardian" qəzeti öz mənbələrinə istinadən Rusiyanın müharibə üçün İrandan gələn qaçaqmalçıların köməyilə İraqdan silah-sursat aldığını, həmçinin öz HHM sistemini bağışladığını yazmışdı. İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian ölkəsinin şirkətlər vasitəsilə Rusiyaya silah tədarükü barədə məlumatı təkzib etdi.

Məlumat üçün bildirək ki, İrana kənd təsərrüfatı xammalı (taxıl, neft), avadanlıq və metal konstruksiyalar verən Rusiya İrandan tikinti materialları (sement və keramik plitələr), dəri məmulatları və təbii ki, ərzaq məhsulları da alır.

Hüseyn Əmir Abdullahian təkzibindən bir həftə sonra isə məlum oldu ki, Rusiyaya İran məhsulları 10 dəfə çox idxal ediləcək.

İranın Rusiyadakı keçmiş səfiri Mehdi Sanai Moskvada fəaliyyət göstərən İran-Avrasiya Araşdırmaları İnstitutunun rəhbəridir və onun başçılığı ilə "yol xəritəsi"ni fars işgüzar və siyasi dairələri hazırlayır. Məlumata görə, keçmiş səfirin dövründə Rusiya sanksiyaya məruz qalan İranın ən böyük ticarət tərəfdaşı olub. Ötən il İranın Rusiyaya ixracı 1 milyard dollara yaxınlaşıb. İndi vəzifə bu rəqəmi 10 milyard dollara çatdırmaqdır.

**Qeyd edək ki, İranın beynəlxalq aləmin əksinə getməsi səbəbsiz deyil. Aprelin 15-də ABŞ İranın xaricdəki dondurulmuş aktivlərindən 7 milyard dolların azad edilməsinə dair iddia edilən razılaşma ilə bağlı məlumatları təkzib etmişdi.**

**Əntiqə Rəşid**

Aqil ABBAS

# ADAM BALASI KİMİ YAŞAYIRDINIZ DANA

*Vilayətiniz vardı, öz əliniz, öz başınız idi, gözünüz üstə də qaşınız var deyən yox idi. Nə istəyirdiniz onu da edirdiniz: yeyirdiniz də, dağıdırdınız da.*

*Başqa rayonlarda 2 min, 3 min, 10 min mənimsəməyə görə nə qədər vəzifəli adamlar tutulurdu. Amma sizlər onlardan da çox yeyirdiniz, mən hələ oxumamışam ki, Qarabağda bir erməni yeyinti üstündə tutulsun.*

*Öz dilinizdə məktəbiniz, institutunuz, qəzetiniz, radionuz... Bütün lövhələrinizdə ermənicə yazırdınız, amma çox maraqlıdır ki, bircə vilayət məhkəməsinin lövhəsi azərbaycanca yazılırdı: Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Məhkəməsi. Çünki tutulan vardısa da azərbaycanlı tutulurdu, yəni azərbaycanlıların işi ora çox düşürdü.*

*Arayırdınız-axtarırdınız harda bir saytal oğlan vardısa onu şərləyib tuturduz.*

*Bizim böyük qəsəbələrə avtobus marşrutları yoxuydu. Məsələn, Hindarxda 10 mindən çox adam yaşayırdı, ora avtobus işləmirdi. Gərək ya Ağdama gedib ordan gedəydin, ya da Ağcabədiyə. Amma sizin kəndlərə də avtobus marşrutları açmışdılar: Bakı-Çartaz, Bakı-Qırmızıbazar, Bakı-Tuğ. Əsgəran bir küçədən ibarət idi, əhalisi də Ağdamın adi bir kəndi qədəriydi, təxminən 3 min əhalisi vardı, rayon eləmişdiniz ki, Qarabağdakı erməni rayonlarının sayı artsın.Əsgərandan böyük olan Xocalını da vermişdiniz onun tabeliyinə, üstündə də Şuşanın kəndlərini.*

*Büdcədən Şuşaya və Azərbaycan kəndlərinə ayrılan pulları da Xankəndinə, Əsgərana, Martuniyə, Hadruta xərcləyirdiniz. Ali məktəbi bitirən, təyinatnı öz şəhərlərinə, kəndlərinə alan və ya əsgərlikdən qayıdıb gələn azərbaycanlıları qeydiyyata götürmürdünüz ki, azərbaycanlıların sayı statistikada az göstərilsin. Dostum və sinif yoldaşım Rauf Kazımov həkim kimi təyinatını Şuşaya almışdı. 15 ildən çox Şuşada çalışsa da və hətta sanatoriyanın baş həkimi olsa da Şuşa qeydiyyatına düşə bilmirdi. Müharibədə də şəhid oldu, Allah rəhmət eləsin.*

*Amma Bakıda, Gəncədə və İrəvanda qeydiyyatda olan erməniləri eyni zamanda Xankəndinə, Əsgərana, Ağdərəyə qeydiyyata salırdınız ki, sayınız çox olsun.*

*Biz pambıq, üzüm perepiska edirdik, siz üzüm də perepiska edirdiniz, erməni də.*

*Qısası, siz Azərbaycanın başqa rayonlarında yaşayanlardan yaxşı yaşayırdınız. Misallar çox çəkə bilərəm, amma oxucunu yormaq istəmirəm.*

*Adam balası kimi yaşayırdınız, amma adam balası olmadığınızdan adam balası kimi yaşamaq istəmədiniz. Evlərimizin əziz qonağıydınız. Toylarımızda başda otururdunuz. Amma sonra əziz qonağı olduğunuz evləri, yediyiniz duz-çörəyi tapdayıb viran qoydunuz. Toyunda sağlıq dediyiniz balalarımızı quyulara doldurdunuz. Xocalı boyda bir şəhəri əhalisi ilə bərabər yer üzündən sildiniz. Taxıl zəmisinə hücum edən sərçələr kimi şəhər və kəndlərimizə hücum edib darmadağın etdiniz.*

*Nə qazandınız ey?! Nə özünüz yaşadınız, nə də bizi yaşamağa qoydunuz. İçinizdəki kin-küdurət sizi adam balası kimi yaşamağa qoymadı.*

*Heç nə qazana bilmədiniz, əksinə, itirdiniz. Övladlarınızı, ərlərinizi, atalarınızı itirdiniz, təsərrüfatlarınız dağıldı.*

*Bu günlərdə Şuşaya gedərkən sizin yaşadığınız kəndlərdən keçdim. 30 ildə bircə dənə də olsun bir yeni tikili tikməmisiniz. Hətta aynabəndinizin rəngi otuz ildi olduğu kimi qalıb, rəngləməmisinz də. Beş-on milyonçu ermənin Şuşada, Naxçıvanik kəndində tikdirdiyi villalardan başqa hamınız it günündə yaşamısınız. Bizim kəndlərimizdəki yaraşıqlı evləri dağıdıb özünüz üçün it damı tikmisiniz. İndi sülhməramlılar sizə yeni evlər tikir, qəsəbə salır. Əgər müharibə salmasaydınız indi necə ki öz rayonlarımız, kəndlərimiz abaddı, Bakı dünyanın ən gözəl şəhəridi, indi Əsgəran da, Xankəndi də, Hadrut da, Ağdərə də beləcə inkişaf eləmişdi.*

*Nə qazandınız ey, Alıbəyinkini? Tez-tez Qarabağda yaşayan ermənilərin təhlükəsizliyini ön plana çıxarırlar. Doğrudanmı sizi təhlükə gözləyir? Hansı təhlükə, kim tərəfindən? Sizi bircə təhlükə gözləyir, o da Ermənistan tərəfindən. İçinizdəki yalançı millətçilər tərəfindən.*

*Biz intiqam hissi ilə yaşayan xalq deyilik. Bəlkə də bu bizim bədbəxtçiliyimizdir, amma həm də böyüklüyümüzdür. Bizdə deyirlər, Allah bağışlayanları sevir. Biz Allahın sevgisini itirmək istəmirik.*

*Əgər indi intiqam hissi ilə yaşasaydıq siz Ağdamın, Füzulinin, Tərtərin şəhər və kəndlərini, cəbhə xəttindən 50-100 kilometr uzaqlıqda yerləşən Gəncəni, Bərdəni raket atəşinə tutanda biz də Xankəndini, Ağdərəni, Əsgəranı darmadağın edərdik. Amma biz kişi kimi müharibə aparırdıq, dinc əhaliyə toxunmurduq.*

*Heç vaxt yadımdan çıxmaz. Bir dəfə Əsgərana hücum vaxtı Ağdam uşaqları bir ermənini əsir götürmüşdülər, mənə dedilər:*

*- Məllim, avtomatla onu ortadan iki yerə böl, əsəbin soyusun.*

*Nə qədər elədilər atmadım, ata bilmədim. "Nəsimi" filmində deyir ey,onun üzündə insan əzabının bütün cizgilərini gördüm. Mən də erməninin üzündəki bütün ağrı-acını gördüm. Əlim qalxmadı. Dedim ki, dəyməyin, bir adamla dəyişərik. Və mən bunu deyəndə erməni dizi üstə düşüb hönkür-hönkür ağladı.*

*Siz bizdən qorxmayın, öz ermənimizdən qorxun. Onların əlindəki silah bir gün özünüzə atılacaq. Necə ki bu günlərdə Xankəndində bir polis işçisini vurub öldürdülər.*

*Azərbaycan Prezidenti dəfələrlə sizin təhlükəsizliyinizə zəmanət verib. Buyurun, vətəndaşlığımızı qəbul edin, yenə əvvəllər olduğu kimi, Azərbaycanda yaşayan başqa xalqlar kimi xoşbəxt yaşayın, dövlət qurumlarında və eləcə də Milli Məclisdə təmsil olunun.*

*Və əks halda, sirkə nə qədər tünd olsa öz qabını partladar. Faşizm ideyasından əl çəkin.*

*Bir faktı da deyim, qurtarım. Əgər müharibə salmasaydınız Bakı-Ceyhan neft kəməri də, qaz kəmərləri də sizin və Ermənistanın ərazisindən keçəcəkdi, ordan gələn gəlir Ermənistanın büdcəsindən çox olacaqdı.*

*Mirzə Cəlil deyir ki, sözünü o kəslərə de ki, onlar səni eşitmirlər. Biz sözümüzü deyirik,eşidərlər, yenidən adam balası kimi yaşayarlar. Eşitməzlər...*

Kubra Məhərrəmova

# Belə də maaş olar?



*Vallah, bizim yaşayışımız yaşayış deyil.*

*Doğulan gündən lağlağı içində sürünən millətik.*

*Qız doğulur, qayınana lağ edir ki, oğlan doğulmalıydı.*

*Baxçaya gedir, qonşu lağ edir ki, bu yaşdan mən uşağımı baxçaya verməzdim.*

*Məktəbə gedir, məktəb lağ edir ki, saçının bantı əyri vurulub.*

*Ali məktəbə daxil olur, qohum-qonşu lağ edir ki, oxuyub nə olacaq?*

*İşə düzəlir, lağ edirlər ki, belə də maaş olar?*

*Toy edir, lağ edirlər ki, stolun üstü boş idi və s.*

*Ən sonda da adam ölür, yenə lağ edirlər ki, plovun yağı az idi. Plovun qarası da qoyun ətindən deyildi, halva da yağını qusmamışdı.*

*Əgər qismət olsa, ölümü yerdən götürən olsa, vəsiyyət edəcəyəm mənim üçün ehsan-filan verilməsin. Ağı deyən mollabacının böyründə oturub pendir-lavaşı gözünə tıxanlar olmasın. Adamın ölüsünə belə əziyyət verməkdir bu.*

İradə TUNCAY

# Yalan nazirliyi

**Bütün çətin dövrlərdə Oruellin "1984" romanı aktuallaşır. Çətin olmayan dövr yoxdu desək də, arada kəskinləşmə periodları da yaşanır əlbəttə. İkili standartlar, düşüncə polisi, dərd gətirən "Sevgi nazirliyi", alternativ fikirləri dağıdan, savaş körükləyən "Sülh nazirliyi", kütləni kütləşdirən robot yazarlar... Ən maraqlısı isə "Həqiqət nazirliyi"dir. Tanış gəlir bunlar - deyilmi?**

Gözümüzü açmağa çalışır müəllif - totalitar rejimlərin necə funksiya göstərdiyini göstərməklə... həyəcanlandırır, narahat edir, həqiqəti göstərir və düşünməyə məcbur edir... Ədəbiyyat budur... Az qala yüz ildir yazılıb, amma eyni həqiqətləri çox ölkələrdə çox adamlar yaşayır...

Xaraba qalmış evlərində, yorğun, əzabkeş və ac insanların təsviri hər yerdə eynidir - soyuq aprel sabahı... Hər yerdə eyni açılır... Tiraniya da eynidir, dramatizm də eynidir... Və biz də təhrif etdiyimiz həqiqətləri günümüzə uyğunlaşdıran "Həqiqət nazirliyi"ndə çalışırıq... Və "böyük qardaş" da nəzarət edir...

Dövlətin qüdrəti sarayda yaşayanların, ya da saraya yaxınların geyim-kecimi, yemək-içməyi ilə ölçülmür. Vətəndaşının necə yaşamağı, ona aid nə qədər dünya şirkətlərinin olması ilə hesablanır. Yəni qayda budur. Mən iqtisadi terminləri işlətmək istəmirəm. Siz də oradan oxuduqlarınızdan yola çıxaraq "biz və onlar" söhbəti aparmayın. Onlar var...

Tarix oxumağı sevməyib də, ədəbiyyatın içində tarixi hadisələri mütləq oxuyanlar çoxdu. Yüz faiz bilirəm ki, Moris Dryuonun "Proklətıe koroli" əsərini də çoxunuz oxumusuz. Hadisələr yadınızdadısa Fransa kralı Filippin Roma Papasıyla münaqişəsi və bundan doğan nəticələri də xatırlayırsız. Roma Papaları və Vatikan hər zaman fitnə yuvası olub. Yarandığı gündən... Evlənmək, boşanmaq istəyən, müharibəyə başlamaq istəyən, sülh bağlamaq istəyən (və sairə) bütün Avropa hakimləri hər zaman Vatikandan xeyir-dua almalıydı. Müstəqil siyasət yürütmək istəyən kralları kilsə lənətləyirdi. Məhz bu səbəblərdən tarixdə dünyəvi hakimlərlə Vatikan arasında münaqişələrin sayı çoxdu. Məhz bu səbəblərdən İngiltərə kraliçası Vatikandan ayrı Anqlikan kilsəsi də yaratdı... Amma daha əvvəlki tarixi xatırladım. Fransa kralı Gözəl Filipp (tarixdə bu adla qalıb ) ona mane olan Papa Klimenti Avinyona dəvət edir və söz verir ki, bundan sonra hər şeydə ona tabe olacaq. Papa Avinyona gələndə onu əsir alır və bəyan edir ki, indi dini hakimiyyət fransız krallarının hakimiyyətinə tabe olacaq... Bu hadisə tarixə Avinyon əsarəti kimi düşüb və 1309-cu ildən 1378-ci ilə qədər davam edib. Həmin müddət ərzində hər halda fransız kralları bu siyasi durumdan istifadə edə biliblər İndi Romadakı dədə nə deyir, bəs? Fətvanı o verib axı... Baş verənləri bilirik

Özləri nə deyir, bəs? Deyir, noolsun hər yerdə ola bilər?

Miladdan öncə bir diktator olub. Niyə diktator deyirəm - yəni qədim Roma demokratiyasında hakimiyyəti zorla ələ keçirib də... Sulla... Kimsə oxuyub bəlkə haqqında. Spartak dövrü...

Bu Sulla ömrünün sonlarında ağır xəstəliyə düçar olur və hakimiyyəti də qismən atır üstündən. Günlərin bir günü xəbər gətirirlər ki, filan əyan dövlətə olan borclarını ödəmək istəmir. Deyir ki, Sulla ağır xəstədi, öləcək bu gün-sabah... Vermirəm!!!

Əmr edir, sürüyüb gətirirlər Sullanın hüzuruna həmin əyanı.

Deyir:

- Mən kiməm?!

Əyan da qorxudan dili dolaşa-dolaşa:

- Ölməz konsul! - deyir.

Sulla bağırır ki, boğun bunu... Əyandan sonra ölür özü...

İndi baxıram ki, Vəfa Quluzadənin yetirmələri yaman çoxalıb... Çatdı nə deyirəm? Tələsməyin...

Məncə, şüurlu şəkildə olundu. Əvvəl Adolf deyirdi ki, Avropa almanlara məxsusdu. İndi isə slavyanlaşacaq. Yazdıqların oxuyuram... Müsəlman ölkələrindən gələnləri adam yerinə qoymurdular... İndi isə sarısaçlı, mavigözlü qaçqınları var... Kim istəyər yük düşsün üstünə? Yaşayarıq, görərik...

Tarix-Naziri (Nadir də ola bilər) oxumuş biri kimi deyim ki, dağılmış imperiyalarda (qonşularımız) 1917-18- ci illərdən bu tərəfə eksperiment aparılır. Müxtəlif rejimləri sınaqdan keçirirlər... Harda nə uyğunlaşacaqsa...

Bayaq qucaq-qucağa dayanan millətə baxıb "maşallah" dedim, Allah bu mehribanlığı əlimizdən almasın

Güclü olmaq istəyirsənsə ağıllı olmaq zorundasan...

Deyə bilərsiz ki, bəs gözümüzün qabağında nə qədər kütbeyinlər güc yiyəsi olublar...

İzah edim - bizimlə müqayisə etməyək heç nəyi... Özünüz bilirsiz niyə. Miqyas başqadı.

....Avropada çox olmuşam. Orda görmək istədiyim abidələrdi, heykəllərdi, rəsmlərdi. Bugünki Avropanın təməlidi o abidələr. Yəni mühəndis dühası, heykəltəraş əli, rəssam təfəkkürü. Bu inkişafa təkan verib. Və beyin irəli gedib. Eramızdan əvvəl başlanıb və bu gün həmin adamlar dünyanı idarə edir...

Ağıllıdılar və güclüdülər...

Zəifliyimizə görə nifrət püskürürük. Notr-Dam tikiləndə İslam da təşəkkül tapmışdı. Və yayılmışdı dünyaya. Qadağan elədi düşünməyi. Rəsm çəkməyi qadağan elədi... Miniatür çəkiləndə ona kütləvi baxmaq olmur. Ancaq sarayda padşah baxır...

Güclü olmaq üçün ağıllı olmaq zorundasan. Hiyləgər yox təkcə, həm də ağıllı...

Bizdə demirəm haa... Bizdə məlumdu...

Biz də günəmuzd yaşayırıq... Hətta saat hesabı

Kütlənin qaragüruha çevrilməsində bekarçılığın rolu...

Bayaq bir epizoda baxdım tik-tokda. Serialdan idi... Deyir adamın bürcü ilə həyatının necə olacağı bəlli olmaz, harda doğulduğu müəyyən edir taleyin... Məsələn, Osloda, Torontoda doğulan insanla Anqolada doğulan insanın həyatı zatən məlum...

Fikirləşdim... Dağda doğulan biri Moskvada oxuya bilirdi və həyatı da fərqli olurdu... Və bunun qarşısını okeanın o tərəfindəki ölkə aldı...

Günlərin bir günü Çexov yeni kitabını göndərir çar Nikolaya... Və yenə günlərin bir günü ona çarın göndərdiyi məktubu, bir də bir kitab gətirirlər. Çar məktubunda yazır ki, kitabınızı oxudum, çox xoşuma gəldi, mən də sizə öz kitabımı göndərirəm... Çexov baxır ki, kitabın bütün səhifələri çar Nikolay yüzlükləridi... Cavab yazır: "Mən də sizin kitabı oxudum. Səbirsizliklə ikinci cildi gözləyirəm"...

***P.S.* Ehhh... Nə kitab var (əslində varee), nə də oxuyan...**

Ümidsiz, naxoş bir durum var hər yerdə... Düzəldə bilmirik... Əksinə, hər yerdə qədimdən qalma qəbirləri araşdırıb tapırıq...Ta keçib 300 il əvvəlki, ta Türkmənçaydan qalma məzarları da axtaraq...

Neçə əsrdi insanlar köç edir. Yəni mühacirət deyək. Azdan-çoxdan tarixə baş vura bilsək, bu köçün bəşəriyyətin inkişafında böyük rolu olub. Qədim yunan koloniyalarının qurulmasından tutmuş, ta ki dağlarda məskunlaşmağa qədər... Bütöv bir qitələrin insanla dolub dövlət qurmağına qədər... Altaylardan köç edib imperiya qurmağına qədər... Harda insan yaşayırsa orda həyat mövcuddu... Həyat olanda da əksi var. Yəni dağıntı var, xarabalıq var...

Yəni belə olub daim...

Xarabalıq isə yalnız od-alovla olmur ki... Söz yarası da var və daha böyük dağıntı yaradır...

İndi müasir dövrümüz də köç tarixi yaşadır bizə. Tam bilmirik kim, hardan gəlib. Amma gəlib də. Və gəlməyimiz , getməyimiz niyə eyib sayılsın ki? Daim olubsa... Və bir-birimizə tənə edərək də yara üstünə niyə yara vururuq ki... Bir kəsim adam köç yaşananda gedib hörmətli yerlərdə yer tuta bilib. (Yəni özlərinə elə gəlir) Bir kəsimin bacarığı olmayıbsa onları incitmək lazımdı evlərindən kənarda yaşaya bilmirlərsə? Yaşayanlar doğru-düzgün yaşayır? Niyə bu qədər aqressivdilər o zaman? Rahat yaşayırsınızsa niyə belə qəzəblisiz? Yaşayın da... Niyə daim hücum əhvalındasız?

Mən həmişə xaricdə yer tutub, özünə hardasa yüksək mövqe qazananlara hörmət etmişəm. Gör nə bacarıqlı adamlardı ki, oralarda yüksələ biliblər.

Amma o tərəflərdən bizə niyəsə tikanlı sözlərlə, əsəbi münasibətlə yanaşırlar... Sakit olun, ay insanlar. Hamınız getməyibsiniz, burda qalıb böyük hissəniz. Zəhər tökməyin. Burda qalanlarınıza da sirayət edəcək... Və biz nə tarixin gərdişini, nə geosiyasi situasiyanı dəyişmək qüdrətində deyilik...

Dekabristlər üsyanını bilirsiz də... Bilirsiz... Bax, o üsyan rəngli inqilabın başlanğıcı idi... Getmişdilər Parisə, qayıdanda obrozovonski olmaq istəmişdilər... Aqibətin də bilirsiz...

**Sonra yenə 1905-ci il hadisələri başladı, Qapon-filan 1917-ci il, daxili savaş. Qərb həm Leninə pul vermişdi, həm əksinə olanlara... Aqibətin bilirsiz...**

**Sonra İkinci Dünya savaşı... Aqibətin bilirsiz... Atom bombası ilə çıxdılar... Yenə sakitləşmirlər... Aqibət eyni olacaq...**

**Hərdən tarix oxumaq lazımdı Yalan nazirliyi öz işindədir...**

Aqil ABBAS

# BUNUN BİR ADI VAR: TƏXRİBAT

***"Park Bulvar"da baş verən rəzalətdən çox yazırlar. Demək olar ki, hadisəni hamı qınayır. Mən "Tarixi-Nadir"i də, Yunus Oğuzun "Nadir şah" romanını da axıradək oxumuşam, Hüseyn Həsənov adında bloqqer tanımıram. Ata Abdullayevi tanıyıram, Mehmanı tanıyıram, amma Hüseyn Həsənovu tanımıram.***

***Arif Babayev bir toydaymış. Bir nəfər yaxınlaşır ki, Arif müəllim, məni tanımadın? Deyir, yox.***

***- Ola bilməz.***

***- Vallah, tanıya bilmədim.***

***- Neujeli tanımadın? Yetmiş beşinci ildə Salyanda Məmmədin toyunda sağdışıydım da.***

***Üstündən 40 il keçib, Arif Babayev başını bulayıb deyir:***

***- Bağışla, qardaş, o da mənim qanmazlığım ki səni tanımadım.***

***İndi Hüseyn Həsənov da məni bağışlasın, qanmazlığımdı ki onu tanımıram.***

***Nə isə. "Park Bulvar"a bu bloqqerin şüvəninə yığılmış mindən çox adam da elə mənim kimi "qanmazlardı", yəni heç onu tanımırlar. "İphone" sözünü eşidib "İphone"nun başına yığışıblar. Çığıran kimi, bağıran kim, bayılan kim, ayaq altında qalan kim, döyülən kim, söyülən kim... təki "İphone" olsun. O da yığışanlara şeyinin, daha dəqiq desək, "İphone"un ucunu göstərdi, heç Allahın "Nokia"sını da vermədi.***

***Əslində bu Rusiyanın Azərbaycanda aranı qarışdırmaq üçün nəbzimizi yoxlamasıdı. Təxribatdı. Bir "İphone"nun başına bir belə adam yığışırsa, görün bir "Niva"nın başına nə qədər adam yığışar və nə davalar düşər?***

***Təbii ki, bunun təxribat olduğunu sübut etmək çox çətindir, amma araşdırılmalıdır. "Park Bulvar"ın rəhbərliyi bu rəzalətə görə yüksək rəqəmlə cərimələnməlidir.***

***Hərdən "Park Bulvar"da kitab təqdimatları olur, mən də gedirəm - 100-200 nəfər ola-olmaya.***

***Görən bu bloqqer bu gün harda "İphone" paylayacaq? Mejduproçim, mənim "İphone"um yoxdur.***

Nicat Novruzoğlu

# 211



**Bu gün nömrələrdən yazmaq istəyirəm sizə. Əslində bu nömrələrin kateqoriyaları barədə əksəriyyətinizin məlumatı var. Amma mən düşünüb qərar verdim ki, qoy bu nömrə haqq-hesabı qəzet səhifələri vasitəsilə tarixə düşsün. Və gələcək nəsillər nə vaxtsa qəzet səhifələrini vərəqləyərkən görsün ki, bir zamanlar insanlar nəyə dəyər verirmiş.**

**Qara bazarı çək-çevir edəndə görürsən ki, ölkədə əli pula çatanlar pulunu hara xərcləyir, nəyə dəyər verir. Bu zaman düşünürsən ki, görəsən Tağıyev həqiqətənmi bu millətin övladıdır?!**

**Əvvəl başlayım avtomobillərə verilən dövlət nömrə nişanlarından. Dövlət nömrə nişanları rəqabətin açıq formasıdı. Özünü qabarıq formada büruzə verir. Görürsən ki, bir nəsildə sürülən avtomobillərin hər biri eyni nömrəni daşıyır. Sözsüz ki, fərqli seriya ilə. Məsələn, MM 800, MN 800, NN 800 və ilaxır. Bu tip nömrələrin qiyməti də sıradan bir nömrənin qiyməti ilə eyni deyil. Elə qanuni bazarda da bu tip nömrələr bahadır. Həm də ki, bir nəsilə eyni nömrədən bir xeyli sayda verirlərsə burda artıq şübhəli məqamlar yaranır ki, bu da həm pulun roluna, həm də ki, xüsusi statusun çoxşaxəli funksiyalarına işarə edir. Və beləliklə görürsən ki, hansısa bir nəsil on minlərlə pulunu tək maşının nömrəsinə xərcləyib. Bəs məqsəd nədir? Məqsəd odur ki, bilsinlər ki, filan nömrəli maşınlar filankəslərə məxsusdur və bu maşınları görəndə hər kəs hesabını götürsün. Yol polisi üzünü o tərəfə çevirsin, bazarkom qarnını yığsın, kiçik vəzifəlilər qalstukunu sıxsın və s.**

**Beləları ölkəmizin hər yerində var. Və bu gündə əksəriyyət bilir ki, məsələn 900-lər kimə məxsusdur, 005-lər kimə, 101-lər kimə və s.**

**Mobil telefon nömrələri isə başqa cürdür. Burada özünü reklam bir az zəifdir. Belə ki, maşın nömrələri adamın gözünə girir. Amma mobil nömrələri ancaq o nömrən bilən adam üçün reklamdı. Qiymətlər də fərqlidi. Bu nömrələrin sayından asılıdır. Yəni ki, say çox olduğundan burda qiymətlər dövlət nömrə nişanlarına baxanda aşağıdır. Məsələn, "qara bazar"da ən bahalı sayılan azercelin 211 nömrələrinin qiyməti 50 min manata gedib çıxırsa avtomobilə verilən 99 qoşa seriya 999-lı dövlət nömrə nişanının qiyməti 100 min manatla hesablanır. Amma qeyd edim ki, telefon nömrəsi üçün bu qiymət elə-belə məbləğ deyil.**

**Mobil telefon nömrələrinin seçimi də fərqlidi. 211-dən kimə zəng gələrsə xəttin o biri tərəfində özünü yığışdırar. Çünki 211-lə zəng vuran sıradan birisi deyil. Hər kəs bilir ki, 211 zıvıdı adama məxsusdu. Söhbət azercel nömrələrindən gedir. 210 nömrəsi 211 dən sonra gəlir. Yəni müavin kimi. 288 isə parlament nömrəsi kimi tanınır.**

**Yəqin ki, bu seriyanı dövriyəyə parlament buraxıb. Yeri gəlmişkən deyim ki, bəzən elə olur ki, bir nazirlik bir seriyanı alıb əməkdaşlarına paylayır. O üzdən adətən seriyalara həmin qurumun adı verilir. 212-də babat nömrələr siyahısındadır. Maraqlandım dedilər ki, 200-ləri isə əsasən prokuratura işçiləri istifadə edir və s.**

**Dünya nələrin hayında biz nələrin. Camaat raketlə planetlər gəzir biz isə nömrə bazarı yaradıb pulumuzu rəqəmə sovururuq. Bu da bizim dünyamızdı.**

**Dünyadan söz düşmüşkən, biz elə dünyaya gələn kimi nömrələnirik. Doğum evindəcə taxırlar qolumuza nömrəmizi. Hər kəs doğulduğunun qucağında doğum evini tərk etsin deyə nömrələnir. Digərinin övladı ilə dəyişik, səhv düşməsin deyə. O nömrələri ancaq analarımız bilir.**

**İlk gündən nömrələr ilə tanınırıq biz.**

**Tək tanrının bizə yazdığı nömrəmiz bilinmir.**

# Ölümü ilə əfsanələşən igid: Allahverdi Bağırov

**Bəlkə də o anadan olanda heç kəsin ağlına da gəlməzdi ki, bu körpə bütün qarabağlıların , bütün Azərbaycanın fəxr edəcəyi bir igid olacaq. Axı yeddi bacıdan sonra dünyaya gələn ilk oğul övladıydı. Bir dəstə qızın içində böyümək, amma əsil kişi kimi böyümək də hər oğlanın işi deyildi. Allahverdinin ayağı sayalı oldu. Sonra igidliyi ilə ondan geri qalmayan qardaşı Eldar, daha sonra Əmir doğuldu. Teymur ata , Zümrüd ana inanmazdılar ki, qız övladlarıyla sevgi fərqi qoymadıqları bu üç qardaş zaman gələcək ümid yeri, pənah qapısı, qəhrəmanlıq nümunəsi olacaq. Hələ zaman axımı olmalıydı, dünya nehrə kimi çalxanmalı, oğuz elləri ağır imtahana çəkməliydi. Bax, o günə hələ xeyli vardı...**

**Hələlik zaman o zaman idi. 1946-cı ilin aprel ayının 22-si... Teymur kişinin möcüzə bildiyi, Allah vergisi kimi duyduğu, bu səbəbdən də adını Allahverdi qoyduğu övladı doğulur. Allahverdi orta təhsilini Ağdam şəhər 1 saylı məktəbdə alır.**

### *Qoçaq idmançı, dürüst məşqçi...*

İdmana böyük həvəsi məktəb illərində və sonrakı vaxtlarda idmanın müxtəlif növlərində keçirilən yarışlarda Ağdamın qələbə qazanmasında rolu olur. O, həmdə, Qarabağ Ağdam futbol klubunun yadda qalan üzvlərindəndir. 1976-cı ildə keçirilmiş Ümumittifaq birinciliyində Azərbaycanın dördüncü yer tutmasında böyük əməyi olur. Getdikcə ətrafındakılarda bu qara, şirin, amma ciddi, zəhmli oğlanın doğrudan da Allah vergisi olduğuna inanmağa başlayırlar.

Keçmiş futbolçu Müşfiq Hüseynovun xatirəsi:"İlk məşqçim, rəhmətlik milli qəhrəman Allahverdi Bağırov olub. Allahverdi müəllim futboldan öncə bizə dürüst olmağı öyrətmişdi. Bizə həyata müstəqil olaraq atılmağımızda rəhmətliyin böyük əməyi olub. Həqiqətən də O, futbolçulara gözəl bir örnək idi."

### *Zəhmli, zarafatçıl komandir...*

O, gənc yaşlarından çox cəsarətli, qorxmaz, sözübütöv və haqsızlığa dözməyən adam idi. Ona görə də, "davakar" adı da qazanmışdı. Ən xırda bir haqsızlığa susa bilmirdi, etirazını bildirirdi.Bu səbəbdəndə ermənilərin haqsız tələbinə laqeyd qala bilməzdi. Qarabağ müharibəsi başlayanda ilk yaradılan batalyonlardan birinə- Vətən oğulları batalyonuna Allahverdi Bağırov rəhbərlik edir. Ağdam əhalisi tərəfindən göstərilən maddi yardım və öz şəxsi vəsaiti ilə Qarabağ kəndlərində yaradılmış kiçik özünü müdafiə dəstələrinə yaxından köməklik edir. Ağdam rayonu ərazisində gedən bütün döyüşlərdə mərdliklə vuruşur. Oğlu Elşən Bağırovun xatirəsi: Döyüşlər getdiyi vaxt çağrıda bizim bölüyə "Zümrüd 26" adı vermişdilər. Qəfil çağırdılar. Atam onda dedi ki, onlar kimi çağırırlar. Dedim bizi. Sonra zaraftla bildirdi ki, ədə, niyə çağrıya mənim nənəmin adını qoyublar, öz nənələrinin adını qoyaydılar da....

### *Vətənpərvər, insansevər...*

O, Xocalı soyqırımı zamanı həlak olanların meyitlərinin döyüş meydanından çıxarılmasında və azərbaycanlı əsirlərin erməni işğalçı əsgərlərin meyitləri və əsirləri ilə dəyişdirilərək azad edilməsində böyük xidməti olub.

Həmin əməliyyatlar keçirilən zaman Ağdam rayonu 300 nəfər şəhid verir. Bağırov erməni polkovnik Vitali Balasyan vasitəsilə üç gün ərzində 1003 Xocalı əsirini ermənilərin əlindən xilas edir, Ağdamın Qarağacı qəbiristanlığında Azərbaycan əsirlərini təhvil alır.



Səkkiz günlük erməni əsirliyində işgəncələrə məruz qalan Hüseynağa Aydın oğlu Quliyevin söylədikləri:" Məni əsirlikdən qurtarmaq üçün Ağdam döyüşlərində əsir düşmüş Suriyadan olan erməni ilə dəyişməli idilər. Belə də oldu. Ermənilər Milli Qəhrəman Allahverdi Bağırova pul təklif etmişdi ki, həmin Suriya ermənisini qaytarsın. Amma yeri behişt olsun, rəhmətlik Allahverdi kişilik göstərib ermənini pula deyil, mənə dəyişdi. Anamı da buraxmışdılar". Məhz Allahverdi Bağırovun erməni komandir Vitali Balasanyanla apardığı danışıqlar nəticəsində hərbi operator Seyidağa Mövsümlü və Çingiz Mustafayevin Xocalı hadisələrinin məlum görüntülərini lentə alması mümkün olur.

Bağırov ermənilərdən alınmış əsirləri avtobusla gətirib, sahiblərinə təhvil verir. Şəhidləri isə Ağdam məscidində, kəfənə tutdurub torpağa tapşırır, Məlumata görə, təkcə Qazançı kəndindən olan üç erməni meyidinə 22 adamımızı dəyişdirə bilir...

Bacısı Almaz Bağırovanın xatirəsi: Univermağın müdiri deyib ki, qalın ağ var. Verim? Allahverdi deyib ki, sən qıyarsan oğlunu o qalın ağda dəfn etsinlər?! O belə vətənpərvər, belə insansevər idi. Onun bəyəm imkanı yox idi. O guya cəbhədən yayına bilməzdi? Neçə restoranı, neçə dükani var idi. Koorperativi var idi. Amma etmədi.

### *Şəhid! Qəhrəman!*

Ən böyük hərbi uğuru 1992-ci il 12 iyunda Aranzəmin, Naxçıvanlı kəndi döyüşlərində olur. O zaman Naxçıvanlı kəndində işğalçıların bütün canlı qüvvəsi və texnikası darmadağın edilir, döyüşçülər Əsgəran qalasına qədər irəliləyir, Pircamal kəndindəki bütün yüksəkliklər tutulur, Kətük kəndi ilə üzbəüz mövqe qurulur.

2015-ci ildə telejurnalist Nadejda İsmayılovanın verdiyi müsahibədən:

" Onun üzündəki solmuş təbəssümü, yorğun sifətini unuda bilmirəm. Mənə elə gəlirdi ki, bu güclü, cüssəli oğlan gözlərimin qarşısında bu dəqiqə səndərləyib yıxılacaq. Heç kim bilmirdi ki, o nə zaman yatır. Ümumiyyətlə yatırmı? Mən çəkiliş qrupumuzun rejissoru Namiq Şirəlibəyov və operator İzzət Əzizovla çəkilişləri səhər o başdan başlayırdıq, eşidirdik ki, Allahverdi artıq hardasa insanların köməyinə çatır, üzərinə düşən hansısa əməliyyatı yerinə yetirir. Gah ermənilərlə danışıqlarda olurdu, gah meyit dəyişirdi, gah da ağlayıb-sızlayan ana-bacıların ətrafında onlara ürək-dirək verir, saçlarını tumarlayırdı. Qəfildən gedib postları yoxlayırdı, Ağdamı qoruyan uşaqların ayıq-sayıq olmaları üçün tapşırıqlar verirdi. Bir də görürdün ki, əlinə bir dəfə də tüfəng götürməyən müdafiəçiləri silahla davranmağı öyrədir. Allahverdi Əsgərəna - döyüşlərin ən qızğın mərkəzinə gedib oradan ermənilərdən ya ölümüzü, ya dirimizi alıb gətirirdi. Bu erməni silahlı əsgərləri ilə qarşılaşmanın hər dəqiqəsində ölüm var idi..."

Qeyd edək ki, bu döyüşdən Ağdama qayıdan Allahverdi Bağırov minaya düşərək şəhid olur. Ailəli idi, bir oğlu iki qızı var.

***P.S.* *Allahın vergisi- Allahverdi Bağırov kimi mükəmməl şəxsiyyətlər Azərbaycan xalqının milli sərvətidi, dəyərli nümunəsidir. Onları unutsaq, hər gün yad etməsək, onlara bənzər övladlar yetişdirməsək, Allah bizi cəzalandırar! Həm də, sərt cəzalandırar! Alar əlimizdən milli sərvətlərimizi, dəyərli nümunələrimizi, itələyər bizi dibi görünməyən bir uçurumun içərisinə! Allahın qəzəbinə gəlmədən belə oğulları sevin, fəxr edin, onlara oxşamağa çalışın!***

**Əntiqə Rəşid**

# Şuşadakı qurultay farsları niyə qəzəbləndirdi: "İsrail də orda olacaq, ordumuz müdaxilə etsin..."

**44 günlük müharibədən sonra dünya Azərbaycan ordusunun gücünü-qüdrətini gördü. Təbii haldır ki, bu gücü -qüdrəti həzm edə bilməyən dövlətləri də biz gördük və necə ki, hər zaman görmüşdük.**

Xəbər verdiyimiz kimi, Dünya Azərbaycanlılarının V Qurultayının keçirilməsi ilə bağlı hazırlıq işləri yekunlaşmaq üzrədir.Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayının keçirilməsi ilə bağlı hazırlıq işləri yekunlaşmaq üzrədir.

Tədbirdə 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsinin iştirakı gözlənilir. Qurultayın rəsmi açılış mərasimindən sonra Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətinə dair hesabat verilməsi, "Postmüharibə dövründə Azərbaycan diasporunun qarşısında duran vəzifələr", "Qarabağın bərpası və yenidən qurulmasına Azərbaycan diasporunun töhfələri" mövzularında müzakirələrin təşkili planlaşdırılır. O da deyilir ki, qurultay iştirakçıları əvvəlcə Bakı şəhərində Fəxri xiyabanı, Birinci və İkinci Şəhidlər xiyabanını ziyarət edəcək, daha sonra Şuşa şəhərinə yola düşəcəklər. Əlbətdə ki, belə bir xəbər Azərbaycanın dostlarını sevindirər, düşmənlərini də üzər. Adalet.az xəbər verir ki, Azərbaycana qarşı hər zaman əks - düşməncəsinə təbliğat aparan, yaxın qonşumuz, "din qardaşımız" olan İranda bu xəbəri qeyzlə, hikkə ilə qarşılanıb. Beləki, İran mediası Zəfər Qurultayına qarşı təxribat xarakterli materiallar yayır.Bu barədə "Azad İran" "Telegram" kanalı məlumat verib. Bildirilib ki, İranın SEPAH və kəşfiyyat nazirliyi - ETTELAAT nazirliyinə yaxın media qurumları yaxın günlərdə Şuşada keçiriləcək Zəfər Qurultayına qarşı təxribat xarakterli yazılar dərc edir və qurultayı pantürkistlərin anti-İran toplantısı adlandırırlar.




"Dəfələrlə bildirilmişdi ki, Əliyev Qarabağı nəzarətə götürsə, bizim sərhədlərimiz anti-İran və separatçıların fəaliyyət mərkəzinə çevriləcək. Qarabağda keçirilməsi nəzərdə tutulan qurultay özözlüyündə anti-İran hərəkətidir və burada pantürkist qrupların toplaşması İrana qarşı müharibə elan etməkdir. Qurultayda İsrail casusları və MİT-in məmurları başqa adlar altında iştirak edəcəklər", - deyə ETTELAAT-a yaxın "Azəriha" saytının "Telegram" kanalı yazıb.

Bununla yanaşı, İranın bir sıra sosial media qruplarında qurultayın keçirilməsi ilə bağlı mənfi yazılar dərc edilib və bunun İranı hər tərəfdən mühasirəyə almaq cəhdi kimi dəyərləndirilib.

Daha sonra Qafqaz məsələləri üzrə iranlı ekspert Salar Seyfəddini şəxsi Tvitter hesabında yazıb ki, Şuşada keçiriləcək qurultay İrana qarşı açıq mesajdır: "Bu, İran millətinə qarşı müharibə elanı və sərhəd divarında təxribat deməkdir. İranın Ana yasasına görə, Xarici İşlər Nazirliyinin vəzifəsi ölkənin ərazi bütövlüyünü müdafiə etməkdir. Əks halda ordu müdaxilə etməlidir" .

Qeyd edək ki, Qarabağ işğaldan azad olandan sonra İİR Tehrandakı mərkəzi küçələrdən birinin adını dəyişərək "Şuşi" qoyub. Hətta işğal vaxtı Şuşadakı Gövhərağa məscidini fars məscidi kimi təmir edərək onun üzərinə Şuşi məscidi" yazmışdı.

***P.S.* *Görünən odur ki, ermənilər nə vaxtsa, bizimlə barışacaq, amma farslardan bunu gözləmək xeyli zaman alacaq.***

**Əntiqə**

### *12 nəfər koronavirusa yoluxub, ölən olmayıb*



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 12 yeni yoluxma faktı qeydə alınıb, 18 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb. İndiyədək ölkədə ümumilikdə 792 457 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 782 621 nəfər müalicə olunaraq sağalıb, 9 707 nəfər vəfat edib, aktiv xəstə sayı 129 nəfərdir.

Ölkədə son sutka ərzində 3 331, hazırkı dövrədək isə 6 788 729 test aparılıb.

*Mehman CAVADOĞLU*

# RUSİYANIN QARABAĞ ƏNDİŞƏSİ

***Ermənistan hökuməti mətbuat xidmətinin ötən həftənin sonlarında yaydığı məlumata görə baş nazir Nikol Paşinyan sabah Moskvaya rəsmi səfərə gedəcək və iki ölkə rəhbəri arasında iqtisadi əməkdaşlıq məsələləri, eləcə də qarşılıqlı maraq kəsb eləyən digər movzular ətrafında geniş fikir mübadiləsi aparılacaq. Əslində, görüşün məqsədi də elə həmin o "digər məsələləri" müzakirə eləməkdi, çünki Ukrayna bataqlığında başını itirmiş Rusiya prezidentinin öz vassalı saydığı bir ölkəylə bu soxasoxda hansısa iqtisadi əməkdaşlıq məsələsini müzakirə eləməyə vaxt ayıracağı o qədər də real görünmür. "Digər məsələlər" ifadəsinin altındasa Azərbaycan və Ermənistan prezidentlərinin ikinci Brüssel görüşündən sonra yaranmış situasiyanın nəzərdə tutulması heç kim üçün sirr deyil. Çünki başı öz müharibəsinə qarışmış Putin birinci Brüssel görüşündən fərqli olaraq bu dəfəki prosesin gedişinə vaxtında müdaxilə edə bilməmişdi.***

***Şübhəsiz ki, N. Paşinyanın parlamentin ötən həftə keçirilən iclasındakı bəzi praqmatik açıqlamaları da Kreml kuluarlarında böyük əndişə yaradıb. Xatırladaq ki, həmin iclasda bir sıra həqiqətləri dilə gətirən baş nazir nəinki öz opponentlərini, bütövlükdə Ermənistan cəmiyyətini şoka salan fikirlər səsləndirmişdi. "Beynəlxalq birlik açıq şəkildə deyir ki, bizim Türkiyənin müttəfiqi olan Azərbaycanın ərazi bütövlüyünü tanımayan yeganə ölkə olmağımız çox təhlükəlidir. Onların fikrincə belə mövqe təkcə Qarabağ üçün yox, Ermənistanın özü üçün də yaxşı perspektivlər vəd eləmir" - deyə söylədikdən sonra həmin betnəlxalq birliyin aşağıdakı tövsiyyələrini də parlament üzvlərinin diqqətinə çatdırmışdı:" Bu gün bizə açıq-aşkar deyirlər ki, əgər Ermənistana böyük dəstəyimizi istəyirsinizsə, Qarabağ məsələsində plankanı aşağı salmalısınız. Əks təqdirdə bizə çox da bel bağlamayın. Ona görə yox ki, biz sizə kömək eləmək istəmirik, ona görə ki, kömək eləyə bilmirik".***

***İkinci Qarabağ müharibəsinin yekunlarına toxunan baş nazir daha sonra deyib ki, əgər o, Dağlıq Qarabağ ətrafındakı yeddi rayonu Azərbaycana versəydi minlərlə insanın həyatını xilas etmiş olardı, ancaq bunu etmədiyinə görə faktiki olaraq minlərlə insan həyatının qurban getməsinin səbəbkarı olub. Öz sələflərinin də bostanına daş atmağı unutmayan baş nazir deyib: "Serj Sərkisyandan miras qalmış danışıqların məntiqinə görə referendum tərəflər arasında razılaşdırılmış müddətdə keçirilməlidir. Azərbaycansa buna cavab olaraq bildirmişdi ki, yaxın 50 ildə heç bir referendumdan söhbət gedə bilməz. Referendum yalnız azərbaycanlılar ora qayıtdıqdan sonra baş tuta bilər ki, buna da 50-100 il vaxt lazımdır.***

***"Bizi Şuşanı verməkdə qınayırlar, - deyə o davam eləyir. - Hərçənd, müharibə məhz elə Şuşanın uğrunda gedirdi. Bizə deyirlər ki, müharibəni saxlamaq lazım idi. Guya biz müharibəni saxlamaq istəmirdik? Bu sadəcə, mümkün deyildi. Bu barədə dəfələrlə danışmışam. Bizim həlak olan uşaqlarımız Qarabağı verməmək üçün bütün imkanlarından istifadə elədilər. Bu məsələ hələ də gündəlikdən çıxmayıb. Əgər biz başqa yolla getsək Qarabağı mütləq verəcəyik. Fərrux dağı ətrafında baş verən hadisələr buna yaxşı misaldır. Biz hər şeyi hissə-hissə verəcəyik. Bəsdir bir-birimizi aldatdıq", - deyə hisslərini cilovlaya bilməyən baş nazir əsəbi tərzdə söyləyib.***

***Öz hökumətinin məziyyətlərindən danışan Paşinyan çıxışını emosianal notlarla başa vurub: "Biz erməni xalqını qurbanlıq quzu vəziyyətindən çıxarmağa çalışırıq... Ermənistan suveren dövlətdir, biz nəyisə həll eləmək hüququnu özümüzə qaytarmalıyıq, çünki biz ölkəyik, mal tövləsi deyilik. Biz vətəndaşıq, qurbanlıq quzu deyilik ki, nə qədər və necə kəsmək, yaxud bağışlamaq haqqında başqaları qərar versin. Biz dövlətik, biz millətik, biz suverenik. Bəli, bizim qürurumuz var, mənliyimiz var, hüquqlarımızı əlimizdən almağa heç kimə imkan verməyəcəyik".***

***Kiçik ixtisarlarla təqdim elədiyimiz bu çıxış təkcə günümüzün acı reallıqlarını əks etdirmir, həm də erməni cəmiyyətində formalaşmış çoxəsrlik stereotiplərə qarşı qaldırılmış üsyana bənzəyir. Paşinyan açıq-aşkar ona eyham vurur ki, əgər erməni ictimai şüuru uzun illərin xıltından təmizlənməsə, cəmiyyət öz ruhuna və "cisminə" hopmuş millətçi stereotiplərdən azad olmağa çalışmasa, xalqın başında duranlar, onu yönəldənlər xəstə və fantastik iddialardan əl çəkməsə bu ölkənin gələcəyi də keçmişi kimi qaranlıq olaraq qalacaq, heç bir kənar qüvvə, xarici havadar onun dərdinə əlac eləmək iqtidarında və ya həvəsində olmayacaq.***

***Bu çıxışın sabahkı Moskva görüşü ərəfəsində səslənməsi də təsadüf deyil. Çünki Dağlıq Qarabağ probleminin həlli məsələsində Kremlin mövqeyi ilə erməni radikal şüurunun daşıyıcılarının mövqeyi eyni olmasa da oxşar olub. Birincilərin heç bi əndazəyə sığmayan iddialarıyla ikincinin münaqişənin həllində maraqlı olmaması prosesi faktiki olaraq çıxılmaz dalana dirəyib. Elə 44 günlük müharibədən sonra da Rusiyanın faktiki olaraq heç bir məsələni həll edə bilməməsi, daha dəqiq desək, həll etmək istəməməsi bu deyilənlərə əyani sübutdur. Məsələn, 10 noyabr bəyanatında aydın və konkret şəkildə göstərilir ki, Rusiya Federasiyasının sülhməramlı kontingenti bölgəydə erməni silahlı qüvvələrinin ordan çıxarılmasına paralel şəkildə yerləşdirilir. Bu gün-sabah sülhməramlı qüvvələrin birinci müddəti başa çatacaq, ancaq bölgədəki erməni silahlı qüvvələri nəinki ordan çıxardılmayıb, hətta getdikcə çoxalmaqdadı.***

***Kommunikasıyaların açılmasına gəlincə, bu nəinki 10 noyabr bəyanatının müddəalarında əks olunub, hətta ötən il yanvarın 11-də məsələylə bağlı daha bir xüsusi bəyanat imzalanıb, işçi qrupu yaradılıb, görüşlər keçirilib və s. Ancaq altında Putinin də mübarək imzası olan həmin sənəddən və ondan sonrakı bəzi kosmetik gəlişmələrdən sonra da proses ölü nöqtədən tərpənmədi. Hazırda Putinin istənilən məsələylə bağlı öz iradəsini Ermənistana qəbul etdirməsində heç bir probleminin olmadığını, yəni bir vaxtlar başı Qərb havasıyla dumanlanmış hazırkı baş nazirin də 44 günlük müharibədən sonra "üzüyola uşağa" çevrildiyini, az-çox sosial bazası olan müxalifətinsə binayi-qədimdən birbaşa Moskvanın göstərişləriylə oturub-durduğunu nəzərə alsaq, şübhələr yenə də Şimala doğru yönəlir - kommunikasiyalar açılmırsa, deməli, Kreml belə istəyir.***

***Paşinyanın bu dəfəki Moskva səfərinin pərdə arxasında nələrin cərəyan edəcəyini təsəvvür eləmək çətin deyil. Avropa İttifaqının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Brüsseldə keçirilən ikinci görüşdən sonra əldə olunan konkret razılaşmalar və həmin razılaşmaların həyata keçirilməsi üçün atılan konkret addımlar az qala Moskvaya Ukrayna müharibəsini unutduracaqdı."Bu gecə böyük irəliləyişə nail olduq. Bu isə o deməkdir ki, biz hamımız birlikdə sülh danışıqları üçün konkret prosesə başalamağa və mümkün sülh sazişini hazırlamağa, bu saziş üçün bütün zəruri elementləri həll etməyə qərar vermişik". Şarl Mişelin görüşdən sonra söylədiyi tək bu cümlədə Kremli narahat eləyən xeyli ciddi məqamlar var. Hərçənd, həm Avropa Birliyi, həm də ABŞ son günlər Rusiya ilə aralarında yaranmış qatı və açıq düşmənçiliyə baxmayaraq hələ də Azərbaycan-Ermənistan münaqişəsinin həllində Moskvanın vasitəçiliyinin tərəfdarı olaraq qalırlar. Çünki Kremlin Ermənistanın maraqlarını onların özündən də daha yaxşı qoruyacağını yaxşı bilirlər.***

***Beləliklə, sabahkı Moskva görüşü Brüsseldə əldə olunmuş razılaşmaların həyata keçirilməsində həlledici rol oynayacaq. Putin təkcə razılaşmaların onun iradəsindən kənar baş verdiyinə görə yox, Ukrayna hikkəsini soyutmaq üçün də bu prosesə əngəl törədə bilər. Və çox güman ki, elə belə də olacaq.***

# Sözün işığında...

## O, Rəşad Süleymanov oldu

**... Dünyada Rəşad heç kimə arxayın olmayıb və heç kəsə də güvənməyib. O, göydə Allaha, yerdə isə özünə güvənib. Bütün çətinlikləri, ağrını-acını, sıxıntıları öz qüvvəsilə, öz gücü ilə həll edib. Düzdü, Rəşadın vəzifədə olan və sayılıb-seçilən qohum-əqrəbası da var. Amma bu halal yolu tutan və o yolda mücadilə aparan istedadlı gənc heç vaxt, heç nəyə və hətta arxalı qohuma belə söykənməyib. Söykəndiyi haqq-ədalət olub, tutduğu yol olub və o yolla da gedərək üzü işığa çatıb...**



Bu işıq onu göyün yeddinci qatına qaldıran sözün işığı idi. Sözün işığında həm özü ucalırdı, həm də qələmə aldığı insanlar və onu sevənlər. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdi və mənim əmim nəvəsi idi. Babası Yusif Süleymanov İkinci Dünya müharibəsində iştirak etmiş, düz Ukraynadan Berlinə qədər döyüş yolu keçmişdi. Hətta Ukraynanın qəsəbələrin birində onun adını əbəliləşdirərək "Yusif Süleymanov" küçəsi qoymuşdular. Və hərdənbir də onu Ukraynaya dəvət edirdilər və bir dəfə də mənim atamla həmin qəsəbəyə getmişdi, möhtəşəm görüşdə olmuşdu. Atam da ordakı insanların Yusif əmimə olan sevgisini görüb məəttəl qalmışdı və demişdi ki, biz bilmirdik ki, Yusifin bu qədər ukraynalılar arasında hörməti varmış. Çünki o, neçə-neçə dinc sakini, səngərdə yaralanmış əsgər yoldaşını ölümün pəncəsindən xilas etmişdi.



Rəşad da Yusif kişinin nəvəsi idi. Eynən ona bənzəyirdi. Nə ölümdən qorxardı, nə də hansısa vəzifəli şəxsin hədə-qorxusundan. Birinci Qarabağ savaşının ilk günlərindən əsgərlərimizin yanında olardı. İkinci Qarabağ savaşı başlamamışdan öncə hərbi jurnalist kimi ən çətin mövqelərə gedib orda müsahibələr, reportajlar, xəbərlər hazırlayardı. Onu da qeyd edək ki, Rəşad "Həftə içi", "525" qəzetlərində və eləcə də İctimai Televiziyada, o cümlədən, "APA" İnformasiya Agentliyində məsul vəzifələrdə çalışmışdı. Təbii ki, onun vətən sevgisi, vətən məhəbbəti, jurnalistikaya olan marağı həmişə önə çəkirdi. Öndə isə vətən vardı, səngərlərimiz vardı və döyüşən oğullarımız vardı. Rəşad elə bir ay olmazdı ki, səngərdə - Azərbaycan əsgərinin yanında olmasın! Çünki o, artıq daha da püxtələşmiş, daha çox təcrübə toplamış və öz mövqeyi olan hərbi jurnalist idi. Və təsadüfi deyil ki, müstəqil surətdə yeni "Azəri Defecne" saytı və "Paliqon" jurnalı açmışdı. Hər iki informasiya mənbəyinin baş redaktoru idi və baş redaktor kimi də qısa zaman kəsiyində çox böyük hörmət və nüfuz qazandı. O nüfuz ki, ancaq sərhəddən keçirdi, səngərdən keçirdi və Azərbaycan əsgərinin yanından keçirdi...

Rəşad yeganə hərbi jurnalistlərdəndir ki, o ordu quruculuğu ilə bağlı çox zəngin biliyə, təcrübəyə və məlumata malik idi. Hərbi ekspert kimi İkinci Qarabağ müharibəsi başlanan ilk gündən müxtəlif televiziya kanallarına dəvət olunur və orda maraqlı fikirləri ilə tamaşaçıları sevindirirdi. Çünki Rəşad başqaları kimi pafosla, boğazdan yuxarı danışmır, hər şeyi faktlar və zəngin məlumatlar əsasında tamaşaçıya çatdırırdı. Ona görə də onun çıxışlarını hamı səbirsizliklə gözləyirdi və o da sözün işığında, nurunda milyonların ürəyində özünə iz qoyurdu. Hər dəfə efirə çıxanda çöhrəsindəki nuru görürdük və bu nuru görəndə hiss edirdik ki, Rəşad Süleymanov ordumuzla bağlı, Azərbaycan əsgərinin 44 günlük mücadilədə uğurları ilə əlaqədar şad xəbərlər deyəcək. 44 günlük Qarabağ savaşında Rəşad bəlkə də 20-30 dəfə döyüş mövqelərində oldu. Əsgərlərimizin mücadiləsini və qələbəsini Azərbaycan tamaşaçısına, Azərbaycan oxucusuna çatdırdı...



Rəşadı hamı çox istəyirdi. Bircə onu çox istəməyənlər haqqı və ədaləti, həqiqəti sevməyənlər idi. Onlar da cəhənnəmə istəməsinlər. Əsas o idi ki, Rəşadın qəlbi Vətən məhəbbəti ilə, Vətən eşqi ilə çırpınırdı. Və bu yolda ölümdən belə çəkinmirdi. Dəfələrlə bu döyüş zamanı həlak ola bilərdi. Amma hər dəfə də Allah onu çətin vəziyyətdən xilas edirdi. Rəşad həm də ordumuzdakı neqativ halları belə tənqid etməkdə çəkinmirdi. Hətta Qərargah rəisini tənqid atəşinə tuturdu. Onun hədəsinə, qorxusuna baxmayaraq, yenə o haqqı-ədaləti yazır, vətəni və milləti yüksək vəzifəlilərdən üstün tuturdu...



Bir faktı da qeyd edək ki, Rəşad Süleymanov dəfələrlə bir çox xarici ölkələrdə keçirilmiş beynəlxalq sərgilərdə iştirak etmiş və orda maraqlı çıxışları ilə Vətənimizi təmsil etmişdi. Onun çıxışları o qədər orijinal və maraqlı olmuşdu ki, xarici ölkələrdən birini müdafiə naziri onu şəxsən nazirliyə dəvət etmiş, orda ətraflı söhbət eləmişdi və demişdi ki, biz səni yaxşı öyrənmişik, sənin baban vaxtilə mənim babamı ölümdən qurtarıb. Biz də sənin kimi istedadlı, təcrübəli jurnalistləri qorumağa və sevməyə borcluyuq. Bax, Rəşad belə bir hərbi jurnalist olub. Hansı beynəlxalq təşkilatın təşkil etdiyi tədbirdə iştirak edibsə, orda Azərbaycanı ləyaqətlə, şərəflə təmsil edib.

Rəşad 38 yaşında Allahın dərgahına qovuşdu və bu 38 yaşda sanki o, 138 il bir ömür yaşadı. Çünki Rəşad qısa zaman kəsiyində çox ürəklərdə özünə əbədi bir iz qoydu. Ən çox da bu izi böyüyüb-başa çatdığı Füzuli rayonunun Böyük Bəhmənli kəndində qoymağı bacardı. Çünki Rəşad həm də qədim və zəngin mədəniyyəti olan Bəhmənlinin tarixini, keçmişini, bir jurnalist kimi araşdırırdı və heç kimin bilmədiyi və üzləşmədiyi faktları ortaya qoyurdu. Ona görə də Bəhmənlilər deyir ki, heyif Rəşada, onun kimi oğul bir də dünyaya gəlməyəcək.

Bu yaxınlarda Rəşad Məhəmməd oğlu Süleymanovun 40 yaşı tamam olub. Bu münasibətlə onun oxuduğu və məzunu olduğu Füzuli rayon Allahyar Əliyev adına Böyük Bəhmənli kənd 2 nömrəli tam orta məktəbində anım mərasimi keçirilib. Anım mərasimini Kürdəmir Regional Mədəniyyət şöbəsi, Füzuli rayon Dram Teatrı, fotoqraf Nurəhməd Vəliyev, Yağlıvənd musiqi məktəbinin direktoru Elmir İdrisli, Rəşadın təsisçisi və baş redaktoru olduğu "Azəri Defince" və "Paliqon" jurnallarının indiki baş redaktoru Zaur Babaşov təşkil etmişdilər. Tədbirdə Füzuli rayon Ağsaqqallar Şurasının sədri Zülfüqar Əliyev, Xocavənd rayon prokuroru və Rəşadın dayısı Kamran Əhmədov, Kürdəmir Regional Mədəniyyət şöbəsinin müdiri Faiq Xudanlı, Rəşadın birinci sinif müəllimi, sinif rəhbəri Həqiqət Rzayeva və Solmaz müəllimə, məktəbin direktoru Həsən Rzayev, fotoqraf Nurəhməd Vəliyev, Qarabağ müharibəsi qaziləri və iştirakçıları çıxış edərək məşhur jurnalist barəsində xatirələrini danışdılar. Rəşadın oxuduğu məktəbdəki sinif otağına onun adı verildi. Tədbir iştirakçıları həmin sinif otağı ilə tanış oldular və şagirdlərin ifasında şeirlər və kompozisiya dinlədilər...

**Rəşad Süleymanov sözün işığında Allahın dərgahına dönüb və indi o, göyün yeddinci qatında - Allahın dərgahındadı. Axı deyirlər ruhlar yaşayır, onun ruhu da yəqin ona olan xalq sevgisindən xəbər tutdu və sevindi ki, Rəşad kimi istedadlı, vətənsevər, cəsarətli və mərd jurnalistlər heç vaxt yaddan çıxmırlar. Yaddan çıxmayan həm də Rəşadın səmimiyyəti, bal kimi şirin söhbəti və çöhrəsindəki nurdur. Elə o nurla da Allahın dərgahına qovuşdu...**

**Faiq QİSMƏTOĞLU**

# Erməni ekspert: "Paşinyan "razılaşma" siyasətinə məcburdur, Bakı Zəngəzuru alacaq..."

**Bir neçə ay öncə erməni hərbi ekspert Van Ambartsumyan "Fastinfo"ya verdiyi müsahibəsində bildirmişdi ki, Azərbaycan ötən il çoxlu sayda silah alıb, üstəlik, heç vaxt onda olmayan silahlar alıb:**

"Azərbaycan 18 ölkədən silah alıb, Qarabağda yeni hərbi hissələr açıb, Ermənistan isə Rusiyanın onun silahlarından xeyriyyə yardımı kimi nə göndərəcəyini gözləyir"

Ekspert vurğulayır ki, Rusiya bəzən Ermənistana müxtəlif növ silahlar göndərir, lakin bu, kifayət etmir: "Ermənistanla Azərbaycan arasında silah balansı pozulur. Müharibə yenidən başlasa, bu tarazlıq Ermənistanın başında pozulacaq".

Adalet.az "BUDROOO NEWS " You Tube kanalına istinadən xəbər verir ki, hərbi ekspert bildirib ki, Azərbaycan Ordusunun Zəngəzuru nəzarətinə alacağını iddia edib:"Onlar (Azərbaycan Ordusu) bütün təmas xətti boyunca hərəkətə keçəcək, Zəngəzur istiqamətində irəliləyərək bu torpaqları tam olaraq öz nəzarətinə alacaq. Bütün təmas xətti boyunca eskalasiya Ermənistan tərəfini çaşqınlığa salacaq və Azərbaycan Ordusu tez bir zamanda Zəngəsur üzərində nərazəri ələ keçirəcək".




V. Ambartsumyan eyni zamanda Ermənistanın Azərbaycan qarşısında çarəsiz duruma düşdüyünü də vurğulayıb:" Hazırda Ermənistanın Azərbaycan Ordusuna qarşı çıxa biləcək heç kimi, heç nəyi yoxdur. Paşinyanı qınamaq düz olmaz. Hazırda o "razılaşma" siyasətinə məcburdur. Bakını heç rus sülhməramlıları da saxlaya bilməyəcək. Çünki bir müddət sonra onlar Qarabağdan çıxarılacaq. Mən Nastradamus deyiləm, amma mən bunu deməliyəm. Həqiqət budur".

Qeyd edək ki, Bir neçə ay əvvəl "SisMasis" Telegram kanalında müsahibə verən Van Ambartsumyan Azərbaycan xüsusi təyinatlı qüvvələrini tərifləməkdən çəkinməyib: "Mən həqiqəti deməyi sevirəm. Azərbaycan Silahlı Qüvvələrinin unikal piyada qoşunları var. Əgər siz də həqiqəti bilmək istəyirsinizsə, deyim. Mən ekspert kimi danışıram, millətindən və dinindən asılı olmayaraq, deməliyəm ki, onların super xüsusi təyinatlıları var. Onlar Kanadadan, İtaliyadan və hətta Fransadan ən müasir avtomatlar alıblar.

Məsələn, "Yarasa" bütün dünya miqyasında unikal qoşun növüdür. Onlar müharibədən 12 saat əvvəl arxamıza keçərək, ordunun təminatını kəsdilər. "Yarasa" qrupunun döyüşçüləri erməni forması geymişdi və heç kim bunu başa düşmədi. "Yarasa" Şuşa istiqamətində hansı oyunlardan çıxmadı ki? Onlar Ermənistan xüsusi təyinatlılarının ovuna çıxmışdılar. Xüsusi təyinatlılarımıza qarşı unikal, təkrar edirəm, unikal əməliyyatlar keçirirdilər".

**Ekspert bu sözlərinə görə kanaldan qovulmuş, danışdıqları isə videodan silinmişdi.**

**Əntiqə Rəşid**

# «Yaxın zamanlarda kirayə mənzillərin ucuzlaşması gözlənilmir»

**Hazırda paytaxtda kirayə mənzillərə tələbat çoxdur.**

Bunu Trend-ə açıqlamasında əmlak eksperti Elnur Fərzəliyev deyib.

Onun sözlərinə görə, Bakıda mərhələli şəkildə köhnə binaların söküntüsü davam edir:

"Bunun nəticəsində həm sökülən binalarda kirayə verilən mənzillər sıradan çıxmış olur,



həm də həmin binalarda yaşayan daimi sakinlər də məcburən iki il ərzində kirayədə yaşayırlar.

Nəzərə almalıyıq ki, paytaxtda qəzalı və istismar müddətini başa vurmuş kifayət qədər bina var", - E.Fərzəliyev deyib.

Onun sözlərinə görə, yaxın zamanlarda kirayə verilən mənzillərin ucuzlaşması gözlənilmir:

"Fikrimcə azad edilmiş ərazilərimizdə tikinti, bərpa işləri bitdikdən sonra, məcburi köçkünlər ora qayıtdıqdan sonra paytaxtda kirayəyə tələbat azalacaq və qiymətlərdə enmələr müşahidə olunacaq", - E.Fərzəliyev vurğulayıb.

**Ekspert əlavə edib ki, qiymətləri aşağı sal biləcək amillərdən biri də tələbə yataqxanalarının tikintisi ola bilər.**

*Aqil ABBAS*

# "QƏBƏLƏ" QƏBƏLƏDƏ YAŞAMALIDI

***Qəbələyə yolumu tez-tez salıram. Təkcə istirahət etmək üçün yox, əsasən futbola baxmaq üçün. "Qəbələ" "Qarabağ"dan sonra mənim ikinci komandamdı. Region klubu olduğuna görə. Əvvəl "Xəzər-Lənkəran"ı da "Qəbələ" kimi sevirdim, təəssüf ki, "Xəzər-Lənkəran" kimlərinsə davasının qurbanı oldu.***

***Əslində "Qəbələ" də yenə kimlərinsə hikkəsinə qurban gedə bilərdi, amma şükürlər ki, bunu bacarmadılar, yaşadı, indi də yaşayır.***

***Hər il ölkə çempionatında sözünü deyir, eləcə də əvvəllər Avroliqada da bizi sevindirirdi. İnşallah, bu il də sevindirər.***





***Qəbələdə futbolun inkişafı üçün hər cür şərait yaradılıb. Gözəl stadion, məşq üçün əlavə stadionlar, yüksək səviyyədə, hər cür şəraiti olan baza, futbol akademiyası. Bu akademiyanın məzunları demək olar ki, Azərbaycanın bütün klublarında oynayırlar.***

***Qəbələnin özü də bir kiçik İsveçrəyə oxşayır. Təkcə təbii mənzərələri ilə yox, abadlığı, səliqəsi, otelləri, istirahət məkanları. Yəni bir sözlə, vaxtilə adi bir qəsəbə olan Qəbələ indi Azərbaycanın ən gözəl bir şəhərinə, cənnətə çevrilib.***

***Bəs, belə bir şəhərdə futbola maraq niyə azdı? Birini mən deyim, "Qəbələ" komandasının oyunçuları Bakıda yaşayır, yalnız oyun günləri gedirlər Qəbələyə, ya da bir gün qabaq. Qəbələlilər, xüsusilə də uşaqlar, futbolsevərlər, həvəskarlar futbolçularla təmasda olmurlar, onları tanımırlar, onlarla bir çayxanada çay içmirlər, bir yeməkxanada yemək yemirlər. Şəhərdə gəzəndə uşaqlar arxalarınca düşə bilmir, yalvarıb çantalarını əllərindən alıb daşıya bilmir. Necə ki biz vaxtilə Ağdamda Allahverdi Bağırovun, Şəfəq Hümbətəliyevin, Qaraçı Əlövsətin, Elxangülün, Saşanın, Elbrusun çantasını daşımaq üstündə bir-birimizi qırırdıq, istəyirəm ki, Qəbələ uşaqları da öz komandalarının futbolçularının çantasını daşımaq üstündə bir-birini qırsınlar, şəkil çəkdirmək üstündə dalaşsınlar.***



***Məni həmişə düşündürüb, indi də düşündürür. Niyə "Qəbələ"nin legionerləri, əsas futbolçuları Bakıda yaşamalıdırlar, Qəbələni bəyənməməlidirlər? Əslində onlara Qəbələdə daha gözəl şərait yaradarlar, nəinki Bakıda.***

***Klubun prezidenti futbolçu ilə (istər legioner, istər yerli) müqavilə bağlayarkən bir şərt də onu sürməlidir ki, Qəbələdə yaşayacaqsınız, məşqləri də Qəbələdə edəcəksiniz. Onda camaat məşqlərə də gedib baxar. Bir canlanma yaranar, qaynayar Qəbələ.***

***Yoxsa "Qəbələ"nin bir günlük Qəbələyə oyuna getməsi elə "Keşlə"nin adını dəyişib "Şamaxı" qoyub Şamaxıya getməsi kimi bir şeydi.***

***Bu mövsüm bitdi. Dostum, komandanın prezidenti Farizdən xahiş edirəm ki, növbəti ildə bu barədə fikirləşsin.***

***Yoxsa nə gözəl stadion tikirsən tik, nə gözəl baza yaradırsan yarat, çempion ol, kubok al xeyiri yoxdu, Qəbələdə futbol olmayacaq.***

***Qəbələdə futbolun olması üçün komanda həmin şəhərdə yaşamalıdır. Futbolçular o şəhərin bazar-dükanına getməlidir, çayxanasında çay içməlidir, yuxarıda dediyim kimi, camaatla təmasda olmalıdır.***

***Bir də sözüm pullu klublaradı. Baxıram, Azərbaycan çempionatında bərk gedən komandalarda da, adi komandalarda da ən yaxşı oyunçular nə vaxtsa "Qəbələ"də oynayıblar. Pullu komandalar "Qəbələ"nin kasıblığından istifadə edib həmin oyunçuları oğurlayırlar. Özləri yetişdirə bilmir, ona görə də "Qəbələ"nin yetişdirdiyinə göz dikirlər.***

***Deyəcəksiz bazar iqtisadiyyatıdı. Bu hərəkətin bazar iqtisadiyyatına heç bir dəxli yoxdu. Bu bazar iqtisadiyyatı yox, bazardı.***

***Eşitdim ki, "Qarabağ" bu həftə Qəbələdə qalacaq. Çox sevindim. Deməli, bir həftə Qəbələdə futbol bayramı olacaq.***

***"Qəbələ"yə uğurlar arzulayıram. Komandanın prezidenti Fariz Nəcəfova və baş məşqçi Elmar Baxşıyevə də demək istəyirəm ki, düzgün yoldasız, möhkəm olun və futbolçularınızı da qoruyun.***

## *Bu yekəlikdə yalan olar?*



**"Azəristiliktəchizat" ASC-nin sədri vəzifəsini müvəqqəti icra edən İlham Mirzəyev deyib ki, əməkdaşlarımız əhali arasında sorğu aparıb monitorinq keçirib. Öyrənib ki, əhali istiliyin qiymətinin 15 qəpikdən 22-25 qəpiyə qalxmasını istəyirlər. Biz hər cür yalan eşitmişdik, amma bu boyda yalan eşitməmişik. Ən azından ona görə ki, heç bir insan indiki bahalıq şəraitində istiliyin qiymətinin könülü surətdə artmasını istəməz. Çünki camaatın iqtisadi durumu çox ağırdır. Bu xalqın boynuna nə qədər yük qoymaq olar. Xalq filan şey istəyir, bəhmən şey arzulayır.**

Xalqın adından yalnız prezident danışa bilər. Çünki xalq prezidentə səs verir və onu seçir. Amma İlham Mirzəyevin xalqın və əhalinin adından danışması yalnız və yalnız bu xalqa hörmətsizlik və diqqətsizlikdir. Əgər qiymətləri bahalaşdırmaq istəyirsinizsə, Tarif Şurası bilər, siz bilərsiz. Ancaq xalqın boynuna yük qoyub deməyin ki, əhali qiymətin artmasını istəyir.

## *Yağışlı havalar*

**Yağışlı havalarda avtomobilləri idarə etmək ikiqat çətinləşir. Birincisi ona görə ki, yol sürüşkən olur, ikincisi də belə havada yüksək sürətlə maşınları sürmək çox təhlükəlidir. Amma biz aprelin 16-da saat 18 radələrində Biləsuvar-İmişli avtomobildə gedərkən yağışlı havada və yol sürüşkən olarkən iki "Vaz-21" markalı iki avtomobilin bir-biri ilə ötüşdüyünü gördük. 06 markalı "Jiquli" 07 markalı "Jiquli"ni ötüb keçdi. Və bu anda digər avtomobillər üçün də qəza vəziyyəti yarandı. Özü də "Vaz-2106" markalı maşın çox köhnə idi və hətta elə bil ki, yüksək sürətlə hərəkət edəndə sökülüb töküləcəkdi.**

Bax, bu cür məsuliyyətsiz sürücülər başqaları üçün qəza vəziyyəti yaradır və ölüm təhlükəsi mövcud olur. Ümumiyyətlə, Biləsuvar-İmişli avtomobil yolunda radarlar olmadığına görə, sürücülər sürət həddini aşır, hava şəraitini nəzərə almır və hətta yağış yağanda belə bir-biri ilə ötüşürlər. Bu isə ölümə gedən yol deməkdir.

**Emil FAİQOĞLU**

# Bir zamanlar Ağdamda...

I

*Torpaqdan cücərən övladlar*

**Qarabağ torpağıyla ilk tanışlığım Ağdamla başlamışdı. 23 iyulda əmrim Ağdama verildi...**

**Turist kimi də Qarabağla tanışlığım Ağdamla başladı.**

**12 il sonra Ağdam torpağında.**

**12 il öncə torpağın altından-səngərdən baxırdıq bu tərəflərə. Onda torpağına altında gəzirdik, indi torpağın üstündə. Metr-metr səngər irəli çəkməyə, addım-addım torpaq azad etməyə, post qurmağa sevinirdik...**

**İndi bütünlükdə Ağdamın xilasına.**

**"Cücərdik" torpağın üstünə çıxdıq...**

**Torpağın altına axan qanlar yeni övladlar böyütdü. Səngərlərdən boyları keçdi, torpağın üstünə çıxdı.**

**Təkcə su deyil, şəhid qanı da bəsləyə bilir. Bu gün o torpaq üzərinə bayraq sancan övladlarını...**

***

Qarabağ torpaqlarına şair kimi, turist kimi gedirəm. Uşaq kimi gözümə yuxu getməz. Necəki kəndimizə gedərkən səhərə qədər yata bilmirdim. Yolları arzularım kimi görürdüm.

Çox qəribə hisdir, sonradan turist kimi göndərilmək..

II

*Vətənim zibilqabılar*

Xarabaxanaya çevrilmiş Qiyaslı kəndindəyəm. Bir salamat ev, başını soxacaq küme belə yoxdur. Ağaclar belə köçkün düşüb. Belə bərəkətli torpaqda tənha kollardan başqa gözə batan bir ağac yoxdur. Amma bu xarabaxanada diqqətimi çəkən zibilqabı yeşiyi olur.

***Vətən həm də o zibilqabıdan başlayır. Xarabaxanaya qoyulmuş zibilqabı. Elə budur vətən sevgisi.***

***Xarabaxanı belə zibillərdən qorumaq istəyi. Bu mənə bəs edir ki, Ağdamı özümkü hesab edim, vətənim bilim.***

III

*Ağdamın nicatı*

Əməkdaşımız Nicat Novruzoğlu tez-tez zəng edir. Cümə məscidin yanında ağac əkmişəm, ona baş çəkərsən. Elə ürəklə, elə istəklə tapşırır ki, sanki öz övladından bəhs edir. Sanki Ağdamda xidmət edən oğlunu tapşırır mənə.

Cümə məscidi yanında ağaca baş çəkirəm. Bəlkə söhbətləşirəm.

Mənə Ağdamın "nicatı" kimi görünürdü yeni pöhrələnmiş o ağaclar.

Vətən savaşın sonra doğulan Ağdam ağac övladları Qarabağın nicatıdır.

IV

*Əsgər sinəsi axtaran güllələr*

*Əsgər sinəsi axtarır*
*isinməyə*
*fevral şaxtasından*
*üşüyən güllə.*

Elə fevral ayı olardı o əsgərin özünü gülləyə vətən etməsi…."Sağ qalan varmı?!" şeirimdəndir bu parça. Elə şeirlər kitabımın adı da"Sağ qalan varmı?!" idi.

Ağdamda səngər həyatımız davam edirdi. Ötən ildən, Vətən Müharibəsindən fərqli olaraq metr-metr səngər irəli çəkməyin sevincini yaşayırdıq. Hər dəfə bir neçə metr irəli səngər çəkmək bizə hansısa kəndi azad etməyin sevincini verirdi. Daha irəlidə post qurmaqsa sanki bir rayon, şəhəri azad etməyin ekstazını yaşadırdı. Bu səngərlərin çəkilməsini zamana böləndə, düşmən qarşısında gecələrlə səngər qazmaq sanki iynəylə eşələnmək idi. Bəzən bir neçə metr irəli səngər çəkmək günlərlə də deyil, aylarla zaman alırdı. Əlbəttə, bu səngər çəkmələr itkisiz başa gəlmirdi. Nəmirli və Şurabad kəndinin sol cinahı tərəfdə bu dəfə digər bölməyə tapşırılmışdı səngər işi. Gecə vaxtı və snayper gülləsi bir gəlinliyi əbədi sahibsiz qoydu. Bir sevən qızın arzularını özüylə birgə apardı. Bəlkə də düşmən silahında üşüyən güllə əsgər sinəsində qızınmağa yer axtarırdı. Beləcə bu şeirim meydana gəldi.

***Həyat bu qədər fanidir, kiminsə sevərək oxuduğu, kiminsə həzz aldığı şeirlərin altında hansısa faciə, ananın göz yaşı və ya qan dayanır.***

V

*"alo, alo, alo…"*

İllərdi gecələr yuxudan təngənəfəs oyanırdım. Bəzən tər içində, bəzənsə boğulmaq üzrəykən... Bu oyanmalar 2010-cu ilin əvvəlindən 2020-ci ilin sentyabrına kimi davam etdi. Əvvəlki illər hər gecə, sonra həftədə bir, sonrasa, ayda 1-2 dəfə yuxularıma haram qatan bir qız idi. Üzünü görmədiyim, heç zaman rastlaşmadığım bir qız. Daha doğrusu, bir qızın səsi. O, heç nə danışmır, hesabını bilmədiyim sayda "alo, alo, alo...". Yuxularıma haram qatan bu "alo"lar idi. Axı, kim idi bu qız, niyə hər gecə yuxularımda "alo" deyərək qışqırır və mənə əzab verir?!

Vətən müharibəsi məni bu əzabdan qurtardı. Daha o yuxuları görmürəm, kimsə yuxumda "alo" deyə qışqırmır. İndi öz əzablarım, öz yaşantılarım, bu müharibədə gördüklərim yuxumu qarışdırır. Vətən müharibəsi təkcə Qarabağı deyil, məni o qızdan, o səsdən xilas etdi.

2010-cu ilin qışı... Ağdam. İşğal olunmuş kəndlərin qarşısı... Səngər həyatımız davam edir. Burada başını səngərdən qaldırmaq ya hansısa snayperin sinəsinə medal taxmaqdır, səngərdən qırağa çıxmaqsa, ayaqlarını minalar üstündə unutmaq.

Niyə 2010-cu ilin hadisələrindən indi bəhs edirəm - deyə bilərsiniz. Keçmişdə etdiyim qaralamalarıma maraq Vətən müharibəsi zəfərindən sonra maraq oyatdı. Həm də əvvəl bunlara elə də həvəsli deyildim. Çünki məğlub bir ölkənin səngər həyatından bəhs etməyi ya özümə yaraşdırmır, ya da utanırdım. Axı kimə nəyi sübut edəcəkdim? Utanırdım... Məğlub bir ölkənin zabiti kimi xatirələr dərc etməkdən. Eləcə səngər şeirlərimlə ovunurdum. Hə, bu müharibə məni həm şeirlərlə ovunmaqdan, həm də yuxularımdakı qızın səsindən xilas etdi...

***Müşahidə postunda duran əsgər anidən qışqırdı; - "Komandir, erməni". Dərhal müşahidə postuna çıxdım. Postda ermənini görmək sizə nə qədər qəribə gəlsə də, arzuladığın əzizini görməklə müqayisə edə bilərdim. Yox, yox, o ermənini bağrımıza basmaqçün deyil, gülləyə tuş etməkçün.***

Tr-8-lə müşahidə apardıq. Bir əli cibində, birindəsə telefon qulağına söykəyərək hərəkət edir. Hərəkət edir deyirəmsə, gövdədən yuxarını görürük. Özünü o qədər itirib ki, düşmən valının arxasından çıxdığının fərqində deyil. Axı, adam kiminlə belə



danışıb dünyanı unudub öz səngərini tərk edə bilər? Anasımı, sevgilisimi, bacısımı? Onun özündənrazı, tərki dünya olaraq harda olmasını unutması adamın ağlına yalnız sevgilisini gətirə bilir. İnsan onun etdiklərini sevgilisi ilə danışanda edə bilər...

***Bu qədər danışmağıma baxmayın, bu qədər düşüncə bir an ərzində baş verir. Vuraq? Ani olaraq beynimin içindəki düşüncələr mənə imkan vermir? Bəlkə danışdığı adam anasıdır? Və həmin vurulsa... Ya da sevgilisi? Bu elə ən böyük sevgi qətliamı olar. Telefonun qarşısındakı şəxsin o vurulduğu an keçirəcəyi hissləri ağıla gətirmək belə mümkün deyil. Bəs, o əsgərin yerində biz olsaydıq? Danışdığımızsa sevgilimiz, anamızdırsa?***

Bəlkə də, bütün bu düşüncələr bir saniyəlik zaman intervalı olmadan ildırım sürətilə beynimin bir guşəsindən keçir. Amma...

Erməni əsgəri ordadırsa, əminəm ki, bizi görsə, böyük sevinc hissi ilə vurardı. O burdadır ki, o ona görə vurar ki, bir azərbaycanlının vurulması onunçün medaldır, məzuniyyətdir, özgüvən hissidir, gələcəkdə karyerada yüksəlişdir, məclislərdə özünün və qohumlarının bu hadisədən genələgenələ danışması, erməni TV-lərində bolbol öz qəhrəmanlığından danışmaqdır.

Vuraq? Snayper başından nişan aldığını bildirir. Vur!..

***Səngərdə əsgərlərimiz atışdan sonra "ura!" deyə qışqırır, sevinir, sonrasa ani boşluq. Rabitə ilə koordinatı verib məruzə edirik. Atəşkəs dövründə belə atışlar zamanı koordinat məruzə olunur, vurulmanın dəqiq olub-olmadığını gözləyirdik. Bizə lazım olan xəbərin təsdiqlənib-təsdiqlənməməsidir. Bir neçə saat gözləyir, bu hadisənin nə ilə sonuclanacağından səbrsizlənirdik. Amma nə deyilsə də, atışdan sonra onun necə yerə sərildiyinin gözümüzlə şahidi olduq, axı, - deyirəm özüm-özümə.***

Axşama yaxın rabitə ilə xəbər verilir ki, verdiyiniz xəbər təsdiqini tapıb, vurmusunuz. Sevinclər yenidən artır... Qeyd olunası xəbərdir. Həmin gecəni aşağıdan gətirtdiyim yeyib-içməklə qeyd edirik. Bir növ səngərdə bu xəbərə əsl qonaqlıq verirəm. Ölüm xəbərinə sağlıqlar deməklə. Səhv etmirəmsə, Dövlət radiosunun axşam buraxılışıdır. Verilən xəbər sağlıqlarımıza qoşulur. Atəşkəs pozulub, düşmən təxribatının qarşısı alınıb, düşmən hərbi qulluqçusu "..." məhv edilib.

*(Əlbəttə, istəyən şəxslər bu adı, yeri və s. arxiv materialına əsasən əldə edə bilər. Burada bu məlumatı, adı olduğu kimi vermək həm etik, həm də bəzi məsələlərə görə doğru olmadığından hallandırılmır).*

Səngərin bir köşəsinə çəkilirəm. Kimsənin məni görməyəcəyi bir küncünə. Özümdən asılı olmadan ağlayıram. Bütün gecəni. Həm sevinmək, həm də ağlamaq. Axı mən kimə ağlayıram belə? Məni ağladan kimdir, hansı hisslərdir? Kimə ağlayıram belə? Ölən erməniyə, ölən sevgiyə, yoxsa nəyə? Bəlkə elə özümə? İçimdə qopan fırtınaya cavab tapa bilmirəm...

O gündən sonra yuxularımda kimsə, daha doğrusu, bir qız "alo, alo" deyərək qışqırır. Mənsə təngnəfəs, tər içində oyanır, mətbəxə keçir, su içir, bəzən ağlayır, bəzənsə siqaret yandırırdım... 2020-ci ilin sentyabrına kimi... Məni kölgə kimi izləyən o qız, o səs qeybə çəkilib. Artıq öz əzablarımı görürəm, öz əzablarım yuxudan oyadır məni...

...Yenə belə əmr verə, yenə belə edərdimmi? Mütləq ki, bəli. Yenə öldürərdik, yenə bu ölüm xəbərinə qonaqlıq verərdim, yenə də səhərə kimi ağlayardım...

VI

*Səngər şəhidi*

***Tağım komandiri kimi iki kəndin qarşısındakı mövqeləri qorumaq bizim heyətin üzərinə düşür. İki həftədən bir yerdəyişmə olur. Gah bu iki kənddən birinin, gah da o birinin qarşısındakı səngərlərdə oluruq. Hər kəndin qarşısında üç post var. Hər tağıma üç post düşürdü. Bir postda bir tağım komandiri ilə bir manqa, digərində tağım komandirinin müavini(gizir) ilə digər manqa, üçüncü postdasa MAXE-nin başçılığı üçüncü manqa. Bu üç posta postlar başılıçğı dövründə üç kərə erməni vuruldu.***

***Daha doğrusu təsdiqlənən vurulmuş erməni sayı üç oldu.***

Həmişə içimizdə bir qorxu vardı, bunun bir bədəli nə zamansa olacaq...

Təzə tərxis olunmuşdum. Bir neçə gün keçmişdi. Çavuşlarımızdan Məmmədova zəng etdim. Dəfələrlə zəng çatmadı. Zabit yoldaşımız Xantəmirova zəng etdim, Məmmədov şəhid olub cavabıyla qulağım cingildədi...

Bədəl verilmişdi...

Ağdam torpağı bərəkətli və bolsulu idi. Yağışlar vaxtı, qar əriyəndə bütün axıntı səngərə dolurdu. Bəzən səngərdə su dizə çatırdı. Beləcə, nə hərəkət etmək olurdu, nə də yemək təminatı düzəməlli. Çörək də belə havalarda palçıq qarışıq olurdu. Bir növ peç üstündə palçıqlı çörəyi yenidən bişirərək yeyirdik. Ac vaxtlarımızda restoranda yediyimiz çörəkdən daha dadlı idi o palçıq-çörək.

Hə , onu deyirdim, belə havalar, palçıqlı,yağışlı günlər ermənilər üçün ov vaxtı, qisas günləri olurdu. Çünki yağışdan sonra səngərlər, üstü, bermalar dağılır. Bizsə o səngərləri, bermaları yenidən düzəltməyə çalışırdıq. Belədə gülləyə tuş gəlməmək şans məsələsi olurdu. Bununçün gecə vaxtları seçirdik. Həmin dövrün texnoloji vasitələri indiki qədər deyildi, amma hər zaman gecə görmə cihazından istifadə etmələri mümkün idi. Necə ki, bəzən istifadə etmişdilər. Ya da təsadüfi səngər boyu səpələmə atəşə tutmaq.

Çavuş Məmmədov da belə günlərin birində boğazından vurularaq şəhid oldu.

VII

*Ev yıxan şərab çənləri*

Ağdamda sovet dövründə üzümçülüyün hansı formada inkişaf etdiyini bilirsiniz. Mövqelərin qarşısında iki böyük keçmiş çaxır çəni var idi. Hündürlüyü 10 metrdən çox olardı. Gedəndə öyrənmişdim ki, adətən o çənlərin üzərində ermənilər snayper yerləşdirir...

Elə snayper atışları da məhz ordan olurdu çox vaxt.

O çaxır çənləri çox evə od salmışdı...

Bəlkə simvolikdir, şərab müharibəsiz də, mülki həyatda da çox evi yıxıb...

VIII

*Biz qaldırırıq, onlar vurur*

Üzümlük deyilən ərazi vardı. Səngər irəli çəkməklə həmin üzümlük ərazisində mövqemiz ermənilərin bölük dayaq məntəqisinin 26 metliyinə çatmışdı. Gecələr orada "pasinka"lardan müşahidə postu qaldırırdıq. Səhərsə ermənilər oranı qumbaratanlardan atəşə tuturdu. Belə hallar, belə "hərbi oyunlar" dəfələrlə təkrarlanırdı; Biz gecələr qaldırırdıq, onlarsa gündüzlər vururdu...

IX

*Ay piri...*

Gizirimiz, tağım komandirinin müavini Əmirxanovla hərbi münasibətlərdən əlavə səngər dostluğum da vardı. Mənə qısaca olaraq Piri deyirdi. Ya da uzaqdan çağıranda "ay piri" deyə. Bəzən bir-birimizi bərk çağıranda cəmi bir neçə metrlik məsafədə bizim adları yəqin ki, ara-sıra eşidirdilər qarşı tərəfdə...

Üzümlük dediyim ərazidən keçəndə qarşı tərəfdən eşitdiyim səs tüklərimi bizbiz etdi. Ay piri, Ay piri; qışqırırdılar erməni valının arxasından.

**Səngər həyatımdan sonra Piriyev Emin Emin Piri imzasına çevrildi beləcə. Piri adı gizirimizin mənə müariciətindən sonra doğmalaşmışdı. Qarşı tərəfindən səsləməsindən sonrasa "PİRİ" şeirlərimin imzasına çevrildi.**

**Emin Piri**

Aqil ABBAS

# "TƏRTƏR İŞİ" – ƏSL CİNAYƏTKARLAR KİMLƏRDİ

***"Tərtər işi" yenidən gündəmdədi. Neçə ilin sirrinin üstündəki pərdə yavaş-yavaş qaldırılır. Əsgər və zabitlərə işgəncə verən altı hərbçi həbs olunub, biri də axtarışdadı. Onlar əvvəllər də tutulubmuş, 1-2 il yatandan sonra həbsdən azad olunublar. Daha dəqiq desək, həbsdən azad ediliblər.***

***Yaxşı, işgəncə verənlər tutulublar və yaqin cəzalarını alacaqlar. Onlar əmr quludular, əmr ediblər, onlar da hərbçi olduqlarına görə əmrə tabedilər və əmri də şərəfsizcəsinə yerinə yetiriblər. Dünənəcən bir qabda çörək yedikləri, bir səngərdə yatdıqları, bir kəşfiyyata getdikləri yoldaşlarına müsibət yaşadıblar. Və o da məlumdur ki, onlar özlərində kişilik tapıb əmrə etiraz etsəydilər yəqin ki, onlar da "Vətən xaini" kimi döyüləcəkdi, işgəncə görəcəkdi, məhkəməsiz-filansız öldürüləcəkdi.***

***Məsələ nədi? Yaxşı, əmr qullarını cəzalandırdıq. Getdilər yenə 3-4 il yatdılar və yenə çıxdılar ictimaiyyət arasına. Bəs, bu əmri verənlər, işi aparan müstəntiqlər, prokurorlar, məhkəmədə çıxış edən ittihamçı prokurorlar, işə baxan hakimlər? Əsl cinayətkarlar onlardı. Əmr verən generallar, polkovniklərdi, amma onlar azadlıqdadı. Hələ ki onlara qaşın altda çıxarılması gözün var deyən yoxdur.***

***Ulu Öndər Heydər Əliyevin tarixə həkk olunmuş bir kəlamı var: "Qoy ədalət zəfər çalsın!"***

***Ədalət onda zəfər çalacaq ki, əmr qulları ilə bərabər əmri verənlər, yuxarıda qeyd etdiyim kimi, generallar, polkovniklər hakim qarşısında dayanacaq. Özü də vaxtilə "Tərtər işi"ni sifarişlə aparan hakimlərin yox, əsl hakimlərin qarşısında.***

***Heç kim iddia edə bilməz ki, orduda xəyanət olmayıb. Söhbət əsl xəyanətkarları tapmaqdan gedir.***

***"Nərmin işi" iki ildir davam edirsə, görün indi başlanan "Tərtər işi" neçə il çəkəcək?***

# Qəlbindən baxan insan



**Musiqiçilər də şairlər kimi Tanrının istedad bəxş etdikləri bəndələrdəndirlər. Musiqini dinləyəndə feyziyab olur, ondan estetik zövq alırsan. Peşəkar, sanballı, yatımlı musiqi adama çox şeylər yaşadır, qəlbini riqqətə gətirir. Dünyanın, təbiətin necə qurulması, meydana gəlməsi barəsində istər-istəməz düşünürsən. Əsl musiqi insanın ömrünü uzadır, qəlbində xoşniyyətli ovqat yaradır.Musiqi ifaçıları təkcə ifaları ilə yox, həm də sifət cizgiləri ilə, mimikalarıyla bizlərə çox şey aşılaya bilirlər. Çünki onlar musiqini təkcə barmaqları, səsləriylə ifa etmirlər. Onlar içəridə, qəlblərinin dərinliyində yaşadıqlarını musiqinin dili ilə çatdırmağı bacarmaq qabiliyyətinə malikdirlər.**

Bənzərsiz bir sənət beşiyi olan Qarabağın torpağı, havası, suyu da musiqidən yoğrulub. Burada hər şey musiqi ilə nəfəs alır. Qarabağa Tanrı əsrarəngiz gözəlliklə bərabər, musiqi çələngi bəxş edib. Və odur ki, qarabağlılar həmişə, hər yerdə musiqi ifa edir, dinləyir, ondan əvəzsiz zövq alırlar. Qarabağda məhşur musiqiçilərin doğulması, yetişməsi heç də təsadüfi deyil. Çünki bu torpaq özü şeir, sənət, musiqi beşiyidir. Haqqında söz açdığım musiqiçi də məhz belə bir torpağın yetirməsidir.

Şirinova Minayə Əhliman qızı 1979-cu il fevralın 3-də Laçın rayonunun Mayes kəndində dünyaya gəlib. O, hələ uşaq ikən musiqi həvəskarı olan atası evdə həmişə qara zurnada musiqi nömrələri ifa edərmiş. Bu həvəs qızı Minayəyə də sirayət edib. Minayə əvvəllər tütəkdə çalarmış. Sonra, 10 yaşında qara zurnada ifa etməyə başlayıb və o vaxtdan bu qədim musiqi aləti ilə müntəzəm təmasda olur. Necə deyərlər, onlar bir-birindən ayrılmırlar. O, bu alətdə təkcə mahnı ifa etmir, nəfəsi ilə musiqinin qayəsini, varlığını dinləyiciyə çatdırır. Minayənin ifası olduqca fərdi və özünəməxsusdur. O, nəfəsiylə səhnədə ifa etdiklərini, olduğu kimi yaşayır. Düşünən beyni və vuran ürəyindən keçirdiyi bu musiqini ətrafdakılara da yaşatmağı bacarır.

...Hələ ana bətnində olarkən aldığı ağır zədə nəticəsində doğulandan bəri onun gözləri görmür. Amma bu amil həyatda öz yerini tutmaqda, sözünü deməkdə ona mane ola bilmir. Minayədə həyat, yaşam eşqi o qədər güclü və tükənməzdir ki, o, ürəyi ilə hər şeyi görür, qavrayır. Hətta çox zaman bizim görə bilmədiklərimizi ürəyi ona göstərir. Psixoloji baxımdan çətin olsa da, ona bir sual verdim. İçəridən məni sıxan, deməyə çəkindiyim bir sualı dilə gətirdim. Nəfəsi barmaqların birbaşa köməyi ilə musiqiyə çevirib, ifa etməyin nə qədər məqsədyönlü və məntiqli olduğunu soruşdum. Minayənin cavabı da, hardasa qəlbimin dərinliyində gözlədiyim kimi oldu:

**- Mən fiziki məhdudiyyətli olsam da, başqa tərəfdən bəxtim gətirib. Təvazökarlıqdan uzaq olsa da, bildirim ki, Tanrı məni çox sevir. O, mənə böyük, görən ürək verib. İstedadı əsirgəməyib. Ürəyimin istedad, dərketmə, görmə qabiliyyəti və tutumu çox böyükdür. Mən gözlərimin görə bilməməsi ağrısını, Qarabağ dərdini, köçkünlük həyatının məşəqqətlərini doğma torpaqdan ayrı, didərgin düşmək zülümünü görən ürəyimlə, nəfəsimlə barmaqlarıma ötürürəm. Sağ olsunlar barmaqlarımı, onlar da mənim içəridə keçirdiyim, yaşadığım fikir və duyğuları sözsüz anlayırlar. İnanın, istədiyimi musiqinin dili ilə insanlara çatdırmağı bacarırlar. Nəticədə quru nəfəs sözlü, tutumlu, mənalı, fikiryüklü musiqiyə çevrilir. Düşündürən, yaşam eşqi yaradan bir musiqiyə.**

Minayə Şirinova fiziki məhdudiyyəti olan şəxslərin yarışmalarında müxtəlif illərdə 8 diploma layiq görülüb. Dövlət tədbirlərində yaxından iştirakına görə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Laçın rayon İcra Hakimiyyəti tərəfindən 5 dəfə Fəxri fərmanla təltif olunub. 2013-cü ildə ATV televiziya kanalının təşkil etdiyi "Tanıdım səni-2" layihəsində qalib gələrək "Fiat-Lineya" avtomobili ilə mükafatlandırılıb. Minayə onu da xüsusi ilə bildirdi ki, 2017-ci ildə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Fəxri Mədəniyyət işçisi" adı alması və döş nişanı ilə təltif edilməsi onu çox sevindirdi. Bunu onun əməyinə verilən yüksək qiymət kimi qəbul edir.

Tütək, balaban, qarmonda ifa etməyi bacaran Minayə, zərb alətlərindən olan nağara çalmağı da yaxşı bacarır. Heç bir musiqi təhsili olmayan və qara zurnada ifaçılığı atasından öyrənən, 10 yaşından artıq toy və mərasimlərdə, səhnələrdə ürəkləri fəth edən, qəlbinin səsini musiqinin diliylə ətrafdakılara, dinləyicilərə çatdıran Minayə zarafatla deyir ki, "qara" günlərim qara zurna ilə təmasda olmağa başladığım andan mənimlədir. Artıq bu musiqi aləti ilə o qədər doğmalaşmışıq ki, həyatımın bir anını belə onsuz təsəvvür edə bilmirəm. Qara zurna mənim dərd sirdaşımdır.

"Sarı gəlin", "Qaragözlü dilbərim", "Naxçıvan yallısı", "Cəngi" mahnılarını qara zurnada məharətlə ifa edən Minayənin öz sənət yolu, musiqiyə fərqli baxışı mövcuddur. O, çalışır ki, ifa etdiyi mahnılarda öz ifa tərzi olsun. Minayə qürurlu, məğrur, dəliqanlı "Cəngi"ni xüsusi zövq və ahənglə ifa edir. Onun ifa zamanı "Cəngi"yə gətirdiyi improvizasiya və keçidlər "Cəngi"yə yeni bir rəng qatır, onu daha təsirli, yatımlı, yanıqlı edir. Keçmişdə "Cəngi"nin sədaları altında qəhrəman Azərbaycan oğulları savaşa, döyüşə gedərlərmiş. "Cəngi" əsgər himni imiş. "Cəngi" sözü qədim türkcə savaş mənasını verir. Həyatın özü də axı elə savaş, mübarizə deməkdir. Yaşamaq, maneələri dəf edərək zamanla, səni əhatə edən düşmənlə mübarizə aparmalı,savaşmalı olursan...

...Qara zurnada özünəməxsus ifa tərzi ilə seçilən, xalqını ürəkdən sevən bu vətənpərvər insanla sağollaşıb, ayrıldıq. Və bir daha inandım ki, Minayə yaxın zamanda Laçına, o doğma yerlərə qayıdacaq və onun ifasında "Cəngi"nin sədaları Qarabağın dağlarına yayılacaq, sularına qovuşacaq, artıq bu torpaq ayrılığına son qoyulacaqdır.

**Minayə deyir ki, o yerlərə getməyə çox tələsirəm. Bu yaxınlarda Laçınla bağlı videoverilişdən eşitdiklərim ürəyimi parça-parça elədi. Doğma torpağa qovuşmağım qəlbimin yaralarına məlhəm olacaqdır...**

**Adil MİSİRLİ**

## *Heydər Əliyev Mərkəzində Emin Piri ilə görüş keçirilib*



**Sumqayıt şəhəri Heydər Əliyev Mərkəzində Xidmət Sahələri üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzinin və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə tanınmış şair, müəllim, Vətən müharibəsi iştirakçısı, prezident təqaüdçüsü Emin Pirinin iştirakı ilə "Vətən Sevgisinin Qələbəsi" adlı konfrans keçirilib.**

Xidmət Sahələri üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi, Asan Xidmət Mərkəzi, Heydər Əliyev Mərkəzi və İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) Peşə Təhsil Mərkəzinın əməkdaşları, könüllüləri, tələbə və valideyn heyəti üçün fərqli və önəmli görüş təşkil edilib.

Əvvəlcə Şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə Xidmət Sahələri üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzinin direktoru Gülşən Ömərova açıb. Şairi və qonaqları salamlayaraq, dəvəti qəbul edib görüşdə iştirak etdikləri üçün təşəkkürlərini bildiriblər. Sonra mərkəzin "Kompyuter operatoru" ixtisası üzrə təhsil alan tələbələrinin Emin Piri haqqında hazırladığı video təqdimat nümayiş olunub.

Görüşdə tanınmış şair, müəllim, Vətən müharibəsi iştirakçısı, prezident təqaüdçüsü Emin Piri və digər hörmətli qonaqlar -Sumqayıt şəhər İcra Hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər üzrə müdir müavini Fərman Kazımov ,Azərbaycan Yazıçılar Birliyinin Sumqayıt bölməsinin sədri Gülnarə Cəmaləddin, Sumqayıt şəhər Poeziya Evinin rəhbəri İbrahim İlyaslı,Veteranlar Şurasının sədri Sovet Şükürov,Sumqayıt şəhər Yeni Azərbaycan Partiyasının nümayəndəsi Ramil Ferecov ,Sumqayıt Qızıl Aypara Cəmiyyətinin sədri Mətanət Məhərrəmova,Gənclərin İnkişafı və Karyera Mərkəzinin rəhbəri Sevinc Qasımova, Mərkəzin tarix müəllimi Akif Kazımov və şair, jurnalist Namiq Dəlidağ ilə Azərbaycançılıq, vətənpərvərlik, dövlətçilik, VƏTƏN müharibəsi, xalqın vahidliyi, müəllimlikdən səngərə gedən yol, ZƏFƏRLƏ qazanılan mənəvi dəyərlər, Azərbaycanın beynəlxalq arenada müsbət imici haqqında danışılıb. Görüşdə Xidmət Sahələri üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzinin tələbləri şairin şeirlərindən ibarət kompozisiya təqdim ediblər.

**Tədbir zamanı gənc şair öz şeirlərini səsləndirib, gənclərin suallarını cavablandırıb, tədbir diskusiya şəklində davam edib.**

**Adalet.az**

# "Xroniki xəstələrin heç birinə koronavirus əleyhinə vaksin olunmamalıdır"

*Ən yaxşı həkim ən çox dərmanın faydasız olduğunu deyən həkimdir...*

**(Benjamin Franklin)**

*Adalat.az saytının budəfəki müsahibi həkim - endokrinoloq Aygün Məmmədovadır. Beləliklə biz bu dəfə tibbi mövzuda söhbətləşdik.*

**- Aygün həkim! Həkimlik fəaliyyətiniz barədə oxucularımıza məlumat verməyinizi istərdik!**

- Mən 36 ildir ki, Tibb Universitetini bitirmişəm. Həkim - terapevt - uroloq - androloq kimi çalışıram. Hal - hazırdı Bakı şəhərində Ultramed klinikasında fəaliyyət göstərirəm. Eyni zamanda müqavilə əsasında Türkiyədə Özəl Fatih xəstəxanasında çalışıram.

**- İstərdim ki, ilk olaraq xalq arasında Şəkər xəstəliyi kimi tanınan Şəkərli diabet haqqında danışaq. Bu xəstəlik əsasən insanın hansı orqanlarına mənfi təsir göstərir?**

- Şəkərli dieabet mədəaltı vəzi xəstəliyidir. Mədəaltı vəzin zədələnməsi, parazitlərlə və mikroblarla bağlıdır. Bunun nəticəsində bütün damarların kirəcləşməsi çoxalır. Orqanizmdə xolesterinin miqdarı artır. Qanda laxtalanmalar olur. Beləliklə bədənin aşağı ətraflarına, prostata mənfi təsir edir. Qan dövranının sirkuliyasiyasını pozur. Bildiyiniz kimi bu şəxslərdə şəkər yüksək olur.

**- Bir çox həkimlərin fikrincə koronavirus şəkərli diabet xəstələri üçün daha təhlükəlidir. Bəs Şəkərli diabet xəstələrini ümumən ağırlaşma hallarından necə qorumaq olar?**

- Bəli doğrudur. Koronavirus tək şəkərli diabetli xəstələri yox bütün xəstəlikləri, gizli gedən xəstəlikləri üzə çıxarır. Məsələn böyrəklə bağlı müalicə alan xəstlərə, prostatla bağlı problemi olanlara və şəkər xəstələrinə çox tez təsir edir. Biz koronavirusun şəkər xəstələrinə daha ağır təsir etməməsi üçün mütləq qanı durulaşdırmaq üçün dərmanlar təyin edirik. Omeqa və bu kimi tərkibli bitkisəl dərmanları məsləhət görürük. Həm də bunlar qida tərkibli dərmanlar olduğu üçün xəstələrimizə bu dərmanları daimi qəbul etməyi uyğun bilirik. Çünki bu dərmanların yan təsirləri demək olar ki, yoxdur. Şəkərli xəstələrin ömrüləri nə qədərdisə ömür boyu gün ərzində novamin və omeqa qəbul etməklə xəstəliklərin ağırlaşmasının qarşısını ala bilərlər.

**- Ümumiyyətlə Şəkər xəstələri COVID-19 vaksini vurdura bilərmi?**

- Xroniki xəstələrin heç birinə koronavirus əleyhinə vaksin olunmamalıdır. Hətta orqanizmdə gedən gizli xəstəliklər - məsələn mədə qastritləri olanlar, prostatitlər, böyrək xəstəlikləri olanlar , qan laxtalanması olan xəstələr ( hansılar ki, hər gün kardiomaqni qəbul edənlər ) diabetli xəstələr qətiyyən vaksinlənə bilməz. Məlumdur ki, bu vaksin zamanı diri virus orqanizmə daxil olur və immunitet yaranır. Beləliklə vaksinləşmə orqanizmlərdə zədələnən orqanları iki dəfə artıq zədələyir. Belə xəstələrdən vaksin olunanların hamısı şikayət edir ki, vaksindən sonra təzyiqim düşmür. Beləliklə bu xəstələr risk qrupu sayılır. Həm şəkər xəstələri həm böyrək problemi olanlar həm də prostat xəstəliyindən əziyyət çəkənlər vaksindən sonra narahatlıqlarını bildirirlər.

**- Mümkünsə əhali arasında zob kimi tanınan xəstəliyin yaranmasının əsas səbəblərindən danışaq...**



- Çox gözəl sualdı. Zob kimi tanınan xəstəliyin yaranma səbəbləri, xüsusilə orqanizmlərdə olan virusların, mikrobların qalxanabənzər vəzin üzərində olması nəticəsində meydana gəlir. Adətən xroniki xəstələrdə, immun sistemləri zəif olanlarda bu daha çox müşahidə olunur. Nəticədə qalxanabənzər vəzin funksiyası zəifləyir. Hipotiryoz və hipertiryoz . Birincisi yəni - qalxanabənzər vəzin funksiyası zəifləyir. Orqanizmdə yod çatışmazlığı başlayır. İkincisi - hipertiryoz isə - orqanizmdə normadan artıq yodun ifraz olunmasıdır. Bəzən düyünlü zob da adlanır. Nəticədə xəstələr tez arıqlayır, əsəbi, yuxusuz olurlar. Daha sonra başağrıları və iştahsızlıqlar da müşahidə olunur. Buna xalq arasında "Zəhərli zob" da deyilir. Lakin bu xəstəliklərin müalicəsi mümkündür və biz bunu edirik. Bu xəstəliklərdə - hipertiryoz və hipotiryoz zamanı birində kəskin arıqlama digərində isə kökəlmə baş verir. Hipotiryozda kökəlmə müşahidə olunur və xəstələr şikayətlənirlər ki, biz bəzən

**- Sizin fikirinizcə Şəkər xəstəliyinin hər il daha çox artmasına səbəbləri nədir? Nədən yaranır?**

- Bu xəstəliyin yaranma səbəbi qalxanabənzər vəzlər bərabər mədəaltı vəzin zədələnməsidir. Bu da əsasən parazitlər və mikroblarlardan yaranır. Əsasən bu xəstəliyin güclənməsinə qeyri - normal qidalanma səbəb olur. Adətən digər xroniki xəstəliyi olanlar şəkərli diabetə daha tez yoluxa bilirlər. Bundan əlavə bədənin suya olan tələbatı normal ödənilməlidir. Bu xəstələr üçün su içmək çox önəmlidi. Bəzi adamlar su içməyə az meyilli olur. Hər on kilo üçün dörd yüz qram su mütləqdir.

**- Adətən Şəkər xəstəliyi dedikdə ağılımıza yaşlı insanlar gəlsə də, bu xəstəlikdən əziyyət çəkən gənclər və hətta uşaqlar da var. Həmin uşaqların valideynlərinə məsləhətləriniz nələrdir?**

- Tamamilə doğrudur ki, bizdə təsəvvür yaranıb ki, şəkər xəstəliyi yalnız yaşlılarda olur. Lakin son illərdə gənclərdə və hətta uşaqlarda da bu xəstəliklərə rast gəlinir. Təxminən 30 il öncə bir çox valideynlər, övladlarına, kolbasa və ya hisə verilmiş qida məhsulları qəti qadağan edirdilər. Daha sağlıqlı məhsullarla qidalanan əvvəlki nəsillər təbii ki, daha sağlam olurdu. Günümüzdə fasfudtipli qidalar, dönər və bu kimi ayaqüstü yeyəcəklər sağlıq üçün təhlükəlidir. Ən azından ətin 100 dərəcə müsbət tempraturda 2 saat bişməli olduğunu unutmamalıyıq. Lakin fasfudların heç birində buna əməl olunmur. Nəticədə də uşaqların mədəaltı vəzlərinə qurd yol tapır. Beləliklə də bu kimi amillər şəkər xəstəliyinə şərait yaradır.

**- Aygün həkim! Müsahibəmizin sonuna yaxınlaşırıq və sizə sonuncu sualımı vermək istərdim. Son dövrlər insanların cinsi sağlıqları ilə də bağlı problemlərinin çoxaldığını eşidirik. Sizə müraciətlər içərisində cinsi zəiflik və bu kimi problemlərlə üz tutanlar çoxdurmu? Ümumiyyətlə bu barədə də fikirlərinizi lütfən bizimlə bölüşün.**

- Əlbəttə cinsi zəifliklə bağlı müraciətlər də az deyil. Hətta elə olur ki, gün ərzində 80 - 90 nəfərdən zəng gəlir mənə. Adətən 30 - 32 yaşlarında olan oğlanlar cinsi fəallığının zəifləməsindən və ya sperma faizinin aşağı olmasından şikayətlənirlər. Bu gün gənc oğlanlarda cinsi zəifliklər prostat problemlərindən xəbər verir. Bunun bir çox səbəbləri var. Buna görə də evlənən gənclərin əksəriyyətində övladın olmaması problemləri ortaya çıxır. Lakin 30 il öncə tam əksinə idi. Ona görə də hər bir kəs il ərzində ümumi həkim müayinəsindən keçməlidir. Bəzən elə xəstələr olur ki, cinsi həvəsin olmaması ilə müraciət edir. Lakin müayinə vaxtı məlum olur ki, həmin şəxsin daha ciddi cinsi problemləri də var imiş. "Obiron" müayinə aparatı vasitəsi ilə bütün gənc oğlanlara il ərzində bir dəfə də olsa müayinə olunmalarını tövsiyyə edirəm. Çünki vaxtında müayinələr daha sonrakı mərhələlərdə baş verə biləcək fəsadların qarşısını almağa kömək edir.

**- Aygün həkim maraqlı müsahibə üçün sizə təşəkkür edirəm. Uğurlarınız bol olsun.**

- Mən də sizə və Ədalət qəzetinə və sizin saytınıza uğurlar arzu edirəm.

**Söhbətləşdi:**
**Bünyamin Bünyadzadə**



Əbülfət MƏDƏTOĞLU

# Vaxt qohumluğu

## Ağacəfər Həsənlinin bir şeirinin izi ilə

*Hər günün öz ovqatı var. Doğrudu, deyirlər ki, ovqatı gərək özün yaradasan, özün-özünü kökləyəsən, hazırlayasan və bu dünyanın da bir damarını gərək boş buraxasan. Yəni, duyumla dərk etməklə yanaşı içində iynə ucu boyda da olsa, etinasızlıq, laqeydsizlik saxlamalısan. Bax, bu saxladığın "yatırım" sənin bu dünya ilə dil tapmağa, ovqat yaratmağa köməkçin olur. Və beləcə özün bu həyatın axarında bacardığın kimi üzürsən. Hətta bəzən saman çöpü də ümid kimi görünür sənə. Olsun...*

*Bəli, söz adamının ovqatı onun sözündə ehtiva olunur. Hər yaranan, doğulan, dünyaya gələn kağıza köçüb oxunan söylənib yaddaşa hopan yazının, fikrin, misranın ünvanı və bir də yarandığı məqam, zaman qaçılmaz gerçəklikdir. Bir az da sadə şəkildə ifadə etsəm, söz doğulduğu yerdə, məqamda, əhval-ruhiyyədə özünü ifadə edir. Bax, bu anlamda şair sözü, həm də o şeirin doğulduğu məqamda şairin hansı ovqatda olduğu da oxucuya çatdırır. Çünki burda söhbət həm sözü təqdim etməkdən, həm də vaxtdan, məkandan gedir...*

*Bugünlərdə yenidən vərəqlədim "İlğım"ı. Bir də gözdən keçirib ovqatımı o "ilğım" dünyasına tarazladım. Və gördüm ki, Vaxt hər şeyin hakimidi. Elə bir hakimdir ki, o, həm də səni olduğun kimi, kameraya çəkirmiş kimi gətirib qoyur göz qarşısına və deyir ki:*

*Vaxt gözləmədən*
*şığıyır üstümə,*
*yalnız təqvimin son günü*
*atəşkəsi pozur - dayanır.*
*İlayrıcında hesabat istəyir.*

*Təbii ki, bu vaxtın həm haqqıdı, həm də hökmü. Necə deyərlər, yaşamışıqsa, o vaxtı özümüzünküləşdirmişiksə və yaxud onu öldürmüşüksə... Deməli, hər bir halda hesabat verilməlidi. Təbii ki, hesabat da vaxtın adından olmalıdı. Axı biz ömrümüzü vaxtın hissəcikləri içərisində pardaxlandırırıq. Ona görə də:*

*Sızlayır az qala saçımın dəni*
*Elə bil bükülüb ağrı balınca...*
*Hər yerə ayağım çəkirdi məni -*
*İndi sürüyürəm onu dalımca...*

*Bəli, əvvəldə dediyim kimi, biz vaxtın içərisində həm görünürük, həm də əriyib gedirik və bunu da etiraf etmək, sözün yaxşı mənasında hünər istəyir. Bax elə o hünər sahiblərindən olan şair heç bir tərəddüd etmədən yenə vaxtla üz-üzə dayanıb onun hesabatını dinləyir və:*

*Və yenə sakitcə yüyürür -*
*nə beli ağrayır, nə ayağı.*
*Ancaq üzünə tər gəlir,*
*nəfəs dərir adamsayağı.*

*Yəqin ki, fikir verdiniz və şahidi oldunuz ki, vaxtın həm yozumu, həm də təqdimatı insanın öz varlığının, cisminin, ruhunun fonunda təqdim ediləndə gerçəkliyin özü kimi sübutsuz bir şəkildə anlayışla qarşılanır. Və o anlayışın mahiyyəti elə vaxtın özündədi. Axı, şair demişkən, alnına tər gələn vaxt yaşanmış vaxtdı. Canımızdan, qanımızdan, köynəyimizdən keçirtdiyimiz vaxtdı. Ona görə də bizə doğmadı. Biz o doğmalığın içində öz-özümüzə pıçıldayırmış kimi deyirik:*

*Gözləyən, arayan yoxdu - bu bəlli*
*Xəyal da nalını itirib yolda...*
*Bircə şəkillərdi...sözsüz təsəlli -*
*O da asılıbdı bu kirpik kolda...*

*Deməli, vaxt anlayışının içərisində nə olursa, nə yaşanırsa, o həm də vaxtın öz arxivində, öz yaddaşında qalır. Bu mənada bizim xatirələrimiz də izlərimiz kimi, hərəkətlərimiz kimi, bir toplunun içərisində həmin o vaxtın yaddaş arxivinə verilir. Hansısa bir təsirdən, hansısa bir qıcıqdan və yaxud da vaxtın elə özünün yaratdığı ovqatdan asılı olaraq biz hərdən əlimizi həmin o vaxt arxivinə uzadırıq. Adətən, arxivlər, daha doğrusu arxivdəki sənədlər toz içərisində olur, toz basır onları. Şükürlər ki, vaxtın arxivi o toz qorxusundan, basqısından ibarətdi. Ona görə də əlimizi ora uzadanda biz istədiyimiz anda həmin o axtardığımızı götürüb vərəqləyə bilirik. Çünki vaxtın özü kimi xasiyyəti də fərqlidi. Ona görə də şair deyir ki:*

*Qəribə xasiyyəti var -*
*hamını aparır...*
*Heç kəs onu apara bilmir.*
*Hara gedir?*
*Hansı anbarda yığılıb qalır?*
*Niyə qayıtmır?*

*Hə, gördünüzmü, mənim söylədiyim elə şairin dediyi ilə üst-üstə düşdü. Sadəcə, şair həm də bir məqamı qabardır. O məqam da vaxtın özünün harda qərar tutmasıdı, harda arxivləşməsidi. Onu hər kəs bir cürə yoza bilər. Hətta ona maddiləşdirmək də olar. Lakin vaxtın ölçüsü hər kəsin baxış bucağından asılıdır. Ona görə də o maddiləşən vaxtın ölçüsü də hər kəsin öz arşınına uyğun olacaqdı. Və biz görəcəyik ki, vaxtın içərisində:*

*Kədər də yorulub, dili bir qarış -*
*Çıxıbdı ağzından - nəfəsi çatmır...*
*Mənim içimdəki sonuncu yarış -*
*Sonuncu görüşə həvəsim çatmır...*

*Bax belə, bu da zamanın, yənin vaxtın öz diktəsidi. Və mənim əvvəlki şeirə üz tutub dediyim gerçəklik burda da özünü təsdiqləyir. Aydın olur ki, vaxtın nəfəsi də kəsilə bilir, həvəsi də tükənə bilir. Bu o zaman baş verir ki, vaxtı canından, qanından keçirən kədərə, həsrətə, ən vacibi isə diqqətsizliyə tuş gəlir. Bu da sonuncu nəfəsə çevrilir, həmin o vaxtın içərisində. Sonra isə vaxt:*

*Hamının qılıbına girməyi bacarır.*
*Heç kəsə vermir açarı,*
*heç kəs bilmir dilini.*
*Qoparıb əlindən alsın*
*ayını, gününü, ilini...*

*Vaxt başını aşağı salıb*
*işini görür...*

*İndi aydınlaşdımı, vaxtın nəyə qadir, nəyə sahib olduğu? Onun gücünü hiss etdinizmi? Düşünürəm ki, şairin vaxtın boyuna ölçdüyü, biçdiyi və bizə təqdim etdiyi bütün görünüşü məhz o gücü göstərmək üçün imiş... Biz də bu gerçəkliyin qarşısında istər-istəməz öz etirafımızı edirik. Və həmin etiraf da bu cür səslənir:*

*Bu çöküş dəvənin diz qatlaması,*
*Filin məzarlığa üz tutmasıdı...*
*Bir aşiq ürəyin bu çatlaması -*
*Bir qızın sevgini unutmasıdı...*

*Bax belə, mən dəyərli şairimiz Ağacəfər Həsənlinin "Vaxt" şeirinin izi ilə yola çıxdım və yol boyu da o şeirin məndə yaratdığı assosiasiyanın özümün "Dəvə çöküşü" ilə paralelləşdirdim. Çünki hər iki şeirin bir-birinə söykənən nöqtəsi, bir-birini təsdiqləyən məqamı, ən vacibi isə Vaxt Qohumluğu göz önündə idi. Ona görə də mən də bir az qohumbazlıq edib, elə yazının da adını Vaxt Qohumluğu qoydum...*



Əlövsət Bəşirli

# Qanla suvarılan ağac

## Povestdən son fəsil

*"Azadlıq ağacı qanla suvarılmasa, çiçək açıb bar verməz"*

**Sen Jüst,**
**Fransa inqilabının məşhur xadimi**

Elgünəş ölkədə böyük əks-səda doğuran, yuxarıları narazı salan silsilə məqalələrlə bağlı yekun sözünü deməyə tələsmədi. Bu mövzuda redaksiyaya gələn oxucu məktublarını dərc etdirsə də, sonu gözləməyə üstünlük verdi. Həmişə olduğu kimi, mənimlə dərdləşib ürəyini açdı: "Görək axırı nə olur? Yuxarıda qaldırdığımız məsələlər necə həll edilir".

O, adəti üzrə səbrlə, təmkinini pozmadan yuxarıdan cavab gözləyir, bu barədə oxuculara məlumat verməyi məqsədəuyğun sayırdı. Mərkəz isə susurdu. Elə bil qurbağa gölünə daş atmışdılar.

Nəhayət, baş redaktor özü zəng etdi, lakin qaneedici cavab almadı. Bir qədər gözlədikdən sonra silsilə yazılara yekun vuran sözünü dedi, çox tutarlı publisistik məqalə yazdı.

Məqalə sadə, səlis, oxunaqlı dildə, eyni zamanda çox sərt, kəskin publisistik üslubda qələmə alınmışdı. Mənim qənaətimə görə yalnız Elgünəş kimi böyük ürək, dərin bilik, dəmir iradə sahibi, elinə, torpağına bağlı, vətənini bütöv, xalqını azad görmək istəyən əsl insan - vətəndaş bu çox cəsarətli addımı ata bilərdi. Zamanın irəli sürdüyü suallara o, cavab verə bilərdi: "Biz hara gedirik? Bu yol bizi hara aparır? Zülmətə bürünən məşum gecədə sovet silahlı qüvvələrinin xalqın başına gətirdiyi müsibət ibrət dərsi olmadımı? "Azadlıq ağacı qanla suvarılmasa, çiçək açıb bar verməz" deyə əliyalın kütləni qırğına verənlərin heç burnu da qanamadı.

Onların azadlıq mübarizlərini meydanda ölüm püskürən tanklarla üzbəüz qoyub birdən-birə yoxa çıxmaları nə tez unuduldu? Zamanın sərt sınağında xalqa xəyanət edənlərə hakimiyyəti etibar etmək olarmı? Bu suallara xalq özü cavab verməli, seçkilərdə sözünü deyib, seçimini etməlidir! İqtidara ancaq seçki yolu ilə gəlmək olar. Od içində yanan cəbhədən arxaya gətirilən hərbi qüvvələrlə, hədə-qorxu, zor və terrorla yox! Diz çökdürülən xalq ayağa qalxmalı, öz sözünü deməli, seçimini etməlidir!"

Xülasəsi xarici radiostansiyaların efirində səslənən bu qeyri-adi məqalə ölkənin siyasi ab-havasına ciddi təsir göstərdi. Sanki tünd qara rəngli pərdəni qaldırdılar. Ölkənin özü boyda səhnəsi göründü. Pərdə arxasında gizlənənlər bu qeyri-adi səhnədə tamaşaçılarla üzbəüz qaldılar. Onların ciddi-cəhdlə xalqdan gizli saxlamağa çalışdıqları sirlər faş oldu.

"Dünya səhnədir, insanlar aktyor" kəlamı istər-istəməz yadıma düşdü. Ancaq bu başqa səhnə idi, aktyorları da, tamaşaçıları da bambaşqa!...

***

Telefonun cingiltili səsinə oyandım. "Gecənin bu vaxtı Allah xeyir eləsin". - Dürdanə yarıyuxulu, həyəcanlı halda deyindi. O biri otaqda uşaqlar mışıl-mışıl yatırdılar. Adətən gecənin vaxtsız zənglərindən qanqaraldan hədələr eşitsəm də, elə-belə təsəlli üçün "xeyir olar, inşallah" deyib dəstəyi götürdüm.

- Bəli, - uşaqlar oyanmasınlar deyə astadan dilləndim. Hay-küylü, cingiltili, içkili kişi səsi qulağıma qurğuşun kimi doldu:

- Bəlün şirin, bal, şəkər, a qardaş!

Səs mənə tanış gəlsə də, kim olduğunu kəsdirə bilmədim.

- Bağışlayın, tanıya bilmədim...

- Tanıya bilməzsən də, gör aradan neçə illər keçib. Maşallah, sən vəzifə çarxında fırlanmısan ha... mən də ki, köhnə hamam, köhnə tas, yəni köhnə kitabxanaçı. Yadına düşür o günlər, qəbul imtahanları? Maşallah, sən o qədər bal yığdın ki, siyahıya adın birinci yazıldı. Mən də ağsaq qatır kimi o söz. Xəbər göndərdim dədəmə ki, balım çatmır. Ayə, dünyanın işinə bax, nə təmiz ürəkli, sadəlövh adamlar olub ey. Rəhmətlik dədəmi deyirəm. Bir də gördüm kişi çıynində xurcun girdi dağlıq məhəllədəki kirayə daxmama. Xurcunun gözlərində qablarda bal. Dedi ki, eşitmişəm. balın çatmır. Darıxma, kaş elə dərdimiz bal olsun. Tapşırmışam, dalını qardaşın gətirəcək. Bilirsən də xasiyyətimi, üstünü vurmadım. O il ay bal yedim ha! Özümü də keçirtdilər balı aşağı olanlar cərgəsinə - kitabxanaçılıq fakültəsinə.

- Hə, yadıma düşdü. Ay səni, İbad maşallah olsun, səsin elə həmin səsdir. Üzünü görməsəm də...

- Üzümü görməsən yaxşıdır, qardaş!

- Niyə?

Qəhqəhə çəkib güldü. Telefonda olsa da hiss edirdim ki, əməlli-başlı içkilidir.

- Ay sənin məzən olsun. Niyəsi budur ki, o üz qaldı tələbəlikdə. Keçən vaxtdan bəri o qədər üzlər görüb ki, olub badoş...

- Başa düşmədim, üzünü niyə padoşa oxşadırsan?

- Ayə, tələbəlikdən tanımırsan, məni? Dilimə o zəhrimardan dəydimi, nə bilirəm deyirəm. Bu ticarətə qurşanandan həqiqətən üzüm çox üzlər görüb.

- Ticarətə, bəs kitabxana?

- Eh, kitabxana qaldı dağılmış sovetin zamanında! Sağlığına, o ucu-bucağı görünməyən yekə kitabxananı eləmişəm ticarət mərkəzi. Əlim çatan o biri kitabxanaları çevirmişəm mərkəzin filiallarına. İndi, oğul deyərəm, saysın, baş açsın mənim obyektlərimdən.

- Maşallah, İbad, onda yaxşı qazanırsan.

- Qazanmağına qazanıram. Amma xərcim də az deyil. Özün də yaxşı bilirsən. Deyir, kasıbın işi dövlətlinin pulunu hesablamaqdır. Sizin də işiniz, peşəniz belə şeylərdən yazmaqdır. Ay sağolmuş, heç xərcsiz obyekt saxlamaq olar? Vaxtlıvaxtında haqqını verməlisən. Hərənin də öz payı var, aşağının aşağı, yuxarının yuxarı. Canla-başla qulluqlarında dururam, xüsusən yuxarıların. Bilirsən də tələbəlikdən belə olmuşam, ara düzəltmişəm, əlim böyüklərin ətəyində olub. İndi də beləyəm, xeyrini də görürəm. Onlar da mənə inanırlar ha: çünki sınaqdan çıxarıblar. Nə demişəm, yoxlayıb görüblər ki, dübbədüzdür. İndi oturub-durduqlarım ki, var, yeri gələndə yanımda söz gizlətmirlər. Bayaq yeyib-içirdik, doğrusu, bir xəbər eşitdim, bərk dilxor oldum. Ağızlarından elə söz qaçırtdılar ki, başım hərləndi. Fikirləşdim özümü evə çatdırıb sənə xəbər verim. Sonra gec olar.

- O nə xəbərdir, elə?

Telefonun o başına sükut çökdü. Sonra:

- Vallah, heç bilmirəm necə deyim, çaşıb qalmışam, - deyə ağır yük qaldırmış kimi təngnəfəs cavab verdi.

Onun xasiyyətinə tələbəlikdən bələd idim. Eşitdiyini yerinə çatdırmasa, bağrı çatlardı. İçki dilinə dəydimi, hey çərənləyər, sirr saydıqlarını da açıb tökərdi. Sonra peşiman olardı: "Ayə? içib nə qələtdir elədim". Ən yaxın dostları deyərdilər ki, İbadın özündən düzüb qoşmağı da var, xüsusən içəndə.

Elə bu vaxt telefonun dəstəyindən məni mat-məəttəl qoyan sözlər eşitdim. Sanki İbad fikirlərimi uzaq məsafədən duyub and-aman eləyirdi:

- Ayə, Fəxri, Tanrım haqqı özümdən düzüb qoşmuram, olanı deyirəm. Olan da budur ki, sənin o baş redaktorunun başında iş var. Hesab elə ki, kəfəndə gəzir...

- Düzü, yaxşı başa düşmədim, çatmadı mənə.

- Baş redaktoruna deyərsən, başa düşər, - İbad açıq-aşkar istehzalı səslə arxayın-arxayın fısıldadı, - olmasa baxtından küssün. Elə sənin də başını sığallamayacaqlar. Felyetonlar yazıb o cür kişilərin hərəsinə bir ad uydurursan. Nə bilim, tənbəl ayı, tayfabaz qurd, hiyləgər tülkü, yaltaq, qanmaz çaqqal.

Söhbətini hay-küylü zarafatla başlayan İbadın axırda lovğa, yekəxana tonda danışmağı mənə toxundu:

- Hərə öz işilə məşğul olsa yaxşıdır, - dedim, - sən də get, baqqallığını elə. Daha ortaya düşüb onun-bunun yanında quyruq bulama.

Vaxtsız zəng eləyib məni təbdən çıxaran İbad aldığı "zərbədən" özünə gəlməmiş dəstəyi hirslə yerinə qoydum.

Soyuq tər alnımda puçurlandı. Bayaqdan narahat halda başımın üstünü kəsdirən Dürdanə əl-ayağa düşdü. Dərhal nitroqlitserini ağzıma qoydu. Çox keçmədi ki, özümə gəlib toxtadım. Dürdanə nəm dəsmalla alnımın, üz-gözümün tərini silib, əllərini nəvazişlə saçlarımda gəzdirdi.

* * *

Əsəblərim sakitləşsin deyə otaqda gəzişirdim. Dürdanə həmişəki kimi təsəlli verirdi. Artıq səhərə az qalırdı. Yatağıma girib çimir eləmək istəsəm də, yuxum gəlmirdi.

Telefonda eşitdiklərim təkrar-təkrar qulaqlarımda səslənir, sinirlərimi yerindən oynadır, tarıma çəkirdi. Fikir məni götürmüşdü.

Söz gəzdirmək, ortada quyruq bulamaq, zarafata salıb qan qaraltmaq İbadın köhnə şakəri idi. Hələ tələbəlikdə dayısının xüsusi xidmət orqanında işləməsindən açıq-aşkar qürrələnir, sui-istifadə edir, buna görə ondan çəkinən tələbə yoldaşlarına, hətta müəllimlərinə məhəl qoymayıb burnunu hara gəldi soxurdu. Ancaq indi, neçə illər sonra məni yuxudan oyadıb əvvəlki kimi zarafat eləsə də, axırda sərt danışmışdı. Bu da aydın idi. Bilərəkdən hay-küylü söhbətinin axırında "xəbərdarlığına" məhəl qoymamağım onun kefinə soğan doğramışdı. İndi Allah bilir dediklərimə nələr uyduracaq, yuxarıları qızışdıracaq. Elgünəşlə məndən hayıfını alacaqdı. Və bu o demək idi ki, bizə, ailəmizə, uşaqlarımıza, məsləkdaşlarımıza hədələr, mənəvi təzyiqlər davam edəcəkdi.

Ertəsi gün səhər Elgünəşlə bu barədə danışdım. O, adəti üzrə diqqətlə qulaq asıb:

- Fərqi yoxdur, - dedi, - tələbə yoldaşın olsun, yaxud başqası. Belələri yuxarının göstərişini yerinə yetirirlər. Bunun da kökü, mayası hədədir. İstər guya ərkyana deyilsin, istərsə də ciddi, fərq eləməz, hədə hədədir. Özü də elə-belə yox, adamı hər yanda, hər yerdə kölgə kimi izləyən mənəvi təqib.

Elgünəş sözünə ara verib susdu. Sonra nəyi xatırladısa, dərindən ah çəkdi:

- Yadıma alim dostum düşdü. Rəhmətlik dedikcə işıqlı adam, əsl ziyalı idi. Bu da o zaman partiya məmurlarının xoşuna gəlmirdi. Ona mənəvi əzab verirdilər, gözümçıxdıya salır, hər yanda izləyir, təqib edirdilər. Mənə dönə-dönə deyirdi ki, ən ağır cəza mənəvi təqibdir. Bu ona bənzəyir ki, edama məhkum edilmiş adamı dar ağacının altına gətirir, boynuna kəndir dolayır, beləcə saxlayırlar. Sonra kəndiri açıb deyirlər ki, edam təxirə salınır. Bu dəhşətli hal o qədər təkrar olunur ki, məhkumun ürəyi dözmür. Evə xəbər göndərirlər ki, öz əcəli ilə öldü.

Ona zənnlə baxdım:

- Belə çıxır ki, biz ən ağır cəza çəkirik. Zahirdə azad, əslində məhkum.

Elgünəş sınayıcı nəzərlərlə mənə baxdı.

- Bəs nə bilmişdin? - deyə acı təbəssümlə soruşdu. Sonra mərhum alim dostunun kəlamını yada saldı - "Əgər mənəviyyat pozulmuşdursa, hər şey pozulacaqdır. Dəniz infarkt keçirəndə suyunu sahilə çırpır, torpaq infarkt keçirəndə zəlzələ olur, insan infarkt keçirəndə ən böyük zərbə ürəyə dəyir". O, dərindən köks ötürüb:

- Hayıf ondan, - deyə təəssüfləndi, - gözəl alim, nəcib insan, əsl dost idi. Mən əsəblərimizi tarıma çəkən ağır söhbətə yüngüllük gətirmək üçün ərkyana dedim:

- Bəlkə məni də o dostların cərgəsinə qoşasan? Elgünəş dərin fikirlər içində mənalı-mənalı gülümsündü:

- Sən çoxdan qoşulmusan. Müdriklərin məşhur sözü var. Dost öz əqidə dostuna deyir: "Yaxşı ki, sən varsan". Evdə söhbət düşəndə deyirlər, yaxşı ki, Fəxri kimi dostun var.

Ürəkdən gələn sözlərdən təsirləndim. Çiyinlərimə çökən ağırlığı çəkməyə şərik axtarırmış kimi:

- Heç Şahini demirsən, cavan da olsa, bütöv adamdır, - dedim. Elgünəş razılıqla başını tərpətdi:

- Əlbəttə, onun da öz yeri var. Başqa oğuldur Şahin, - dedi, - heç bilirsən o bizim ailəmizi, uşaqlarımızı yad gözlərdən, təhlükədən necə qoruyur?

Maraq məni götürdü. İstər-istəməz təəccübümü gizlədə bilməyib soruşdum:

- Necə?

- Kişi kimi! - Elgünəş qətiyyətlə cavab verdi. - Şahin cəbhə yoldaşlarını başına yığıb özəl mühafizə dəstəsi yaradıb. Əl-ələ verib firmaları, obyektləri mühafizə edirlər. Evimizi, ailəmizi, balalarımızı da onlar qoruyurlar. Nə əcəb eşitməmisən? Gecə-gündüz keşiyimizi çəkirlər. Görmürsən neçə vaxtdır, evimizin ətrafinda, blokun qabağında, maşınımızın yanında özgə adam gözə dəymir?!

Ani sükutdan sonra təəssüflə dilləndi:

- Ancaq bir şey mənə möhkəm yer eləyir. Belə çıxır ki, bizi özümüzünkülərdən qoruyurlar.

- Başqa çarə yoxdur, - dedim.

- Biz nə günah eləmişik, axı! Sözün düzünü demişik, həqiqəti yazmışıq.

- Elə buna görə hədələnirik, təqib olunuruq...

- Bəs ailəmizin, uşaqlarımızın nə təqsiri var? O gün Mərkəzə yaxın olan bir nəfər mənə guya ürəyi yanırmış kimi "vəziyyət çox gərgindir, - dedi, - adam özündən çox balalarının, nəvələrinin fikrini çəkir".

- Evə gəlib, kiçik nəvəmi o ki var oynatdım. Zalım oğlu boynuma minib düşmədi. Mən də döşəmənin üstündə dördayaq yeridim. Nənəsi kövrəldi, şükür etdi ki, Allah bu möcüzəni bizə bəxş eləyib. Nəvə nə şirin olurmuş, İlahi... İnşallah başına gələr, baba olarsan, görərsən...

- Allah ağzından eşitsin, - dedim, - o vaxta hələ çox var.

- O vaxt belə hərc-mərclik olmaz yəqin. Nəvə-nəticələrimiz biz çəkən ağrı-acıları görməzlər. Dövran dəyişər, hər şey yaxşı olar, inşallah.

- Mən də belə düşünürəm, - dedim. Və... birdən sinəmdə nəsə qırıldı elə bil. Başımı üstümdə saxlaya bilmədim, ağırlaşdı, gözlərimə tor gəldi, qulaqlarımda uğultu qopdu. Elgünəş sanki məndən uzaqlaşdı, onun səsi lap quyunun dibindən gəlirdi:

- Fəxri, sənə nə oldu?

... Və bu dünyanın zülməti, zilləti yox oldu. Canım qurtuldu, ruhum quş kimi uçub bəyaz ənginliyə qovuşdu...

İlahi, qüdrətinə qurban olum, hər yan sənin nuruna bələnib. Əsrarəngiz sonsuzluğun əlçatmaz, ünyetməz zirvəsindən, qeybdən ruhumu ərşə çəkən səs gəlir, ulularımın səsi. Mən onların davamıyam, Haqqın dərgahına gəlmişəm.

...Çırpınıb yerimdən qalxmaq istədim. Ağrıdan tərpənə bilmədim. Nəfəsim təngidi. Arxası üstə gözlərim tavana zillənmiş halda uzana qaldım. Birdən başımın üstündə üzümə zillənən bir cüt göz gördüm. Ürəyimin dərinliyinə nüfuz edən, qəmgin, üzgün, nəmli gözlər. Ömür sirdaşımın, ağrılı-acılı günlərimdə həmişə mənə dayaq olan Dürdanənin gözləri.

- Mən haradayam... Ağrıdan tərpənə bilmirəm.

O, zərif, şümşad barmaqlarını qoşalayıb dodaqlarıma yapışdırdı. Sonra həmişəki kimi ürəyimi gözlərimdən oxuyub mənə təsəlli verdi:

- Həkim dedi ki, qorxulu bir şey yoxdur. İnşallah sağalacaqsan. Gözləri doldu. Başını yana çevirib nəmli gözlərini sildi. Sonra özünü ələ alıb gülümsədi:

- Sənə şad xəbər deyim: Aygül zəng eləmişdi, Dəmir qəhrəman olub. Şahinlə Aylanın toyu olacaq.

O, dodaqlarını qulağıma yaxınlaşdırıb pıçıldadı:

- Əhd eləmişəm, sən sağalıb evimizə gələn kimi Zəhranı nişanlayaq. Dürdanənin müjdə dolu sözlərindən özümü quş kimi hiss etdim. Uçmağa qanadım olmadı. Mənə elə gəldi ki, sapsağlamam.

Elə bu vaxt açıq pəncərədən qələm dostumun sözlərinə bəstələnmiş mahnının ürəyi riqqətə gətirən təranələri otağa doldu:

***Göylərimiz qaralıbdı,***
***Günəşimiz saralıbdı,***
***Qarabağı sar alıbdı,***
***Dərd bürüyüb solu, sağı,***
***Tanrı, qurtar bu sınağı!***

***Qalx, qalx, ulu Torpaq!***
***Qalx, qalx, ulu Bayraq!***
***Qalx, qalx, sən ey mərd Xalq!***
***Yer titrəsin məhvərindən!***

...Mahnıya qulaq asdıqca, mənə elə gəlirdi ki, ümmanın nəhrində tufan qopurdu. Dalğalar şahə qalxırdı. "Qalx, qalx, ulu Torpaq!" harayından ürəyim sinəmə sığmırdı. Bütün varlığım coşqun təranələrin qanadlarında havalanır, qartal kimi qıy vurub səmanın ənginliyinə millənirdi. Buradan Qarabağın gül-çiçəkli düzləri, zirvəsi buludlarla öpüşən qarlı dağları, Şuşanın buz bulaqları aydın görünürdü...

"Bu Cənnət məkanı bizimdir, həmişə bizim olub, bizim də olacaq həmişə".

**"Azərbaycan" jurnalı 2009, № 10**

# "Kişilər ölmür"

## Şair-publisist, Prezident təqaüdçüsü Səməndər Məmmədovun yei çapdan çıxmış kitabı belə adlanır

**Kitab qədər insanın qəlbinə, ürəyinə işıq, nur gətirən ikinci bir varlıq tanımıram. Çünki kitab deyəndə gözümüzün önünə "Qurani-Kərim" gəlir. İndi siz təsəvvür edin, bu kitab nə qədər müqəddəsdirsə, əzizdirsə, digər kitablar da heç olmasa onun səviyyəsinə çatmasa da, ən azından insanlara elm, mədəniyyət, sevgi, məhəbbət və ilahi bir nur aşılamalıdır. Əgər bu varsa, demək o kitabı oxumağa dəyər.**

Şair-publisist, Prezident təqaüdçüsü Səməndər Məmmədov 10-dan çox şeir, publisist yazı və oçerklərdən ibarət kitabların müəllifidi. Hər kitab da öz dəsti-xətti ilə, üslubu ilə və ən nəhayət, xalqımızın adət-ənənələrinə yaxınlığı ilə seçilir. Çünki Səməndər müəllim öz nurunu, işığını və qeyri-adi nə varsa, hamısını xalq yaradıcılığından, bayatılardan, qoşmalardan, gəraylardan, təcnislərdən... götürüb və bəhrələnib.

Kitab xalq şairi və böyük mütəfəkkir Zəlimxan Yaqubun Səməndər müəllimə ünvanladığı məktubla açılır. Həmin yazını bir daha oxucuların diqqətinə təqdim eləyirik: "Təhsilimizin, maarifimizin, şeirimizin, sazımızın, sözümüzün Səməndəri, pərvanəsi qardaşım Səməndər! Sən mənim elimin çox mərifətli oğlusan. Çox böyük ürək sahibi olan gözəl bir insansan. Saçından dırnağına qədər şeirsən, şeiriyyətsən, sazsan, qara zurnasan, Faxralısan, Borçalısan, Azərbaycan təbiətisən, türk dünyasısan. Sənin haqqında hər şey demək olar. Mən müəllim ailəsində doğulduğum üçün bilirəm ki, məktəb Məkkədir, müəllim Peyğəmbərdir, qələm Allahın danışan dilidir, kitab Qurandır, mütaliə Allah işığıdır. Müəllim elm ilə doludur. Allah hərəyə bir qismət verib. Ən böyük qisməti, ən böyük hüququ müəllimə verib. Müəllim həyalı, ismətli, abırlı, əl qabarı ilə, alın təri ilə, gözünün nurunu kitablarda kor eləyə-eləyə, elm oxuya-




oxuya, elm öyrənə-öyrənə, elm öyrədə-öyrədə milləti tərbiyə eləyən ilahi bir varlıqdır. Onun ailəsi sazın telləri kimi nizam olmalıdır. Orda bircə tel kökdən düşdüsə, hava çalınmayacaq. O sazın doqquz telinin doqquzu da nizam olmalıdır ki, istədiyin vaxt istənilən havanı çala biləsən. Mənim Səməndərim həmişə belə nizam kökdə olsun. Mənim Səməndərim qoy məclislərin yaraşığı olsun, könlümüzə layla çalsın, ruhumuza layla çalsın". Bax, Səməndər müəllim də böyük xalq şairinin arzularını zaman-zaman yaşadır və milli kökə, dəyərlərimizə söykənərək gələcək nəsil üçün gözəl kitablar qələmə alır.

Bu kitabda o, respublikamızın görkəmli ictimai-siyasi xadimləri, elm, sənət adamları, qabaqcıl təhsil işçiləri haqqında yazdığı oçerkləri, şeirləri toplayıb. Təbii ki, hər yazıda onun xalq ruhuna yaxın olan dili, üslubu, təhkiyəsi kitabı çox asanlıqla oxumağa imkan verir.

Azərbaycanın bir çox tanınmış ziyalıları haqqında qələmə aldığı oçerklər və eyni zamanda Borçalı mahalının, Faxralı elinin sayılıb-seçilən şəxsiyyətləri barəsində hazırladığı unikal yazılar sözün həqiqi mənasında oxucuların qəlbinə yol tapır. Tanınmış yazıçı-jurnalist, "Əməkdar mədəniyyət işçisi" Məmməd Məmmədov haqqında, eləcə də şair-publisist Qələndər Xaçınçaylı barəsində yazdığı oçerklər sözün həqiqi mənasında bal kimi şirindi, yaddaqalandı və unudulmazdı. Həm Məmməd müəllimin, həm də Qələndərin görünməyən tərəflərini oxucuya çatdıran Səməndər Məmmədli çox böyük savab iş görüb.

Ümumiyyətlə, ziyalıları yada salmaq, xatırlamaq özü bir böyüklükdür. Bu mənada kitabda toplanmış "Millət sevgisi", "Bilər", "Ana", "Borçalı", "Ocaq", "Faxralı", "Söz fatehi Zəlimxan", "Ay Həmzə qağa", "Öpürəm a dağlar, öpürəm sizi", "Mürsəl əmi", "Dost", "Ədaləti var", "Nur saçacaqlar"... yazıları birnəfəsə oxunur. Adam o oçerkləri oxuyanda elə özünü o insanların yanında hiss edir. Başqa sözlə demiş olsaq, o böyük ziyalıların, o böyük şəxsiyyətlərin ətrini, qoxusunu duyur və hiss edir...

Səməndər müəllimin hansı yazısını oxusan orda sözün nəfəs alıb verdiyini, canlı olduğunu, çırpındığını və ən nəhayət, gün işığı kimi sənin qəlbinə və içinə nur saçdığını hiss edirsən.

Kitabı vərəqlədikcə "Nəsiminin oğul balası", "Oxu, Xəlil", "Yalvarıram, gəl keç bizim məhlədən", "Sən yanımda olanda", "Kimdi könlündə, könlündə", "Gəl eşqimin sonası", "Faxralının qara gözlü qızları", "Ay qağa", "Zirvə", "Son zəng", "Günayım", "Suyun çar olsun, ay bulaq", "Faxralının toponomik bayatıları", "Tapındığım nurlar"... yazıları da adamın qəlbinə bir sığal çəkir, özü nuru, rişəsi ilə bir daha iç dünyamıza bir sevgi, bir məhəbbət gətirir...

**Düşünürəm ki, Səməndər Məmmədov hansı mövzuda yazı qələmə alırsa, orda mütləq onun qəlbinin, ürəyinin atəşi var. Və bütün yazılarında da o qəlbinin, ürəyinin, atəşini və sevgisini insanlarla bölüşür. Elə bilirsiniz sevgini hər adam insanlara paylaya bilər? Bunun üçün çox böyük ürək və qəlb lazımdı. Bu ürək və qəlb də Səməndər müəllimin köksündə həmişə döyünür. Bir daha yəqin edirik ki, "Kişilər ölmür" kitabı oxucular tərəfindən maraqla qarşılanacaq, səməndərsevənlər onu axıra qədər oxuyacaqlar. Çünki hər yazıda, hər publisistikada və hər oçerkdə bir insan qəlbinin sevgisi, məhəbbəti və işığı var. Biz də həmişə işığı, sevgini və məhəbbəti qorumuşuq və qoruyuruq!..**

**Faiq QİSMƏTOĞLU**

## Türklər niyə andı "içir"?



**Nə qədər ki, insan var, yalan da, and içmək də onun varlığı qədər yaşayacaq. Hər xalqın özünə məxsus and içməyi var. Bəs, türklərin bu andı hardan gəlir?**

**Yaxud bir and niyə içmək deyəsən? Sosial şəbəkədə Hikmət Həsənovun bu barədə maraqlı şərhi yer alıb. Onu sizə təqdim edirəm:**

**Türkiyə türkləri "yemin etmek", Azərbaycan türkləri isə "and içmək", "and içdim" deyirlər. Göründüyü kimi sözün təribində içmək sözü var. Bir çoxları düşünə bilər ki, bu adi söz birləşməsidir. Amma bu and içmək sözünün çox qədim bir tarixi var. Qədimdə türklər aralarında bir məsələ ilə bağlı ayin həyata keçirəndə ovuclarını qılıncla kəsərək, çıxan qanı süd ilə qarışdırırdılar. Bu, inək, at və dəvə südü ola bilərdi. Qan ilə qarışdırılan süd tərəflər arasında içilirdi.**

**Bu ayinlərdə qardaşlıq süd ilə möhkəmləndirilirdi. Qan və südlə dolu kasa and adlanırdı. And içən insanları "anda" adlandırırdılar.**

**"Anda"lar verdikləri andı poza bilməzdilər. Andını pozan şəxs şərəfini itirmiş sayılırdı. Qədim türklərin inancı belə idi.**

**Emin Piri**

Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 15 (2289) 23 aprel 2022-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# "ERMƏNİSTAN BİZİM PLANLARIMIZI ƏNGƏLLƏYƏ BİLMƏZ"

(əvvəli ötən sayımızda)

**Dövlət büdcəsi profisitlə icra olunur. Vergi orqanları bu ilin 3 ayında proqnozdan əlavə 500 milyon manatdan çox və gömrük orqanları 200 milyon manatdan çox vergi toplamışlar.**

Bütün nailiyyətlər Azərbaycanın daxili gücünün hesabına əldə olunub. Heç kimdən bir manat dəstək almamışıq. Azad edilmiş torpaqları da yüz faiz daxili imkanlar hesabına bərpa olunur. Xarici şirkətlər yalnız podratçı kimi işləyir. Bizə heç kim heç bir yardım göstərmir, nə işğal dövründə, nə də sonra.

Müharibədən sonra işğaldan azad olunmuş ərazilərdə bastırılmış minalardan 200-dən çox insan həlak olub və ya ağır yaralanıb. Dünyada bu məsələ ilə məşğul olan o qədər fondlar var, QHT-lər var. Gəlsinlər, kömək göstərsinlər. Maşın, mexanizmlər və texnika alınıb, hətta dronlar alınıb ki, o minalarla çirklənmiş yerləri təsbit edir. Ancaq mütəxəssis çatışmır, işçi qüvvə çatışmır.

Qarabağ və Zəngəzur nümunəvi bölgə kimi inkişaf olunacaq. Azərbaycan vətəndaşları orada rahat, firavan yaşayacaqlar. Dünya üçün də bu inkişaf bir nümunə olacaq.

Avropa İttifaqı Azərbaycana 2 milyardlıq paket elan edib. Bu müsbət haldır. Ancaq elə layihələr var ki, o layihələri Azərbaycan borc götürmədən icra edə bilər. Azərbaycanda 10 min kvadratkilometr ərazidə bir salamat bina yoxdur. Ona görə bu amil mütləq nəzərə alınmalıdır.

İndi dünyada proseslər mənfi istiqamətdə gedir. Toqquşmalar, müharibələr alovlanır və gələcəkdə sabitliyin təmin edilməsi ilə bağlı müxtəlif fikirlər var. Dünyada ərzaq qıtlığı ola bilər. Hazırda dünyada ərzaq məhsullarının qiymətləri kəskin artır. Bu proses bir neçə ay bundan əvvəl başlamışdır. Əlbəttə ki, Rusiya-Ukrayna müharibəsi bunu daha da sürətləndirib, xüsusilə nəzərə alsaq ki, Rusiya və Ukrayna dünyada aparıcı taxıl ixracatçıları arasındadırlar və digər ərzaq məhsullarını dünya bazarlarına ixrac edirlər. İndi artıq təbii qıtlıq hiss olunur və hiss olunacaq. Bu səbəbdən ərzaqlıq buğda ilə təminatımızdiqqət mərkəzində olmalıdır. Azad edilmiş torpaqlarda əkin işlərinin daha da genişmiqyaslı aparılması üçün göstərişlər verilib.

Azərbaycanda ümumi taxıl istehsalı ölkə tələbatının 60 faizini təşkil edir, ərzaqlıq buğda ilə isə özümüzü cəmi 25 faiz təmin edirik.Sahibkarlara məqsədyönlü kreditlər, güzəştli kreditlər verilməlidir ki, məhz bu sahə inkişaf etsin. Çünki buğda əsas ərzaq məhsuludur. Azad edilmiş torpaqlarda indi böyük əkin işləri aparılır. Təxirəsalınmaz tədbirlər nəticəsində ikinci dəfə əkin aparılır və bu il 50 min hektarda əkin aparılacaq.

Şəhid ailələri, müharibə əlilləri üçün inşa edilmiş evlərin, mənzillərin sayı artır. Bu, həm işğal dövründə prioritet məsələlərdən biri idi və İkinci Qarabağ müharibəsindən sonra bu məsələlər öz həllini tapır. Burada məsələ qoyulmuşdur ki, şəhid ailələrinin - həm Birinci Qarabağ müharibəsinin, həm İkinci Qarabağ müharibəsinin şəhid ailələrinin, müharibə əlillərinin yaşayış məsələləri tezliklə öz həllini tapsın. Bu istiqamətdə bu il və keçən il önəmli addımlar atılmışdır.

Ağdam və Füzuli şəhərlərinin Baş planları təsdiqlənib və Baş planlar əsasında işlərə start verilib. Digər şəhərlərin Baş planlarının təsdiqlənməsi bu yaxınlarda öz həllini tapmalıdır. Şuşa, Cəbrayıl, Kəlbəcər, Zəngilan, Qubadlı şəhərlərinin, Hadrut və Suqovuşan qəsəbələrinin Baş planları hazırlanmalıdır, bu il təsdiq edilməlidir və ondan sonra bizim Qarabağ və Şərqi Zəngəzura aid olan investisiya proqramında əlavələr edilməlidir. Burada 2,2 milyard manat vəsait nəzərdə tutulur. Amma birinci rübdə cəmi 300 milyon manatdan bir qədər çox vəsait istifadə olundu. Minalardan təmizlənmə prosesini sürətləndirmək üçün bu il dövlət büdcəsində 100 milyon manata yaxın vəsait nəzərdə tutulub və buprioritet məsələdir.



Azad edilmiş ərazilərdə bu il elektrik təchizatı ilə bağlı işlər davam etdiriləcək. Azad edilmiş torpaqlarda keçən il 20 meqavat gücündə 4 Su Elektrik Stansiyası inşa edilmişdir. İkisi Suqovuşanda, biri Laçın rayonunun Güləbird kəndində, biri isə Kəlbəcər rayonunda Lev çayı üzərində. Cari ildə il beş stansiya "Azərenerji" tərəfindən bərpa ediləcək və bu stansiyaların gücü 27 meqavata bərabər olacaq.

Hazırda xüsusilə, Kəlbəcər, Laçın rayonlarında külək elektrik stansiyalarının tikintisi ilə bağlı xarici şirkətlər müraciət edirlər.Əgər xarici şirkətlər üçün bu, maraqlıdırsa, deməli, burada mənfəət olacaq. Yerli şirkətləri də cəlb etməliyik, ya xarici şirkətlərlə birlikdə, ya da ki, ayrı-ayrılıqda. Cəbrayıl, Zəngilan rayonlarında Günəş Elektrik stansiyalarının potensialı həddindən artıq böyükdür.

Keçən il azad edilmiş torpaqlarda 9 elektrik yarımstansiyası inşa edilmişdir. Bu, çox böyük göstəricidir. Eyni zamanda, ən çətin relyefə malik olan Daşkəsəndən, Kəlbəcər dağlarından da elektrik xətləri çəkildi - Daşkəsəndən Kəlbəcərə. Orada dağların hündürlüyü 3500 metrdir, ağır, çətin şəraitdə, qış aylarında bu layihələr icra olunub.

Elektrik stansiyalar ilə bağlı perspektiv planlar barədə,bu il "Xudafərin" və "Qız qalası" Su Elektrik stansiyalarının tikintisi ilə bağlı işlər sürətləndirilməlidir. İran İslam Respublikası ilə danışıqlar aparılır və tezliklə burada da razılıq əldə olunacaqdır. Çünki bu stansiyaların potensialı çox böyükdür - 240 meqavat gücündədir və bu stansiyalar inşa ediləndən sonra bunun yarısı bizə çatacaq. "BP" şirkəti ilə Cəbrayılda Günəş Elektrik Stansiyasının tikintisi üzrə danışıqlar gedir.

Təkcə azad edilmiş torpaqlarda bərpa olunan stansiyaların 9 min meqavatdan çox potensialı var.Azərbaycan dünyanın aparıcı xarici şirkətlərindən çoxlu təkliflər alır. Nəzərə alsaq ki, bizim qonşu ölkələrlə elektrik xətləri mövcuddur və ixrac imkanlarımız genişlənir və keçən il elektrik enerjisinin ixracatı 2020-ci ilə nisbətdə daha da artıb. Burada həm ölkə üzrə, həm Xəzər dənizini nəzərə almaq şərti ilə çox unikal bir potensial var. Zəngilandan İran üzərindən Naxçıvana və oradan yenə də İranın enerji sisteminə və Türkiyəyə elektrik xətlərin çəkilişi də gündəlikdə duran məsələlərdəndir.

İranla Azərbaycan arasında körpülərin, dəmir yolu körpülərinin tikintisi ilə bağlı memorandum imzalanmışdır. Eyni zamanda, o memorandumda elektrik xətlərinin çəkilişi ilə bağlı müddəa var. Azərbaycan ərazisində görüləcək işlərlə bağlı bu il konkret təkliflər verilməlidir. Cəbrayıl yarımstansiyasından Zəngilana qədər xətlərin çəkilməsi və İran İslam Respublikası ilə son razılaşmaya gələndən sonra artıq İran üzərindən bu xətt gedə bilər.

Zəngəzur dəhlizi açılmalıdır. Zəngəzur üzərindən həm dəmir yolu, həm avtomobil yolu məsələsi ilə bağlı aprelin 6-da Brüsseldə geniş fikir mübadiləsi aparılmışdır. İran üzərindən yolun Naxçıvana çəkilməsi və oradan dünya bazarlarına çıxarılması layihəsi də artıq hazırlanır. Nəqliyyat infrastrukturu ilə bağlı olan bütün planlarımız vaxtlı-vaxtında yerinə yetirildi. 100 kilometr uzunluğu olan Horadiz-Ağbənd dəmir yolunun 60 kilometri artıq hazırdır.

10 noyabr Bəyannaməsində açıq-aşkar yazılıb ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqə olmalıdır və bu, Ermənistanın öhdəliyidir.Ermənistan bizim planlarımızı əngəlləyə bilməz. Əgər Zəngəzur üzərindən bizə keçid verməsə, özü itirəcək və birinci növbədə, 10 noyabr Bəyannaməsini pozmuş olacaq. Əgər o, öz öhdəliyini yerinə yetirmək istəmirsə, onda biz də hər hansı bir öhdəliyin yerinə yetirilməsi ilə bağlı heç bir məsuliyyət daşımayacağıq.

Bərdə-Ağdam dəmir yolunun inşası davam edir. Gələn il bu yol istifadəyə veriləcəkdir. Bununla paralel olaraq, Ağdamda və Füzulidə dəmir yolları, vağzalları da inşa edilməlidir.

**Zəngilan Beynəlxalq Hava Limanı bu il istifadəyə verilməlidir. Azad edilmiş torpaqlarda Füzulidən sonra ikinci beynəlxalq hava limanı olacaq. Laçın Beynəlxalq Hava Limanının inşası2024-cü ilə planlaşdırılır. Orada işlərin həcmi çox böyükdür, həm dağlar partladılmalıdır, həm ərazi düzəlmədir.**

**Hazırladı:**
**Mehriban Cəfərova**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



Barat Vüsal

## ŞAİR ÇİNARI

*Bu odu-ocağı, bu baxça-bağı,*
*Mindir yaraşığa, min yaşa çinar!*
*Nə vaxtsa qeyd etsən min illiyini,*
*Çağırsan gələrəm mən yaşa, çinar!*

*Söz yox vüqarına, gözəlliyinə,*
*Gözümü kol-kosdan çəkdimmi, çəkdim.*
*Mən səni əkəndə əvvəl dibinə*
*Öz alın tərimi tökdümmü, tökdüm.*

*Bir gün deyirəm ki, gəlsin elə gün,*
*Bayramın başlasın görüm sənin də.*
*Nəvə-nəticəmi başına topla,*
*Üstünə kölgə sal kötücəmin də,*
*Üstünə kölgə sal yadicəmin də,*
*Üstünə kölgə sal iticəmin də!*

*Ovçu əl saxlayır ovu qaçanda,*
*Sığınsa altına deyir, çinarın.*
*Görsünlər boş yere əkməmişəmmiş,*
*Ova pənah olub şair çinarı,*
*Ziyarətgah olub şair çinarı!*

*Odur bax, ürəyim-nəzrim başında,*
*Səni min arzuyla bil, əkmişəm mən.*
*Gəlsinlər, görsünlər Ərzin başından,*
*Ocaq əkmişəm mən, pir əkmişəm mən?!*

*Görüncə biləcək arif adamlar,*
*Mənsiz kimi şeymiş sənsiz qapım da.*
*Başqası əkəndə meyvə ağacı,*
*Tanrım, çinar əkdim mən öz qapımda!*

*Kəsməkdən ötəri şərin köksünü,*
*Mənim axtardığım xeyirsən, çinar.*
*Bəlkə də deyirəm indiyənəcən*
*Yazdığım ən gözəl şeirsən, çinar!*

*Böyütdüm qayğını mən necə çəkib,*
*Səni adam sanır, adam baxanda.*
*Görsünlər boynu hardan baxanda,*
*Görsünlər boyumu hardan baxanda!*

*Bəlkə elə bir iş öhd etmişəm ki,*
*Bir də olmayacaq belə imkanım.*
*Yalvarıb Allaha, əhd etmişəm ki,*
*Sənə də beş min il yaş versin, canım!*

*Vüqarla obaya, elə bax, onda,*
*Allaha çox şükür, səni əkmişəm.*
*Çinar əkməmişəm belə baxanda,*
*Sənə də, mənə də ömür əkmişəm.*

*Kim bilir, bəlkə də sənin eşqinə,*
*Nə vaxtsa qəbrimdən ölüb çıxaram.*
*Kölgəndə mənə də yer saxlayarsan,*
*Birdən demək olmaz, gəlib çıxaram!?*

## SÖZ QƏBRİ

*Günüm günmü olar, mənimmi olar,*
*Bir iş tutub onu aldırammasam.*
*Ana, qəbrin üstə şeir oxuyub,*
*Səni məzarından qaldırammasam!*

*Uzaq da, yaxın da şahiddi buna,*
*Şair oğlun ilə öyündüyünə.*
*Vallah, inanıram, inanıram mən,*
*Hələ ürəyinin döyündüyünə!*

*Asanca hədəfi nişana alar,*
*Olanda kamana ox, uyğun ana!*
*Səni hansı sözlə oyatmaq olar,*
*Sənə hansı şeri oxuyum, ana?!*

*Dur ana, qoy sənə kömək eyləyim,*
*Qoy səni basdırım öz qəbrində*
*Bəlkə bu yatdığın yad qəbiridir,*
*Nə vaxt yatacaqsan öz qəbirində?!*

*Özüm də bilmirəm indiyənəcən,*
*Günüm necə keçib anamsız mənim.*
*Məni qurban olum, düzlərdə qoyma,*
*Söz anam, öz anam, anam söz mənim!*

*Ana, bir misra da deyə bilmərəm,*
*Ürəklə deməmiş, başla deməmiş.*
*Başlaya bilmərəm şeir oxumağa,*
*Sən budur, bax, qalxdım, başla!-deməmiş!*

## ÖLÜMSÜZLÜK SİRRİ

**Şəhid məzarları üzərində yellənən bayraqları görərkən**

*Deyir Yurdun Ozanı,*
*Öpüb Tanrı yazanı.*
*Şəhid bir ad qazanib,*
*O ad qoymayır ölsün.*

*Çoxdu şəhidi anan,*
*Bir yandan biz, bir yandan,*
*Yuyat yerində yanan*
*Çıraq qoymayır ölsün.*

*Ruhu necə bax, ucur,*
*Qanad çalaraq uçur.*
*Şəhidi torpaq qucur,*
*Bayraq qoymayır ölsün.*

*Barat igiddən yazır,*
*Ağrı çəkibən yazır.*
*Qələm şəhiddən yazır,*
*Varaq qoymayır ölsün!*

## İYNƏ

*Mənə neynəyirlər… neynəməyirlər,*
*Aman, qorxmayıram, aman, qorxuram!*
*Məni hər addımda "iynələyirlər"*
*İynə vurdurmaqdan yaman qorxuram!*

*Deyirlər, təzə bir bəla çıxıbdı,*
*Qaşı da elə bil, firuzə qaşı.*
*Məni çığırıblar, iynə vurdurum,*
*Dünyanı bürüyən virusa qarşı.*

*Qorxudan qan vurmur...qan vurur indi,*
*Özüm də bilmrəm neynəyim, neynim.*
*Elə bəlanın da iynəsi eyni,*
*Elə qalanın da iynəsi eyni,*
*Elə ölənin də iynəsi eyni...*

*Kişilərdən iynə əskik olmayıb,*
*Məni də incidən həmin iynədir.*
*O qədər mənə də "iynə" vurublar,*
*Az qalır, deyəm ki,"Ömür-iynədir"?!*

*Üstündə Allahın lütfü yoxsa da,*
*Yaşadan özünü nəylə yaşadır?*
*Bəşəri olmaya iynə böyüdüb,*
*Bəşəri olmaya iynə yaşadır!?*

*O inci iynədir, bu dürr iynədir,*
*İtirir itirsə hansı ölümü?*
*Elə məzarlar da bir cür iynədir,*
*Vururlar... sağalan, ölən bilinmir...*

*Aşkar, gizli necə iynələr varmış,*
*Dəymə xatirinə, dəymə sayının*
*Elə bil, qəribə yarış başlayıb,*
*İynə də iynəni iynələyirmiş,*
*Axtırıb günbəgün iynə sayını...*

*Sən deyən elə də hərif deyiləm,*
*Yaxşı bax, neynəyir... neynəməyirəm.*
*Mən də iynələrə iynə vururam,*
*Mən də iynələri iynələyirəm?!*

***

*Tapmaq olmur biləsən*
*Eşqi dilənmək ilə!*
*Qalxmaq olar ayağa*
*Eşqə dirənmək ilə!*

*Eşqlə güllənmək olar,*
*Eşqlə bal əmmək olar.*
*Nura bələnmək olar,*
*Eşqə bələnmək ilə!*

*Sən keçəsən qarşımdan,*
*Mənsə keçəm başımdan.*
*Bal dadarmı yalandan*
*Ağız sulanmaq ilə?!*

*Şahmata ki, uyarsan,*
*Oynayaqmı?-deyərsən.*
*Şahı da mat qoyarsan*
*Eşqi qullanmaq ilə!*

*Yaxşı bilsin harambaz,*
*Qara-qorxu yaramaz!*
*Eşqi bulandırammaz,*
*Bu su bulanmaq ilə!*

***

*Mənə doğmadı bu yer də,*
*O Göy də... mən də içmişəm*
*Bu Yerdə içən deyiləm,*
*O Göydə mən də içmişəm.*

*Allahın Neyiydim onda,*
*Ruhların toyuydu onda.*
*"Əzəl" adlanan o gündə,*
*O toyda mən də içmişəm.*

*Səhərdi bax, gecə keçib,*
*Olan olub, keçən keçib.*
*Övliyalar necə içib,*
*O boyda mən də içmişəm.*

*Dünya söylənilən puçdu,*
*Sevgidən savayı heçdi.*
*Eşqim Şeyx Sənan eşqi,*
*A sevda, mən də içmişəm.*

*Adam içir bircə kərrə,*
*Adam deyir bircə kər:"Hə!"*
*Çox yox, Barat, bircə zərrə*
*O Meydən mən də içmişəm!*

## LƏLƏ

*Aşiqtək düşəsən ana bətninə,*
*Gələndə dünyaya lələ gələsən.*
*Haqdan Cam içəsən, candan keçəsən,*
*Yolunu azmamış yola gələsən!*

*Qazanc götürəsən, itirməyəsən,*
*Ömrü bitirəndə bitirməyəsən.*
*Nə ola, fürsəti ötürməyəsən,*
*Məcnuntək vaxtında Çölə gələsən.*

*Cənnət qapısının qapıçısıyam,*
*Əfi ilanların ofsunçusuyam.*
*Səni vurmayacam, Haqq ovçusuyam,*
*Gələsən ay sonam, gölə gələsən!*

*Mən bülbül olmuşam bağa tək çıxıb,*
*"Ana! Ana!" deyən çağa tək çıxıb...*
*Ağa qarşısında ağa tək çıxıb,*
*Allah qarşısına kölə gələcən!*

*Barat, sən Obaya, sən Elə yaşa,*
*Ən gözəl işləri sən elə, yaşa!*
*Torpağın üstündə sən elə yaşa,*
*Altda çürüyəndə ələ gələsən!*

***

*Nə xoşbəxtsiz, deyirəm.*
*Haqqa bağlı olanlar.*
*Ağlı Eşqə dönənlər,*
*Eşqi ağlı olanlar!*

*Coşub daşır eşqiylə,*
*Dağlar aşır eşqiylə.*
*Cavanlaşır eşqiylə,*
*Eşqi ulu olanlar!*

*Sizintək sağ ha yoxdu,*
*Sizintək düha yoxdu.*
*Sizintək ağa yoxdu,*
*Eşqin qulu olanlar!*

*And bu: "Eşqə and olsun!"*
*"Yaradana həmd olsun!"*
*İşiniz avand olsun,*
*Eşqin oğlu olanlar!*

## BU DAŞIN YANI

*Yanına qaçıram tez-tez bir daşın,*
*Ən doğma kəsimdi bu daşın yanı!*
*Eşitmir, dünyanın qulağı kardı,*
*Eşidir səsimi bu daşın yanı!*

*Nə vaxt ki, bu daşa dirsəklənirəm,*
*Pərvəriş tapıram, ürəklənirəm.*
*Gül açır elə bil, çiçəklənirəm,*
*İlk bahar fəslimi bu daşın yanı?*

*Bu şeir, bu nağıl, bu dastan, elə,*
*Bəlkə yaranmışam bu daşdan elə?!*
*Demə nə görmüsən bu daşda belə?*
*Himidir, yurd himni-bu daşın yanı!?*

*Sevincə də mərhəm, elə dərdə də,*
*Sevinc də məlhəm,elə dərdə də.*
*Qəlbə də yarayır, elə hərbə də,*
*Sazın sarı simi-bu daşın yanı!*

*Bu daşla ev tikim gərək dünyada,*
*Tək ona qızdırım ürək, dünyada.*
*Heç nəyim olmasın neynək, dünyada,*
*Bəsimdi... bəsdimdi bu daşın yanı!*

*Balaca bənövşə dəsimi deyil,*
*Kim deyir, Baratın lazımı deyil?*
*Mənimçün hər şair Nəsimi deyil,*
*Mənimçün Nəsimi-bu daşın yanı!*

## HAQQ NURU

**(Hüseyn Arifin xatirəsinə)**

*Tamam işığını keçirməmişdi,*
*Ölüm öz zənnində yanıldı, şair.*
*Bir gecə keçəndə Ağstafadan*
*Sevindim, hamının eviylə birgə,*
*Evinin işığı yanırdı şair!*

*Ucaltsa ucaldar arifi, ruhu,*
*Etsə doğma edər qəribi, ruhu,*
*Yəqin qayıtmışdı Arifin ruhu,*
*Evinin işığı yanırdı şair!*

*Baxdım, gördüm nəslə dair işıqdı*
*Əsrlərlə əsrə dair işıqdı.*
*Yəqin belə olur şair işığı,*
*Evinin işığı yanırdı şair!*

*Aralı düşsə də gül budağından,*
*Uzağa düşmürmüş könül bağından,*
*Sanki süzülürdü Gülül dağından,*
*Evinin işığı yanırdı şair!*

*Külə dönməmişdi şair işığı,*
*Ruhən sınmamışdı şair işığı,*
*Yanır, sönməmişdi şair işığı,*
*Evinin işığı yanırdı şair!*

*Eşq yolunda canı aşiq verirdi,*
*Meydana nizamı aşıq verirdi.*
*İşığın özünə işıq verirdi,*
*Evinin işığı yanırdı şair!*

*Zərifdən zərifin işığı idi,*
*Baş hərfin-Əlifin işığı idi,*
*Hüseyn Arifin işığı idi...*
*Evinin işığı yanırdı şair!*

## *Elvin Əlizadənin imza günündən...*



**Gənc şair Elvin Əlizadənin "-29" adlı ilk şeirlər kitabının təqdimatı və imza günü baş tutdu. "-29"un nəfis tərtibatından, təqdimat mərasimindən açıq-aydın görünürdü ki, kitabı bu vaxta qədər gözləməyə dəyərmiş...**

İmza günü aprelin 16-sı MİHİ Sumqayıt şəhər Komitəsinin və Əli Kərim adına Sumqayıt Poeziya Evinin birgə təşkilatçılığı ilə keçirildi.

Qonaqların çoxluğu (məşhur simalar, tanınmış ədəbi imzalar, oxucular, dövlət qurumlarının nümayəndələri və b.) Elvin Əlizadənin ədəbi mühitdə yeni imza olmadığının əsas göstəricisi idi.

Aparıcılığı Əməkdar artist Cəlal Məmmədov öz öhdəsinə götürmüşdü. Kitabın "Ön söz" müəllifi, Poeziya Evinin direktoru İbrahim İlyaslı tədbiri açıq elan edərək Elvinin yaradıcılığından danışdı.

Azərbaycan Yazıçılar Birliyinin nümayəndələri: Rəşad Məcid, Elçin Hüseynbəyli, Xəyal Rza, AYB-nin Qubadlı bölməsinin sədri Namiq Məna, Sumqayıt bölməsin sədri Gülnarə Cəmaləddin; filologiya elmləri doktoru, professor, Rafiq Yusifoğlu; şairlərdən - Əşrəf Veysəlli, Ofelya Babayeva, Əvəz Mahmud Lələdağ, Ramiz Qusarçaylı; qiraətçi Xəzər Süleymanlı, Əməkdar jurnalist Rəhman Orxan və digər tanınmış söz adamları müəllifi təbrik etdilər.

Milli Məclisin Mədəniyyət Komitəsinin eksperti şair Əkbər Qoşalı,Sumqayıt icra hakimiyyətinin əməkdaşları Tərlan Hacıyev, Ceyhun Məmmədov, Yeni Azərbaycan Partiyasından - YAP-ın İdarə Heyətinin üzvü, Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov, YAP Mərkəzi Aparatın Gender siyasəti və gənclərlə iş şöbəsinin müdir müavini Zəkiyyə Musayeva və baş məsləhətçisi Fəsli Nəbiyev, Sumqayıt Regional Mədəniyyət İdarəsinin baş məsləhətçisi Ceyran Həsənova, "Regional Hüquqi və İqtisadi Maarifləndirmə" İctimai Birliyinin sədri Arzu Bağırova və digər qurumların nümayəndələri Elvin Əlizadəyə yaradıcılıq uğurları arzuladılar.

Əyyub Qiyas, Ehtiram İlham, Almaz Bəyazid, Ədalət Nicat, Şəhla Vahid, Amil Babayev, Samir Hacı, Elşad Xaqan, Xatirə Fərəcli, Hümbət Həsənoğlu, Xəqani Abbasəli Öztürk, Süleyman Sərraf, Əli Nəcəfxanlı, Xan Rəsuloğlu, Miraslan Rasim, Emin Piri, Vasif Zöhraboğlu, Taleh Mənsur, İntiqam Yaşar, Mansur Həsənzadə, Habil Rza-Nur, Aqşin Evrən, Günay Ümid, Aygün Yaşar, Gülnar Ümid, Aypara Ayxan, Vüsal Yurdoğlu Valeh Qoca, Vüsal Ağa və s. qələm sahibləri əvvəldən sonacan Elvini tək buraxmadılar.

Müəllifin şeirlərinin Aşıq Ruhiyyə Qarabağlı tərəfindən sazda, "Xalq Ulduzu" yarışmasının qalibi, xanəndə Tural Salmanov muğam üçlüyündə ifası tədbirə əlavə rəng qatdı. Tədbirdə Sumqayıt şəhər Təhsil şöbəsinin əməkdaşı Cəmilə Fəyyaz və bir sıra gənc müəllimlər müəllifin şeirini kompazisiya şəklində ifa etdilər və səbəbkara Xarı bülbülü simvolizə edən qələm bağışladılar. Elvinin müəllifi olduğu şeirin müəllimi Cəmalə Əliyeva tərəfindən səsləndirilməsi tədbir iştirakçılarının marağına səbəb oldu.

**Sonda Elvin Əlizadə təqdimat iştirakçılarının "-29"unu imzalamağa başladı...**

**Emin Piri**

«Gəncə Tekstil» ASC VÖEN 2300044991

## Maliyyə Durumu Haqqında Hesabat

Azərbaycan manatı ilə

| Maddənin №-si | | Qeyd | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|---|---|
| | Aktivlər | | | |
| 1 | *Uzunmüddətli aktivlər* | | 1108155.86 | 1101526.76 |
| 11 | Torpaq, tikili və avadanlıq | 111-112+113 | 649248.05 | 642618.95 |
| 12 | Qeyri-maddi aktivlər | 101-102 | 0.00 | 0.00 |
| 17 | Uzunmüddətli debitor borc | 17X | 458907.81 | 458907.81 |
| 19 | İnvestisiyalar | 19X | | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **1108155.86** | **1101526.76** |
| 2 | *Qısamüddətli aktivlər* | | 2089376.50 | 1953503.11 |
| 20 | Ehtiyatlar | 20X-208 | 704380.15 | 920948.75 |
| 21 | Qısamüddətli debitor borc | 21X-218 | 503583.04 | 549696.69 |
| 22 | Pul vəsaitləri və onların el | 22X | 1520.09 | 3388.22 |
| 23 | Sair qısamüddətli maliyyə | 23X-235 | 639927.82 | 239504.05 |
| 24 | Sair qısamüddətli aktivlər | 24X | 239965.40 | 239965.40 |
| | **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **2089376.50** | **1953503.11** |
| | **CƏMİ AKTİVLƏR** | | **3197532.36** | **3055029.87** |
| | KAPİTAL | | | |
| 30 | Ödənilmiş nominal (nizam | 301-302 | 535142.00 | 535142.00 |
| 31 | Kapital ehtiyatları | 31X | | |
| 34 | Bölüşdürülməmiş mənfəə | 34X-344 | -8061214.07 | -7203663.19 |
| | **CƏMİ KAPİTAL** | | **-7526072.07** | **-6668521.19** |
| | **ÖHDƏLİKLƏR** | | | |
| 4 | Uzunmüddətli öhdəliklər | | 616537.67 | 616537.67 |
| 42 | Təxirə salınmış vergi öhdə | 42X | | |
| 43 | Uzunmüddətli kreditor bor | 43X | | |
| 44 | Sair uzunmüddətli öhdəlik | 44X | 616537.67 | 616537.67 |
| | **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKL** | | **616537.67** | **616537.67** |
| 5 | Qısamüddətli öhdəliklər | | 10107066.76 | 9107013.39 |
| | | | | |
| 52 | Vergi və sair məcburi ödə | 52X | 872780.72 | 871876.42 |
| 53 | Qısamüddətli kreditor borc | 53X | 140228.97 | 222159.87 |
| 54 | Sair qısamüddətli öhdəlikl | 54X | 9094057.07 | 8012977.1 |
| | **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏ** | | **10107066.76** | **9107013.39** |
| | CƏMİ ÖHDƏLİKLƏR | | 10723604.43 | 9723551.06 |
| | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **3197532.36** | **3055029.87** |
| | Rəhbər | | Baş mühasib | |

## Məcmu Gəlirlər Haqqında Hesabat

| Maddənin №-si | | Qeyd | 2021-ci il | 2020-ci il |
|---|---|---|---|---|
| 60 | Əsas əməliyyat gəliri | 20 | 1142998.76 | 854647.07 |
| 70 | Satışın maya dəyəri | 24 | 1361573.64 | 1231226.15 |
| | **Ümumi mənfəət** | | **-218574.88** | **-376579.08** |
| 61 | Sair əməliyyat gəlirləri | 21 | 91356.83 | 79814.89 |
| 72 | İnzibati xərclər | 25 | | |
| | **Əməliyyat (zərəri)** | | **-127218.05** | **-296764.19** |
| 63 | Maliyyə gəliri | 22 | x | x |
| 75 | Maliyyə xərcləri | 27 | | |
| | Fövqəladə gəlirlər | 23 | | |
| | Fövqəladə xərclər | 26 | | |
| | **Vergitutmadan əvvəl mənfəət (zərər)** | | **-127218.05** | **-296764.19** |
| 90 | Mənfəət vergisi | 28 | 0.00 | 0.00 |
| 80 | Hesabat dövründə xalis mənfəət (zərəri) | | x(x) | x(x) |
| | Mənfəətdə iştirak payi: | | | |
| | Səhmdarların payı | | -127218.05 | -296764.19 |
| | Azlıqların payı | | x | x |
| | Səhmdarların payına düşən bir səhmin mənfəəti: bir səhmin əsas mənfəəti | 29 | | |
| | Rəhbər | | Baş mühasib | |

## KAPİTALDA DƏYİŞİLİKLƏR HESABATI

Azərbaycan manatı ilə

| | Qeyd | Nizamnamə K | Kapital ehtiyatl | Bölüşdürülmə | Cəmi Kapital |
|---|---|---|---|---|---|
| 1 yanvar 2021 tarixə qalıq | | 535142 | | -7203663.19 | -6668521.19 |
| | | | | | |
| Mülkiyyətçilərin karital qoyuluşları | 19 | | | | |
| Elan edilmiş dividendlər | | | | | |
| 1 yanvar 2021 tarixə qalıq | | 535142.00 | 0 | -7203663.19 | -6668521.19 |
| 2021-ci il üzrə xalis mənfəət\zərər | | | | **-127218.5** | **-127218.5** |
| Mülkiyyətçilərin karital qoyuluşları | 19 | | | | |
| Digər zərərlər | | | | -730332.38 | -730332.38 |
| Elan edilmiş dividendlər | | | | | |
| 31 dekabr 2021 tarixə qalıq | | 535142.00 | 0.00 | -8061214.07 | -7526072.07 |
| | | | | | |
| Rəhbər | | Baş mühasib | | | |

# *Filmlərin qəhrəmanı olmuş real qatil*

**Tereza Cimmi Fransina Knorr 14 mart 1946-cı ildə Amerikanın Kaliforniya ştatında anadan olmuşdu. Onun valideynləri zəhmətkeş insanlar idi. Atası Cim pendir istehsalçısı işləyirdi, anası Svanni isə qələm istehsalçısı idi. Tereza 15 yaşında olarkən anası ürək çatışmazlığından vəfat etmişdi. Bu hadisə onun depressiyaya düşməsinə səbəb oldu. Nəticədə o iddia edirdi ki, uşaqlıqda ögey ana tərəfindən zorakılığa məruz qalırdı. Ailənin dostları tərəfindən göstərilən informasiyaya əsasən Tereza öz bacısı Rozmariyə paxıllıq edirdi.**



29 Sentyabr 1962-ci ildə o Kliffard Klayd Sanderslə ailə həyatı qurur. 1963-cü ildə cütlüyün Hovard adlı oğlu dünyaya gəlir. 1964-cü ilin 7 iyun tarixində Tereza öz həyat yoldaşını güllə ilə qətlə yetirir, ancaq bu hadisəni "özünümüdafiə" kimi təqdim edərək həbs cəzasından qurtulur. Sandersin ölümündən sonra Robert Vallos Knorrla görüşməyə başlayan Terezanın Robertdən bir qızı dünyaya gəlir. 1965-ci ilin sentyabr ayında Tereza Robert Knorrla evlənir. Terezanın ikinci evliliyində 4 uşağı - Syuzan Marlen (1966), Uilyam Robert (1967), Robert Vallas kiçik (1968), Tereza "Terri" Meri (1970) dünyaya gəlir. Bir müddət sonra Tereza Knorrla boşanır və sonra bir neçə dəfə ərə gedir. "Cold Case Files" sənədli serialında Knorrun qızı Terrinin müsahibəsinə əsasən, qadın həmişə öz qızlarıyla (xüsusən Syuzanla və Şeli ilə) amansızcasına rəftar edirdi. Terri iddia edirdi ki, Knorr qızlara nifrət edirdi, çünki onların gözəlliyinin paxıllığını çəkirdi Qızı bildirmişdir ki, Knorr bəhanəsiz onları daim döyürdü və onların dərisində siqaret söndürürdü. Tereza Knorr oğullarına bacılarını döyməyi öyrədirdi. 1983-cü ildə Tereza Knorr 22 kalibrli tapançası ilə qızı Syuzanı vurmağa çalışdı. Güllə Syuzanın sinəsində ilişdi, amma Syuzan sağ qaldı. Bundan sonra qızının sağ qaldığını görən Tereza onu sağaltmağa çalışdı, ancaq təcili tibbi yardıma müraciət etməkdən imtina etdi. 1984-cü ildə Knorr anasteziyaedicilər kimi tioridazindən və likördən istifadə edərək qızın bədənindən gülləni çıxarmağa çalışdı, lakin alətlər steril olmadığından Syuzan sarılığa yoluxdu, daha sonra onda dəlilik əlamətləri yaratmağa başladı. Tereza digər uşaqlarını inandırmağa çalışdı ki, qız iblis tərəfindən tutulmuşdur. 1984-cü ildə Syuzana aid olan hər şeyi onunla birlikdə yandırmağı qərara aldı. Əşyalarını bir çantaya yığdı, Syuzanın ağzını bağladı və yandırdı. Tereza Syuzanı Serra-Nevada dağlarına aparmaq işini isə oğlanlarına tapşırmışdı. Sonrakı tədqiqatlarda Syuzanın diri-diri yandırıldığı müəyyən olmuşdur.

Terezanın qızlarına etdiyi zülmlər bununla da bitmədi. O digər qızı Şeliyanı fahişəliklə məşğula məcbur edirdi. Daha sonra isə Şeliyanı ittiham etdi ki, qızı onu unitazı vasitəsilə zöhrəvi xəstəliyə yoluxdurmuşdur. Cəza olaraq isə Tereza Şeliyanı otaqda bağlı saxladı, bir neçə həftədən sonra qız aclıqdan öldü.

1993-cü ilin 28 oktyabrında Terezanın qızı Terri "America's Most Wanted" verilişinə baxdıqda polisə müraciət etmişdir. Polislər əməliyyat nəticəsində Syuzanın cəsədini tapmışdır. Bundan sonra onlar Terrinin sözlərinə inanaraq əməliyyatı davam etdirmişdilər. Həmin ilin 10 noyabr tarixində Tereza Salt Lake City-dəki evində tutulmuşdur. Onun oğlu William 8 noyabr tarixində yaşayıb, işlədiyi Woodland şəhərində yaxalanmışdır. Həbs olunarkən Tereza cinayətlərini təkzib etsə də, oğullarının onun əleyhinə şahidlik etdiyini bildikdən sonra başqa şansı qalmır. Terezaya 1995-ci ilin oktyabrında 2 dəfə ömürlük həbs cəzası verilmişdir. 2027-ci ildən tez olmayaraq Tereza Knorr apelyasiya məhkəməsinə müraciət edə bilər.

Qeyd üçün deyək ki, Tereza özü hal-hazırda həyatda olsa da onun həyatda qalan yeganə qızı Terri 2011-ci ildə vəfat etdi.

**2010-cu ildə çəkilmiş qorxu film "The Afflicted" (həmçinin "Another American Crime") Tereza Knorrun cinayətləri əsasında çəkilmişdir. Film real həyat hadisələrini əks etdirsə də, sonluq fərqlidir. Filmin sonunda ən gənc qız intiharından öncə anasını və qardaşının birini öldürür.**

**Eminquey**

# <u>*"Çılpaq" filminin qəhrəmanı:*</u> "Meyit dedi ki, baba, bir də gördüm, molla üstümə uzanıb"

***Adalet.az saytının müsahibi əməkdar artist Rasif Cəfərdir. Onunla yeni çəkildiyi rejissoru Hikmət Rəhimov olan "Çılpaq" filmi haqqında söhbət etdik.***

**- Rasim, həm teatr, həm də kino aktyorusunuz. Hərəsi ayrı mühitdir. Bu ikisini bir yerdə necə alındırırsınız?**

- Teatr mənim üçün bir növ məşq yeridir. Teatr aktyoru, kino aktyoru, serial aktyoru - bu kimi bölgüləri qəbul etmirəm. Aktyor var, kinoda oynaya bilir, aktyor var, teatrda, aktyor da var, heç birində. Məsələn, Al Paçino həm teatr aktyoru idi, həm də kino. Aktyor özü bilməlidir ki, indi hansı meydançadadır, metaforadan istifadə etsək, hansı silahlardan istifadə edə bilərəm. Bu, aktyorun şəxsi peşəkarlığından irəli gələn şeydir. Teatr aktyor üçün məşq yeridir. Mən orada bütün hisslərimi, fiziki bacarıqlarımı cilalayıram, hazır vəziyyətdə saxlayıram, korşalmağa qoymuram. Bir tamaşanı aylarla oynayırsan, hər dəfə təzə nəsə kəşf edirsən, hər dəfə biraz da başqa cür oynayırsan. Oradakı təcrübəndən də filmdə, serialda istifadə edirsən. Al Paçinoda xoşuma gələn bir şey var. O Stanislavski sistemi ilə işləyir. Yəqin ki Al Paçinonun "Liüo so şramom" filminə baxmısınız. O Kuba küçələrindən böyük adamların yanında gedib çıxır. Film boyu bircə hərəkəti təkrarlayır - kəmərindən tutub şalvarını yuxarı dartır. O, küçədə avaralarla danışanda da bunu edirdi, böyük vəzifəli adamların yanında da.

**- Yəni bir hərəkətlə əslində kim olduğunu göstərirdi.**

- Bəli. Düşünürəm ki, bu hərəkəti tapmaq teatr aktyorun işidir. Bəlkə də çox adam bu detala fikir verməyib. Bu hərəkətlə göstərir ki, gəlib bu yüksək yerlərə çıxsa da, elə küçə adamıdır.

**- Rasim, necə oldu ki, "Çılpaq" filminə təklif aldınız?**

- Hikmət Rəhimov qaralama kimi bir ssenari yazmışdı. Mənə göstərdi. Oxudum, sonra görüşüb müzakirə etdik. Sonra Hikmət ssenarinin üzrəində bir də işlədi, təkmilləşdirdi. Bir müddət yenə görüşdük, başladıq maliyyə tərəflərini həll etmək üçün yollar axtarmağa. Sonda "İctimai TV"yə təklif etdik. Kanalın rəhbəri Balakişi müəllim, Tural Sevdimalı, Yalçın ssenarini oxuyandan sonra filmin çəkilişinə dəstək göstərməyə razılıq verdilər. Aktyor seçimləri barədə danışanda Hikmət dedi ki, istəyirəm, əsas obraz olan Sabiri sən oynayasan. Mən bütün bu müddət ərzində Sabiri biraz başqa cür təsəvvür edirdim. Daha yaşlı, daha olğunlaşmış biri kimi. Hikmətdən soruşdum ki, əminsən, biz bunu bir yerdə işləyə biləcəyik? O da əminliyini ifadə etdi. Ssenari də çox xoşuma gəlmişdi, Sabir obrazı da mənim üçün maraqlı idi.

**- Sabir kimdir?**

- Qonşuda bir nəfər rəhmətə gedib. Onun da oğlu əqli qüsurlu biridir. O obrazı Hikmət özü oynayıb. Adamın ölməsindən heç kimin xəbəri yoxdur, neçə gündür meyit evdə qalıb. Axır ki, xəbər tuturlar. Sabir o meyiti götürüb basdırmaq üçün yer axtarır. Bütün film boyu Sabir, Rüstəm, meyiti də saysaq üç obraz (gülür) qəbiristanlıqları gəzib yer axtarırlar, amma tapa bilmirlər. Bütün hadisələr yolboyu baş verir. Və sonda nə olur? Onu deməyək, film nümayişə çıxanda xəbəriniz olacaq.

**- Kimlərin hekayəsini danışır bu film?**

- Bu adamlar həyatın dibində olanlardır. Rus demiş, "konçinni" adamlar. O adamların bir-birinə münasibətidir, mübarizəsidir. Onlar əzilmiş, sınmış, dibdə çabalayan adamlardır.

**- Çox bədbin deyilmi?**

- Bədbin deməzdim. Həmişə deyirik ki, kino həyatın güzgüsüdür. . Həyatın bu tərəfi də var. Bunu da göstərmək lazımdır.

**- Film dialoqları necə, təbii alınıbmı?**

- Hikməti tanıyan adamlar bilir ki, o, filmdə açıq, səmimi dialoqları sevən adamdır və özü də adi həyatda belədir. Biz də film boyu çalışmışıq ki, bunu qoruyub saxlayaq. Təqdim etdiyimiz obrazların dilində "bağışlayın, zəhmət olmasa" kimi terminlər yoxdur. Onlarda hər şey daha sərtdir, daha açıqdır. Nə var, odur.

**- Tamaşaçılar axı hələ də buna hazır deyil?! Əksərən qınayırlar. Heç TV-lər də söyüşlü, açıq dialoqları olan filmlərə yer vermirlər. Məsələn, Emil Quliyevin "Pərdə"sini efirdə görmədik.**

- Əslində bu tip filmlərlə tədricən o divarı qırmaq lazımdır. Kimlərsə bunu etməlidir. Bu tip janrlarda o ütülü dildən istifadə etmək filmə xələl gətirir. Bir vaxtlar Tarantino da söyüşlü filmlər çəkməyə başlayanda qınanmışdı. Deyirdilər ki, o, küçəni kinoya gətirdi. Amma indi hamı Tarantinonu qəbul edir. Ən sadə formada desək, TV-lər bu tip filmləri gecə saat 12-dən sonra da göstərə bilərlər. Baxmaq istəyən də arvad-uşağı qovsun, rahat-rahat baxsın (gülür).

**- Lap "Bəxt üzüyü"ndəki kimi.**

- Cem Yılmaz demiş, türk filmlərinə baxanda mafioz olmaq istəyir ki, türcə daha yaxşı danışa bilsin. Bir personajın narkomandırsa, gəlib deməli deyil ki, bağışlayın, zəhmət olmasa mənə 2 qram kokain verin.

**- Filmin çəkiliş proseslərində maraqlı nələrsə baş verdimi?**

- Əvvəla onu deyim ki, çəkiliş prosesi çox çətin oldu. Çünki həm maliyyəsi az idi, həm işçi qrupu az idi, həm də texniki baxımdan çox ağır səhnələr vardı. Demək olar ki, filmin 60-70 faizi yağışda çəkilib. Təsəvvür edin ki, hər dəfə yanğınsöndürənlər su çiləyir, suyun altında qalırsan. 8 gün dayanmadan çəkilişlər oldu və bitirdik. Hikmət çox vaxt yanğınsöndürən su şlankını özü tuturdu. Çünki kadrlara baxırdı, nələrsə yolunda getməyəndə özü müdaxilə edirdi. Eləcə də bütün kollektiv canfəşanlıqla işləyirdi. Hamı filmə xidmət edirdi. Həm də filmin çox hissəsi qəbiristanlıqlarda çəkilib. Hətta sürdüyüm "UAZ"ı da çəkiliş gedə-gedə vurmuşdum.

**- Necə?**

- Təsəvvür edin, maşının qabaq hissəsində kamera quraşdırılıb. Maşını mən sürürəm. Hikmətdi, Elşəndi, mollanı oynayan Məmməd müəllimdi, bir də meyitdi. Səhnə DSK yolunda çəkilir. Maşın köhnə maşındı. Sürət qutusu güclə işləyir. Avtomat sürdüyüm üçün də mexanika sürmək mənə çətin gəlir. O yolla da çoxlu "KAMAZ"lar gedib-gəlir. İstədim ki, qabaqdakı kamazı keçəm. Molla "Yasin" oxuyur, Hikmət nəsə edir, Elşən mənimlə söhbət edir, mən də ona baxa-baxa maşın sürürəm. Yan güzgüsünə baxdım, gördüm arxadan gələn yoxdur. Qabaqdakı yük maşının keçmək istəyəndə gördüm ki, arxadan kimsə sürətlə gəlir. Sükanı sağa qaytaranda yaxşı ki, qarşıdakı maşına kamera qarışıq girmədim, amma maşının qabaq sağ tərəfəi əməlli-başlı qarşıdakına girdi. Səsi yazan Murtuza qayıtdı ki, baba, bir də gördüm molla qucağımdadı. (gülür). Biraz qan-qaraçılıq oldu, amma yaxşı qurtardıq.




**- Sonra maşını dəyişdiniz?**

- Yox, dəyişmədik, sadəcə ondan sonrakı səhnələrdə maşını ancaq bir tərəfdən çəkmişik.

**- Hikməti aktyor kimi tanıyırıq, bəs rejissor kimi necədir?**

- Hikmətin üstün cəhəti odur ki, o, yaxşı aktyordur. O, səhnəni iliyinə kimi hiss edə bilir. Kadrdaxili mizanı bilir. Personajın ritmini bilir. Ona görə də aktyor kimi mənə doğru-düzgün istiqamət verə bilirdi. Komandanı özünə inandırmağı çox yaxşı bacarır. Açığı, filmə hələ heç özümüz də baxmamışıq. Amma inanıram ki, çox yaxşı film olacaq.

**- Bir tamaşaçı kimi istəyərdik ki, filmlərimizdən, rejissorlarımızdan ağız dolusu danışaq. Məsələn, İran filmi kimi. Fəqli-fərqli rejissorlar, hərəsinin öz xətti. Bizdə də var, təbii ki. Elxan Cəfərov, Emil Quliyev var. Amma İran film sektorundan danışdığımız kimi danışa bilmirik. Belə hesab etmək olar ki, Azərbaycan film sektoru bu kimi filmlərlə canlanır? Yəni bu inkişaf dövrüdürmü?**

- Bilirsiniz, Sovet dövründə öyrəşmişdik ki, hər şeyi dövlət maliyyələşdirsin, kino çəkilirsə, Sovet ideologiyasına xidmət etsin və sairə. Artıq Sovet dövrü deyil. Kino marketinqdir. Kino kommersiya məhsuludur. Bizdə bunun bazarını yaratmaq lazım idi. Çox kobud ifadə edim, əgər Azərbaycan bazarında qarğıdalıya tələbat yaratmamışamsa, haradansa qarğıdalı gətirmək fiaskodur. Ölkə balacadır, bu miqyasa uyğun da bazar yaratmaq olar. İran, Türkiyə böyük ölkələrdir. Biri var, 80 milyonluq ölkə üçün film çəkirsən, biri də var, 10 milyonluq ölkə üçün. Hansı daha çox gəlir gətirəcək? Orxan Mərdan bu mənada çox çalışır. Filmləri bölgələrə daşıyır. "Zəhər tuluğu"nu demək olar ki, bütün rayonlara apardı. Hətta Dağıstanda da nümayiş olundu. Birinci növbədə kinoteatrlar fəaliyyətə başlamalıdır. Təkcə Bakıda yox, bölgələrdə də. Kinoya kapital ayıran soruşur, mənə nə vəd edirsən? Nə üçün sənə pul verməliyəm?

**- Heç Bakının özündə belə kinoteatr azdır. "Əhmədli"də, "Hövsan"da kinoteatr var ki?!**

- Bir dəfə Zeynəb Atakan Bakıya gəlmişdi. Söhbət art filmlərdən düşəndə dedi ki, biz "Recep İvedik" kimi filmlərə pul qoyuruq ki, ordan artıqlaması ilə pul qazanıb art filmlərə xərcləyək. Bizdə də bu sistem işə düşməlidir. Orxan Mərdan "Xoxan", "Naxox" kimi filmləri çəkdi, ordan gələn pulla "Pərdə"yə maliyyə dəstəyi verdi. Bölgələrdə şərait yaratmaq lazımdır. İnsanların filmə baxmağa marağı var və onları kinoya gətirmək lazımdır. O ki qaldı rejossor məsələsinə, dünya festivallarına çıxan rejissorlarımız var. İlqar Nəcəfov, Asif Rüstəmov, Elvin Adıgözəl var... Amma onlar geniş tamaşaçı kütləsinə məlum deyil.

**- "Çılpaq" filmi nə vəd edir? Mesajı nədir?**

- Açığı bu barədə nəsə deməyə çətinlik çəkirəm.

**- O zaman sualı belə qoyum - ümumiyyətlə bir film mesaj vermək məcburiyyətindədirmi?**

- Məncə xeyr. Nə ədəbiyyat, nə də film. Yaradıcı insanın öz daxili dünyası var. Öz kriptoları ilə vuruşur, çözməyə çalışır. Və sonra bunu filmə yansıdır. Bəzən deyirlər ki, biz bu filmə baxın nə örnək götürək? Axı kim sənə deyir ki, bax və örnək götür? İnanmıram, hansısa bir oğru filmə baxıb desin ki, vəssalam, sabahdan oğurluq etməyəcəm. Filmə bax, öz nəticəni çıxar da. Kim nə mesaj alacaq, o onun öz daxili dünyası ilə bağlı olan şeydir.

**Söhbətləşdi:**
**Eminquey**

### Elan

Abşeron rayon, Mehdiabad qəsəbəsi, 28 may küçəsi, Kotanlı Mtk, bina 2, mənzil 34-də yaşayan Yusifova Səidə Əhməd qızının adına olan müqavilə itdiyi üçün etibarsız sayılır.


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 75
Çapa imzalanmışdır:
22.04.2022